RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 271 (8587) CÜMƏ AXŞAMI, 24 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV dedi və etdi



**“Nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm”.**
**İlham ƏLİYEV**

- **Biz bir qarış torpağımızı belə düşmənə güzəştə getməyəcəyik!**
- **Biz Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına yol verməyəcəyik!**
- **Biz işğal olunmuş torpaqlarımıza qayıdacağıq!**
- **Biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik!**

**Bu sözləri cənab İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi 17 il ərzində müxtəlif məqamlarda dəfələrlə, dönə-dönə demişdir!**

**Budur, dedi və etdi!**

*Erməni hərbi birləşmələri Azərbaycan torpaqlarından qovuldu!*

*Azərbaycanın hər bir yaşayış məntəqəsində üçrəngli bayrağımız dalğalandı!*

❖ ❖ ❖

**Dövlətsiz ermənilərə Azərbaycan torpaqları hesabına dövlət yaradılması xalqımızın faciəsinə çevrildi.**

**XX əsrdən start verilən bu proses günümüzədək davam edir.**

Qədim Azərbaycan şəhəri İrəvan Ermənistana paytaxt kimi verildi.

1948-1953-cü illərdə soydaşlarımız dədə-baba torpaqlarından deportasiya edilərək onlara məxsus yaşayış məntəqələrində xaricdən gətirilən ermənilər yerləşdirildi.

Ötən əsrin 90-cı illərində SSRİ-nin süqutu dövründə yaranan fürsətdən bəhrələnən ermənilər havadarlarının köməyi ilə yeni torpaqların işğalına başladılar.

Həmin vaxtlar Dağlıq Qarabağı və ətrafdakı yeddi rayonu ermənilərin işğal etmələrinin bir neçə səbəbi də vardı:

*Əvvəla, Ulu Öndər Heydər Əliyev Siyasi Büro üzvlüyündən kənarlaşdığından daha onlara Moskvada kimsə mane ola bilmirdi.*

*İkincisi, həmin dövrdə Azərbaycana mərkəzi rəhbərliyə mütilik göstərənlər, maymaqlar, qorxaqlar, qətiyyətsizlər, habelə səriştəsizlər və vəzifə hərisləri başçılıq edirdilər.*

*Üstəlik nə vaxtında ordu yaradıldı, nə torpaqların müdafiəsi təşkil olundu, nə də beynəlxalq qurum və təşkilatlarla iş aparıldı.*

İşğal faktı başa çatdıqdan sonra isə BMT-nin 4 məlum qətnaməsinin icrası bu məqsədlə yaradılan ATƏT-in Minsk qrupuna həvalə edildi.

**28 il ərzində bir santimetr belə torpağın qaytarılmasını təmin etməyən Minsk qrupunun mövqeyi “Münaqişənin hərbi yolla həlli variantı yoxdur, yalnız sülh danışıqları vasitəsilə torpaqlar azad oluna bilər” oldu.**

**Hələ bu harasıdır, ATƏT-in Minsk qrupu:**

- Bir dəfə də Ermənistana “işğalçı”demədi;
- İşğalçı ilə işğala məruz qalanı fərqləndirmədi, daim tarazlaşdırmağa çalışdı;
- Ermənistana “işğal etdiyin ərazilərdən çıx” (BMT-nin 4 qətnaməsinə uyğun olaraq) söyləmədi;
- Heç bir sanksiya tətbiq etmədi!
- Bütün fəaliyyəti ilə danışıqları uzatmağa, yaranan “reallıqla” Azərbaycan tərəfini barışdırmağa çalışdı.

*Ardı 5-ci səh.*

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olublar

**Dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.**

***(Geniş hesabat qəzetin növbəti nömrəsində dərc olunacaq).***





## Zəfər Komandanı

**Tarixboyu gələcək hədəfləri özündə ehtiva edən, mütərəqqi ideyalar ətrafında sıx birləşməyi bacaran xalqlar qarşıya qoyduqları məqsədlərə doğru daha inamla irəliləyib və uğurlu nəticələr əldə ediblər.**

Fəqət bu da inkaredilməz reallıqdır ki, hansısa ideyanın mütərəqqi mahiyyəti özlüyündə hələ onun uğuruna təminat vermir: perspektiv hədəflərlə bağlı ideyalar o vaxt həyati və cəlbedici təsir bağışlayır ki, onun reallaşdırılması mexanizmləri barədə aydın təsəvvürlər mövcud olsun. Bu cür yetkin baxışın olması xalqın mandatı əsasında ölkəyə rəhbərlik missiyasını üzərinə götürmüş liderlərin idarəçilik keyfiyyətlərindən və gələcəklə bağlı optimal qərarlar qəbul etmək məharətindən asılıdır.

*Ardı 7-ci səh.*

## Qalibiyyət missiyası

**Tarixboyu hər bir xalqın milli inkişaf yolunun banisinə çevrilən, onu dünya miqyasında tanıdaraq layiqli mövqelərə çıxaran liderlər həm də dövlətçilikdə uğurlu varislik ənənələri formalaşdıraraq müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin ediblər.**

Ötən əsrdə xalqımızın yetirdiyi nadir şəxsiyyətlərdən olan Ulu Öndər Heydər Əliyev də müstəqil Azərbaycanın davamlı inkişaf konsepsiyasını irəli sürməklə yanaşı, bu strateji kursu zamanın diktə etdiyi yeni şərtlər müqabilində davam etdirməyə qadir, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı yetişdirib.

*Ardı 9-cu səh.*



## Müzəffər sərkərdə və onun şanlı zəfəri



**Xalqın tarixi onun həyatının unudulmayan anlarının salnaməsidir. Bu anlar xalqın keçmişindən xəbər verir, taleyini müəyyən edir, gələcəyinə işıq salır. İndiki nəsillərin şahidi olduğu son 30 ilin millətimizin tale salnaməsinin parlaq hadisələrlə zəngin olan səhifəsi hesab edilməyə tam haqqı çatır.**

Azərbaycanın dövlət müstəqilliyinin bərpası, qısa vaxtda möhtəşəm iqtisadi yüksəliş yolu keçərək müasir və qüdrətli məmləkətə çevrilməsi tariximizin əbədiyyətə qovuşan səhifələrini təşkil edir. Bu tarix xalqımızın rəşadətinin, dövlətimizin qüdrətinin təzahürləridir. Bu tarix 2020-ci ilin Vətən müharibəsində müşahidə etdiyimiz qəhrəmanlığın və şanlı zəfərin istinad nöqtəsi, ilham mənbəyidir.

Tarixi yaradanlar qüdrətli, hər şeyə qadir, xalqının taleyini dəyişdirə bilən şəxsiyyətlərdir. Həmişə belə olub. Bu gün də belədir. Gələcək də qüdrətli şəxsiyyətlərin həyat salnaməsi olacaqdır.

*Ardı 4-cü səh.*

## Tariximizin ən şərəfli səhifəsinin müəllifi

**Xalqların dünyada nüfuzunu artıran yalnız onların maddi-mədəni sərvətləri deyil, həm də mütərəqqi ideyaları ilə tarixi proseslərə mühüm təsir göstərən şəxsiyyətləridir.**

Onların seçdiyi yol milli inkişaf strategiyasının əsasında dayanır və təmsil etdikləri ölkələrin dünya birliyində özünə layiqli yer tutmasını təmin edir. Belə şəxsiyyətlərdən biri, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu layiqincə davam etdirən Prezident İlham Əliyevdir.

*Ardı 6-cı səh.*

## Səmimi təbriklər

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

Son illərdə Çin-Azərbaycan münasibətlərinin dinamik inkişafı müşahidə edilir, qarşılıqlı siyasi etimad günbəgün möhkəmlənir. "Bir kəmər, bir yol" layihəsi üzrə iki ölkənin əməkdaşlığı, habelə beynəlxalq arenada qarşılıqlı fəaliyyət uğurla və səmərəli şəkildə inkişaf edir. COVID-19 pandemiyası yayılandan sonra Çin və Azərbaycan iki xalq arasında möhkəm dostluq nümayiş etdirərək bir-birinə səmimi kömək göstərir. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm, ikitərəfli dostluq və əməkdaşlığın, müxtəlif sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın ölkələrimizin və xalqlarımızın rifahı naminə dərinləşməsi üçün Sizinlə birgə səy göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı bildirməkdən olduqca məmnunam.

Biz Sizi təcrübəli və bacarıqlı dövlət xadimi, Azərbaycan xalqının böyük sevgisini və etimadını qazanmış şanlı lider, beynəlxalq arenada ölkəsinin nüfuzunun hərtərəfli artırılmasına şərait yaradan görkəmli siyasi xadim, habelə Özbəkistanın zamanın sınağından çıxmış yaxın dostu kimi tanıyırıq və bunu yüksək qiymətləndiririk.

Bununla bərabər, icazə verin, Dağlıq Qarabağda hərbi əməliyyatların başa çatması məsələsində Sizin səyləriniz sayəsində əldə olunmuş razılaşmaya görə zati-alinizi bir daha təbrik edim. Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə və sənədlərinə müvafiq olaraq qəbul edilmiş bu çox mühüm qərarlar bütün Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün və davamlı inkişafın təmin edilməsi üçün böyük əhəmiyyətə malikdir.

Əminəm ki, qarşıdakı yüksəksəviyyəli görüşlərin nəticəsində, habelə birgə səylərimiz sayəsində siyasi, ticari-iqtisadi, nəqliyyat, kommunikasiya, mədəni-humanitar sahələrdə bizim çoxplanlı münasibətlərimiz tamamilə yeni səviyyəyə yüksələcək.

Fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin Prezidentliyiniz dövründə Azərbaycan Respublikasının özünü regional lider kimi təsdiq etdiyini, ikitərəfli münasibətlərimizin isə strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulamaq mənim üçün son dərəcə xoşdur.

Ukrayna ilə Azərbaycan arasındakı münasibətlərin dostluq və qarşılıqlı anlaşma əsasında gələcəkdə daha da dərinləşməsində birgə marağımızın olduğuna əminəm.

Dost Azərbaycanın ölkəmizə verdiyi hərtərəfli dəstəyi və Sizin şəxsi səylərinizi yüksək qiymətləndirərək, Ukrayna gələcəkdə də Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyəcəkdir.

Ukrayna və Azərbaycan arasında aktual məsələlərin geniş spektri üzrə şəxsi dialoqumuzun davam etdirilməsi üçün ilk münasib fürsətdə Sizi rəsmi səfərlə Kiyevdə görməyə şad olardım.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, tükənməz enerji, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Vladimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulamaqdan şərəf duyuram.

Cənab Prezident, xalqınızın rifahı və tərəqqisi üçün qarşıya qoyulan məqsədlərə çatmaqda Sizə uğurlar diləyirəm.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimizin vətəndaşlarının rifahı üçün qarşılıqlı maraq doğuran hər bir sahədə dostluq münasibətlərinin möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün bundan sonra da birgə səylərimizi davam etdirəcəyimizə ümidvaram.

Cənab Prezident, Sizə ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Zati-alinizə ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzu edirəm.

*Hörmətlə,*

***II ABDULLAH,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan öz dövlətçiliyinin möhkəmlənməsində, beynəlxalq arenada nüfuzunun artmasında və xalqın rifahının yaxşılaşdırılmasında əhəmiyyətli uğurlar qazanıb.

Türkmənistanın Azərbaycanla hərtərəfli əməkdaşlığının indiki səviyyəsini yüksək qiymətləndirərək, ənənəvi qardaşlıq və mehriban qonşuluq münasibətlərimizin inkişafına Sizin şəxsi diqqətinizi və böyük töhfənizi xüsusi qeyd etmək istərdim.

Biz ölkələrimiz arasında zamanın sınağından çıxmış siyasi, ticari-iqtisadi və mədəni-humanitar əlaqələri bundan sonra da genişləndirmək niyyətindəyik. Qəti əminik ki, Türkmənistan-Azərbaycan dövlətlərarası münasibətləri və çoxplanlı tərəfdaşlığı birgə səylərimizlə bundan sonra da xalqlarımızın rifahı naminə durmadan möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ailə səadəti arzulayır, ölkənizin qardaş xalqına isə sülh, tərəqqi və firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Müasir Azərbaycanın davamlı inkişaf və firavanlaşma yolunda nailiyyətləri Sizin dövlət başçısı vəzifəsində konstruktiv və uzaqgörən siyasətinizin nəticəsidir. Siz yüksək peşəkarlığınız və qazandığınız həyat təcrübəsi sayəsində bizə dost Azərbaycanın suverenliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsinə böyük töhfə verirsiniz, xalqınızın rifahının və ölkənizin beynəlxalq arenada nüfuzunun artmasını təmin edirsiniz.

Biz ölkələrimizin xalqlarını bir-birinə bağlayan tarixi dostluq, qarşılıqlı anlaşma və dəstək ənənələrinə əsaslanan çoxplanlı Tacikistan-Azərbaycan əlaqələrinin inkişafı üçün Sizin mühüm səylərinizi yüksək qiymətləndiririk.

Yüksək səviyyədə müntəzəm siyasi dialoq iki ölkənin dövlətlərarası əməkdaşlıq münasibətlərinin ardıcıl olaraq möhkəmlənməsinin mühüm amilidir. Əminəm ki, biz xalqlarımızın rifahı naminə bu münasibətləri bundan sonra da dərinləşdirəcəyik.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə səmimi arzularımla təbrik edirəm.

Azərbaycan Sizin peşəkarlığınız və həyat təcrübəniz, xalqların dəstəyini və hörmətini qazanmış müdrik rəhbərliyiniz sayəsində çoxlu nailiyyətlər əldə etdi.

Əminəm ki, Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasındakı faydalı əməkdaşlıq, habelə ölkələrimizin dostluq münasibətləri xalqlarımızın rifahı naminə gələcəkdə də möhkəmlənəcək.

Eyni zamanda Sizi Qırğız Respublikasının xalqı adından və şəxsən öz adımdan qarşıdan gələn yeni 2021-ci il münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı və uzun ömür, ali dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Talant MAMITOV,***
***Qırğız Respublikasının Prezidenti vəzifəsini icra edən***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizin yorulmaz fəaliyyətiniz, böyük istedadınız və zəngin siyasi təcrübəniz Azərbaycanın daha da inkişafına və ölkənizin beynəlxalq aləmdə nüfuzunun artmasına töhfələr verir.

Əminəm ki, ölkələrimiz arasında mehriban qonşuluq, qarşılıqlı anlayış və inteqrasiya ənənələrinə söykənən strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da dinamik şəkildə inkişaf edəcək və möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirəm.

*Ən xoş arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə həyat yoldaşım İmantsın adından və öz adımdan ən xoş təbriklərimizi və arzularımızı qəbul etməyinizi xahiş edirəm. Sizə daim möhkəm cansağlığı, xoşbəxtlik, xoş əhvali-ruhiyyə arzu edir, xalqınızın sevgisi və dəstəyindən zövq almağı diləyirəm.

Sizin builki doğum gününüz doğma vətəniniz Azərbaycanın uzun müddət işğal altında qalan torpaqlarının azad olunması ilə eyni dövrə təsadüf edir. Fürsətdən istifadə edərək, ali rəhbərliyiniz və Silahlı Qüvvələrinizin şücaəti sayəsində qazandığınız şanlı Qələbə münasibətilə Sizi bir daha təbrik edirəm. İşğaldan azad etdiyiniz şəhər və kəndlərin yenidən qurulması, torpaqların istifadəyə hazırlanması və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması kimi qarşınızda duran vəzifələrin də uğurla yerinə yetirilməsində Sizə nailiyyətlər diləyirəm. Əminik ki, dağıdılmış tarixi və mədəni abidələr Sizin fədakar səyləriniz sayəsində bərpa olunaraq bütün dünyaya nümayiş etdiriləcək.

Həmsədrimiz İsmayıl Serageldinin və Qəyyumlar Şurasının üzvlərinin təbriklərinə qoşularaq Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə şəxsən Sizə minnətdarlığımı bildirirəm. Məhz Sizin bizə və missiyamıza etimadınız sayəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi pandemiya şəraitində yaşadığımız 2020-ci ildə sanballı nailiyyətlər əldə edib. Beynəlxalq səfərlərin və üzbəüz görüşlərin qeyri-mümkün olduğu bir zamanda Nizami Gəncəvi Beynəlxalq Mərkəzi əvvəlki illərdən fərqli olaraq çoxlu sayda həm yüksəksəviyyəli onlayn görüşlərin təşkilatçısı, həm də iştirakçısı olub. BMT, Ümumdünya Elm və İncəsənət Akademiyası kimi nüfuzlu təşkilatlardan tutmuş Avropa İttifaqı ölkələri və Çinlə, eləcə də onların aparıcı institutları ilə fəal tərəfdaşlıq etmişik. Şəxsən mən bu il Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə əvvəlki illərlə müqayisədə daha çox vaxt sərf etmişəm. Əmin ola bilərsiniz ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin getdikcə daha da artan səmərəli fəaliyyəti Azərbaycanın mühüm ölkə kimi nüfuzunun yüksəlməsinə və onun dünyada maraq doğuran məsələlərdə daim yeni dostlar və tərəfdaşlar qazanmasına töhfə verməkdədir.

Cənab Prezident, bir daha Sizə ən yüksək ehtiramımı bildirirəm.

*Səmimiyyətlə,*

***Vayra VİKE-FREYBERQA,***
***1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri***

❖ ❖ ❖

Hörmətli Prezident!

Doğum gününüz münasibətilə təbriklərimi qəbul edin.

Latviya və Azərbaycan arasında dostluq, qarşılıqlı hörmət və yaxın əlaqələri yüksək dəyərləndirirəm.

Arzu edirəm ki, növbəti il ölkəniz və şəxsən Sizin üçün xoş hadisələrlə zəngin olsun.

*Qarşıdan gələn ildə Sizə ən xoş arzularla,*

***Raymonds VEYONİS,***
***Latviya Respublikasının sabiq Prezidenti (2015-2019), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli Prezident Əliyev!

Sizi doğum gününüz münasibətilə təbrik edir və ən xoş arzularımı çatdırıram.

Prezidentliyim dövründə Sizinlə bir neçə dəfə görüşümüz olub. Sizin Xorvatiyaya rəsmi səfəriniz və mənim Azərbaycana rəsmi səfərimlə bağlı ən xoş xatirələrim var. Bir sıra beynəlxalq görüşlərdə Sizinlə ikitərəfli və qlobal məsələləri müzakirə etmək imkanımız olub. Sizin beynəlxalq münasibətlərdəki çox əhəmiyyətli rolunuzu yüksək qiymətləndirirəm. Xorvatiya ilə Azərbaycanın çoxillik səmimi münasibətlərinin xələfim Zati-aliləri Kolinda Qrabar-Kitaroviçin prezidentliyi dövründə də davam etməsi ölkələrimiz arasında mövcud olan qarşılıqlı hörmət və dostluğu təcəssüm etdirir. Ümidvaram ki, bu əməkdaşlıq əlaqələri bundan sonra da davam edəcək. Sizin prezidentliyiniz dövründə Azərbaycanın sürətli inkişafı, həqiqətən də, heyranlıq doğurur. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan işğaldan azad olunmuş ərazilərini tezliklə yenidən quracaq və uğurlu inkişaf yoluna davam edəcəkdir.

Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü olmağımdan qürur duyuram. Bu Mərkəz məhz Sizin böyük dəstəyiniz sayəsində beynəlxalq aləmdə mühüm rol oynayan nüfuzlu təşkilatlardan birinə çevrilib. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyəti Azərbaycanın dünyada tanınmasına və mövqeyinin möhkəmlənməsinə töhfə verməkdə davam edir. Dəyərli dəstəyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Sizə uzun ömür, cansağlığı və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli Prezident İlham Əliyev!

Hər insanın doğulduğu gündən onun həyatını əks etdirən bir sıra çox vacib münasibətləri olur. Bunlardan birincisi, ana və ata ilə olan münasibətlərdir. Valideynlər insanın təməl şəxsiyyətini formalaşdırmağa kömək edirlər. Sizin həyat müdrikliyinə malik dahi valideynləriniz olub. Bu əlamətdar gündə valideynlərinizə ən səmimi minnətdarlığımı bildirirəm.

İkinci vacib münasibət xalqınızla olan münasibətinizdir. Siz xalqınızın müdrik, məsuliyyətli və qətiyyətli liderinə çevrilmisiniz. Bu, Sizin misilsiz istedadınızın və uzun illərdir həyata keçirdiyiniz nəcib fəaliyyətinizin bariz təcəssümüdür. Sizin fəaliyyətinizə və uğurlarınıza heyranam.

Üçüncü vacib münasibət isə dostlarla olan münasibətdir. On ildən çox müddətdir ki, Sizinlə etibarlı dost olmaqdan böyük şərəf hissi duyuram. Bununla çox qürur duyur və sevinirəm.

Əziz Prezident, bu gün Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və hikmət dolu uzun fəal illər arzulayıram.

*Səmimiyyətlə,*

***Valdis ZATLERS,***
***Latviyanın sabiq Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Çox əlamətdar bir hadisəyə - Dağlıq Qarabağda sülh razılaşmasının əldə edildiyi, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa olunduğu dövrə təsadüf edən doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Bu nailiyyət Sizin nümayiş etdirdiyiniz iradə, qətiyyət və müdriklik sayəsində mümkün oldu. Əslində, bu, son bir neçə onillikdə dünyada həllini tapmış yeganə dondurulmuş münaqişə idi.

Çox şadam ki, Siz atanız Heydər Əliyevin yolunu ləyaqətlə davam etdirir, ölkənizin və xalqınızın mənafelərini yüksək səviyyədə müdafiə edirsiniz.

Sizin prezidentliyiniz illərində Azərbaycan iqtisadi, sosial və mənəvi həyatın bütün sahələrində misli görünməmiş nailiyyətlər qazanıb. Azərbaycan hörmətli, güclü və nüfuzlu dövlətə çevrilib.

Sizə iqtisadi potensialın artırılması, sülhün və asayişin möhkəmləndirilməsi işində səmimi qəlbdən yeni uğurlar arzu edirəm. Qoy, Sizin quruculuq səylərinizin nəticələrini Azərbaycan Respublikasının hər bir sakini hiss etsin.

Qoy, ölkənizin vətəndaşlarının rifahı naminə Sizin bütün yaradıcı təşəbbüsləriniz uğurlu olsun! Sizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, sülh, bütün işlərinizdə və niyyətlərinizdə uğurlar arzu edirəm!

*Hörmətlə,*

❖ ❖ ❖

***Pyotr LUÇİNSKİ,***
***Moldova Respublikasının sabiq Prezidenti (1997-2001), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, əziz dostum!

Azərbaycanın dostu olan Macarıstanın sabiq baş naziri, eyni zamanda, Bakı Forumunun daimi iştirakçısı və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü kimi Sizə doğum gününüz münasibətilə möhkəm cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar arzulamaqdan böyük məmnunluq hissi duyuram.

Daha yaxşı dünya qurmaq üçün həyata keçirdiyiniz təşəbbüsləri və qarşıya qoyduğunuz hədəfləri yüksək qiymətləndirir, bu məqsədlərə çatmaq istiqamətindəki vacib töhfənizi təqdirəlayiq hesab edirəm. Son illər ərzində Azərbaycan Sizin rəhbərliyinizlə çoxtərəfliliyin və tolerantlığın inkişafı, ayrı-seçkiliyin aradan qaldırılması kimi bəşəriyyət üçün mühüm əhəmiyyət kəsb edən məsələlərlə bağlı beynəlxalq arenada böyük nailiyyətlər qazanıb.

Doğum gününüz münasibətilə Sizi bir daha təbrik edir, zati-alinizə və ailənizə qarşıdan gələn 2021-ci ildə yeni-yeni uğurlar və xoşbəxtlik diləyirəm.

*Hörmətlə,*

***Peter MEDDYEŞİ,***
***Macarıstan Respublikasının sabiq Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi doğum gününüz münasibətilə təbrik edir, zati-alinizə və ailənizə möhkəm cansağlığı və rifah arzulayıram.

Zati-aliləri, Siz görkəmli dövlət başçısısınız. Bütün dünya Azərbaycan xalqının ölkənizin ərazi bütövlüyü uğrunda Sizin rəhbərliyinizlə apardığı mübarizəni izlədi. Bu dövr həmçinin insanların həyatını təhlükə altına qoyan və ənənəvi iqtisadiyyatda, eləcə də bir çox sosial proseslərdə dəyişikliklərə səbəb olan COVID-19 virusunun geniş yayıldığı dönəmə təsadüf edib.

Mən Sizə ölkənizin ərazi bütövlüyünün qorunub saxlanılması üçün mexanizmlərin yaradılması məqsədilə gələcəkdə dialoqun aparılması istiqamətində bütün çağırışların öhdəsindən gəlməyi və davamlı uğurlar əldə etməyi arzulayıram. Mən Sizin gözəl ölkənizə sülh, Azərbaycan xalqına isə firavanlıq diləyirəm.

Biz Beynəlxalq Nizami Gəncəvi Mərkəzində etibarlı dostunuz olaraq Sizin daim yanınızdayıq.

*Hörmətlə,*

***Laimdota STRAUYUMA,***
***2014-2016-cı illərdə Latviyanın Baş naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə zati-alinizi təbrik edirəm, Sizə və yaxınlarınıza möhkəm cansağlığı, Azərbaycan xalqının daha firavan gələcəyi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Həmçinin bütün Azərbaycan xalqını uzun müddət can atdığı hədəfinə çatmasını mümkün edən və Azərbaycan Respublikasının beynəlxalq hüququn normalarına və ədalət prinsiplərinə sadiqliyini möhkəmləndirən böyük tarixi Qələbə münasibətilə təbrik edirəm.

Bu tarixi anda Azərbaycan xalqının və bizim hamımızın xatirəsini daim yad etdiyimiz dahi Heydər Əliyevi xatırlamaq istəyirəm. Hörmətli cənab Prezident, Siz Ali Baş Komandan olaraq bu taleyüklü dönəmdə tarix yazdınız və ətrafınızda sıx birləşən Azərbaycan xalqı üçün böyük bir qəhrəmana çevrildiniz. Cənab Prezident, dünyada bənzəri olmayan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə görə Sizə minnətdarlığımı bildirirəm.

Qırğızıstan və Azərbaycan xalqlarını bir-birinə ortaq tarix, dil, din və ortaq mədəniyyətə əsaslanan xüsusi bağlar birləşdirir. Hazırda Qırğızıstanda öz adət-ənənələrini və dilini qoruyub saxlayan 20 mindən çox azərbaycanlı yaşayır və burada onlar özlərini evlərindəki kimi hiss edirlər.

Əminəm ki, Sizin səylərinizlə ölkələrimiz arasında münasibətlər daha da inkişaf edəcək və möhkəmlənəcək.

*Ən xoş arzularla,*

***Comart OTORBAYEV,***
***Qırğızıstanın sabiq Baş naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Doğum gününüz münasibətilə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRK PA) Katibliyi adından və öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Həmçinin qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Sizi və ailənizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın həm ölkə daxilində, həm də beynəlxalq aləmdə nüfuzunun durmadan artması və qazanılan nailiyyətlər bütün Türk dünyasında böyük sevinclə qarşılanır. Əminəm ki, Sizin ali dövləti vəzifədə fəaliyyətiniz türkdilli ölkələr arasında dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli dərinləşməsinə töhfə verməkdə davam edəcəkdir.

TÜRK PA Katibliyinin səmərəli fəaliyyəti üçün Azərbaycan hökuməti tərəfindən göstərilən diqqətə və yaradılan şəraitə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Bu xoş fürsətdən istifadə edərək, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə və bütün təşəbbüslərinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

*Yüksək hörmət və ehtiramla,*

***Altınbek MAMAYUSUPOV,***
***Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik edir, Sizə ən xoş arzularımı çatdırıram.

*Dərin hörmətlə,*

***Turki Al FAYSAL,***
***Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Bu il Sizin liderliyinizlə və Azərbaycanın parlaq gələcəyi naminə fədakar fəaliyyətinizlə möhkəmlənən ölkəniz üçün tarixi bir il oldu.

Sizə neçə belə xoşbəxt ildönümləri arzu edirəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyi yüksək qiymətləndirir, Sizin müdrik rəhbərliyinizdən və təcrübələrinizdən yararlanmaqdan məmnunluq duyuruq.

*Hörmətlə,*

***Eka TKEŞELAŞVİLİ,***
***Gürcüstanın sabiq Baş nazir müavini (2010-2012), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə, ilk növbədə, zati-alinizə, həmçinin möhtərəm xanımınıza və qardaş Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik diləyirəm.

Bu il çox xoşbəxtik, belə ki, Sizin Ali Baş Komandanlığınızla qəhrəman Azərbaycan Ordusu türk millətinin və dostlarının mənəvi dəstəyi ilə işğal altındakı torpaqlarını azad etmiş və hər kəsin təqdirinə layiq böyük hərbi zəfər və siyasi uğur qazanmışdır.

Bu münasibətlə əziz Azərbaycan xalqına rəhbərliyiniz ilə daha firavan gələcək və əmin-amanlıq diləyir, Sizin himayənizlə fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin uğurlarının davamlı olmasını arzulayır, ehtiramlarımı bildirirəm.

*Dərin hörmətlə,*

***Ekmələddin İHSANOĞLU,***
***İslam Əməkdaşlıq Təşkilatının 9-cu Baş katibi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi doğum gününüz münasibətilə təbrik edir, zati-alinizə uzun ömür, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram. Mən 2021-ci ildə münasib bildiyiniz vaxtda Bakıda Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri, həmçinin onun Qəyyumlar Şurasının üzvləri adından Sizin rəhbərliyinizlə Dağlıq Qarabağın və ona bitişik ərazilərin işğaldan azad olunması nəticəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi münasibətilə ən səmimi təbriklərimizi çatdırıram. Məcburi köçkünlərin doğma torpaqlarına qayıtması, Gəncəyə və digər şəhərlərə müharibənin vurduğu zərərin aradan qaldırılması istiqamətində həyata keçiriləcək işlərin çox olduğunu yaxşı bilirik. Ancaq biz zati-alinizin yüksək peşəkarlığı və müdrikliyi sayəsində bu çətin işlərin ən səmərəli şəkildə reallaşdırılacağına əminik. Eyni zamanda mənşəyi və dini mənsubiyyətindən asılı olmayaraq tarixi və mədəni abidələrin qorunub saxlanılacağına dair Sizin mühüm bəyanatlarınıza heyranlıq və dəstək ifadə edən çoxsaylı insanlara mən də qoşuluram. Bu, bütün dünyada daha geniş təbliğ edilməli olan növbəti vacib və xoşməramlı təşəbbüsdür.

Fürsətdən istifadə edib Baş katibimizin böyük səyləri nəticəsində əvvəlki illərdən fərqli olaraq çoxlu sayda yüksəksəviyyəli onlayn görüşlərin həm təşkilatçısı, həm də iştirakçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. BMT, Avropa və Amerikadan olan institutlar, eləcə də Ümumdünya İncəsənət və Elm Akademiyası, "The Lancet" tibb dərgisi kimi, eləcə də Çindən olan ən nüfuzlu qurumlarla fəal tərəfdaşlıq etmişik. Beləliklə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi pandemiyaya baxmayaraq, beynəlxalq arenada öz fəallığını qoruyub saxlamaqla bərabər, yeni dostlar və tərəfdaşlar qazana bilib, həmçinin sosial mediadakı fəaliyyətini genişləndirib.

Mərkəzin Qəyyumlar Şurasına, onun həmsədrlərinə, Baş katibimizə və əməkdaşlarına göstərdiyiniz etimada görə zati-alinizə bir daha minnətdarlığımı bildirirəm. Ümidvaram ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bu çətin ildə qazandığı uğurlardan məmnunluq duyursunuz. Biz 2021-ci ildə həyatın normal məcraya qayıdacağını səbirsizliklə gözləyirik.

Sizi bir daha doğum gününüz münasibətilə təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar arzulayıram.

*Səmimiyyətlə,*

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının həmsədri, Misirin məşhur İsgəndəriyyə kitabxanasının sabiq direktoru, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***

❖❖❖

Hörmətli Prezident Əliyev!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin həyatınız qədirbilən Azərbaycan xalqının həyatı ilə sıx bağlıdır. Xalqınıza sadiqliyiniz, milli və beynəlxalq təhdidlərə qarşı mübarizədə xalqınıza və ölkənizə uğurla rəhbərlik etməyiniz, qazandığınız böyük nailiyyətlər hamı tərəfindən hörmətlə qarşılanır.

Sizin rəhbərliyiniz həmişə xatırlanacaq və gələcək nəsillər tərəfindən öyrəniləcəkdir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşviq etdiyi tolerantlıq dəyərləri bir çox insanlar üçün ilham mənbəyidir.

Bu əlamətdar gündə Sizi təbrik edir və gələcək işlərinizdə yeni uğurlar diləyirəm.

*Ən xoş arzularla,*

***Tzipi LİVNİ,***
***İsrailin sabiq xarici işlər naziri***

❖❖❖

Hörmətli Prezident Əliyev!

Doğum gününüz münasibətilə Sizi Amerikanın Xarici Siyasəti üzrə Milli Komitənin adından ən xoş arzularla təbrik edirəm.

Baş ofisi Bakıda yerləşən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə tərəfdaşlığımızdan bilirik ki, Siz bu mərkəzin missiyasına davamlı olaraq dəstək göstərirsiniz. Bu missiyaya dəstək verilməsinə biz də qoşulur, mərkəzin sülh və münaqişələrin həlli ilə bağlı fəaliyyətinə sadiqliyinizi alqışlayırıq.

Doğum gününüz münasibətilə Sizi bir daha təbrik edir, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Azərbaycan xalqı ilə əməkdaşlığımızın bundan sonra da davam edəcəyinə ümidvarıq.

*Xoş arzularla,*

***Səfir Syuzan ELİOT,***
***Amerikanın Xarici Siyasəti üzrə Milli Komitənin Prezidenti və baş icraçı direktoru***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖❖❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə ölkə həyatının bütün sahələrində sanballı uğurlar qazanıb və beynəlxalq arenada layiqli nüfuza malikdir.

Siz çoxtərəfli mədəni və humanitar əməkdaşlığın gücləndirilməsi və inkişafına, o cümlədən dünya ictimaiyyətinin də böyük ehtiyac duyduğu Beynəlxalq Nizami Gəncəvi Mərkəzinin fəaliyyətinə yüksək diqqət göstərirsiniz.

Zati-aliləri, icazə verin, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və Azərbaycanın suverenliyinin və dövlətçiliyinin daha da möhkəmlənməsi naminə fəaliyyətinizdə uğurlar, istedadlı və əməksevər Azərbaycan xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Rəşid ALİMOV,***
***2016-2018-ci illərdə Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖❖❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Yeni ildə şəxsən Sizə və ailənizə cansağlığı, uğurlar, firavanlıq arzulayıram.

Ümidvaram ki, bu ilin yekunları Qafqazda sülhün tam bərqərar olunmasına, bütün xalqlar üçün firavanlığa imkan yaradacaq. O da vacibdir ki, Rusiya-Azərbaycan münasibətləri möhkəmlənməkdə davam edir.

Görüşlərimizi məmnuniyyətlə xatırlayıram və ümidvaram ki, hələ qarşıda bizim birgə işləmək imkanımız olacaq.

Sizə möhkəm cansağlığı və uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Vladimir SOLOVYOV,***
***Rusiya Jurnalistlər İttifaqının sədri***

❖❖❖

Zati-aliləri, hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Zati-aliləri, Sizə, birinci xanım Mehriban Əliyevaya və bütün xalqınıza sülh və uğurlar arzu edirəm.

Bu gün bütün dünya pandemiya səbəbindən çox mürəkkəb bir dövr yaşayır. Buna baxmayaraq, ümid edirəm ki, hazırkı böhran tezliklə sona çatacaq və biz normal həyata qayıdaraq inkişaf, firavanlıq və sülh fəaliyyətimizi davam etdirəcəyik.

Əminəm ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi uğurlu fəaliyyətini davam etdirərək bizi Sizin gözəl paytaxtınız Bakı şəhərində yenidən görüşdürəcək.

Cənab Prezident, doğum gününüz münasibətilə Sizi bir daha dərin ehtiramla təbrik edir, ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Antonio Zanardi LANDİ,***
***İtaliya Respublikası Prezidentinin 2013-2015-ci illərdə baş müşaviri, İtaliyanın 2010-2013-cü illərdə Rusiyadakı, 2004-2006-cı illərdə Serbiyadakı səfiri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖❖❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən səmimi arzularımı çatdırır, zati-alinizə uzun ömür və möhkəm cansağlığı, xalqınıza isə sülh və firavanlıq diləyirəm. Ölkənizlə müxtəlif sahələrdə əməkdaşlıq etmək mənim üçün həmişə xoş və şərəfli olub. İndi də mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə sıx əməkdaşlıqdan məmnunluq duyuram. Bütün Qafqaz regionunda Sizin güclü və müdrik rəhbərliyinizə heyranam.

Doğum gününüz mübarək, cənab Prezident!

*Ən səmimi arzularla,*

***Franko FRATTİNİ,***
***İtaliyanın sabiq xarici işlər naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu, doğum gününüz mübarək.

Bu əlamətdar gündə dostluğunuza və xoş ənənələrə sədaqətinizə görə Sizə xüsusi minnətdarlığımızı bildirmək istəyirik. Belə ənənələrdən biri hər günü "Komsomolka" ilə birgə başlamaqdır.

Sizi səmimi-qəlbdən təbrik edir, cansağlığı və bütün işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Vladimir SUNQORKİN,***
***"Komsomolskaya pravda" qəzetinin baş redaktoru***

❖❖❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi dərin ehtiramla və xoş arzularla təbrik edirəm.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq və uzun illər tükənməyən enerji arzulamaqdan xüsusi məmnunluq duyuram.

Siz dünya miqyaslı nüfuzlu siyasi xadim kimi təkcə doğma ölkənizdə deyil, onun hüdudlarından kənarda da haqlı olaraq dərin hörmət qazanmısınız.

Rusiyanın Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələrini və işgüzar tərəfdaşlığı hərtərəfli dəstəklədiyinizə və onların inkişafına verdiyiniz dəyərli töhfəyə görə Sizə təşəkkür edirəm. Əminəm ki, biz qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq ənənələrini birgə səylərimizlə gələcəkdə daha da inkişaf etdirəcəyik.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖❖❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin vətəndaş mövqeyiniz və siyasi mərdliyiniz, xarakterinizin möhkəmliyi və öz qüvvənizə inam həqiqi liderin parlaq cəhətləridir. Öz ölkənizə səmimi sevgi və onun əsl mənafelərini qorumaq istəyiniz həmvətənlərinizin - Azərbaycan Respublikası vətəndaşlarının Sizə dərin hörmət və ehtiramını daha da artırır.

Doğma respublikanızın və onun əhalisinin rifahı naminə Sizə yeni zəfərlər, möhkəm cansağlığı, tükənməz enerji və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***"Səfmar Qrup" Səhmdar Cəmiyyətinin prezidenti, Direktorlar Şurasının sədri***

❖❖❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm.

Bu gözəl gün Sizin üçün, ailəniz üçün və bütün Azərbaycan üçün bayramdır.

Sizin Azərbaycan Prezidenti vəzifəsində səmərəli fəaliyyətiniz ölkə vətəndaşlarının inamı və etibarı ilə, gözəl ölkənizin firavanlaşması naminə gördüyünüz işə Sizin verdiyiniz yüksək qiymətlə dəstəklənir.

Siz yüksək şəxsi keyfiyyətləriniz, qətiyyət və müdrikliyiniz sayəsində xalqın mənafe və amallarını həyata keçirən uzaqgörən və peşəkar siyasi xadim kimi çox böyük nüfuzunuzu hər gün uğurla təsdiqləməyə nail olursunuz. Siz dövlətin beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün daim səy göstərir, Azərbaycan iqtisadiyyatının və sosial həyatının inkişaf etməsinə qayğı ilə yanaşır, ölkədə idmanın tərəqqisinə ciddi diqqət yetirirsiniz.

Bu əlamətdar gündə zati-alinizə bir daha dərin ehtiramımı bildirir, Azərbaycanın tərəqqisi naminə fəaliyyətinizdə səmimi-qəlbdən uğurlar, xoşbəxtlik, möhkəm cansağlığı, sevinc və firavanlıq, Sizə və yaxınlarınıza tükənməz enerji diləyirəm.

*Böyük hörmət və ehtiramla,*

***İrina VİNER-USMANOVA,***
***Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti***

❖❖❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi "VTB Bank"ın İdarə Heyətinin, kollektivinin adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Siz görkəmli milli lider kimi Azərbaycanın iqtisadiyyatda və sosial sahədə nailiyyətlərinə görə haqlı olaraq fəxr edən, beynəlxalq aləmdə nüfuz qazanmış müasir dinamik dövlət kimi inkişaf etməsi üçün çox iş görmüsünüz.

Rusiya Federasiyasında Azərbaycan Respublikası ilə tarixi dostluq əlaqələrini, mehriban qonşuluq münasibətlərini və qarşılıqlı faydalı ticari-iqtisadi əməkdaşlığı yüksək qiymətləndirirlər. "VTB Bank"ın Azərbaycanda səmərəli fəaliyyəti, Azərbaycan Dövlət Neft Fondunun onun kapitalında iştirakı iki ölkənin qarşılıqlı əməkdaşlığının möhkəmliyini və strateji xarakterini sübut edən mühüm amillərdir.

Hörmətli İlham Heydər oğlu, Azərbaycanın inkişafı, xalqınızın rifahı naminə ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar arzulayırıq.

Zati-aliləri, Sizə və yaxınlarınıza möhkəm cansağlığı və firavanlıq diləyirik.

*Hörmətlə,*

***Andrey KOSTİN,***
***Rusiyanın "VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti - İdarə Heyətinin sədri***

# Nazirlər Kabineti 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında qərar qəbul edib

Nazirlər Kabineti Azərbaycan Respublikasının ərazisində koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında qərar qəbul edib. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

Qərarda qeyd olunur: "Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"na əsasən 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə müvafiq qaydalara uyğun olaraq təkrar yoxlama keçirildikdən sonra 190 manat məbləğində ödəmənin verilməsi birdəfəlik şəkildə həyata keçirilsin".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi bu qərardan irəli gələn məsələləri həll edəcəklər.

# Nazirlər Kabineti "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpaqları alan orqanın müəyyən edilməsi barədə" qərar qəbul edib

Nazirlər Kabineti "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpaqları alan orqanın müəyyən edilməsi barədə" qərar qəbul edib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

"Ağcabədi rayonunda yaradılan aqroparkın 850 hektar əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi", "Yuxarı Şirvan Kanalının yenidən qurulması", "Saatlı rayonunun əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Kür çayından əlavə suyun verilməsi", "Şəki və Oğuz rayonları ərazisində yaradılacaq aqroparkın suvarma suyu ilə təmin edilməsi", "Yevlax və Goranboy rayonları ərazisində 3120 hektar əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi", "Göyçay rayonu ərazisində Göyçay çayında baş suqəbuledici qurğunun təmir-bərpası və selə qarşı mühafizə tədbirləri", "Araz çayının yeni qolu vasitəsilə yeni suvarılan torpaqların istifadəyə verilməsi" və digər layihələrin icrası ilə bağlı tikinti altına düşən torpaqların dövlət ehtiyacları üçün alınması nəzərdə tutulur.

Bununla əlaqədar, respublikanın 24 rayonunda hidrotexniki qurğuların, o cümlədən meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi altına düşən torpaq sahələrinin dövlət ehtiyacları üçün alınması məqsədilə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti alan orqan müəyyən edilib.

# Azərbaycanın və Əfqanıstanın təhlükəsizlik orqanları arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb



Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil Usubov ölkəmizdə səfərdə olan Əfqanıstan İslam Respublikasının Milli Təhlükəsizlik Şurasının müşaviri Həmdullah Mohib, Prezident Administrasiyasının rəhbəri Mohammad Şakir Kargar və Milli Təhlükəsizlik İdarəsinin Baş direktoru general-leytenant Ahmad Ziya Sarac ilə görüşüb. Görüşdə Əfqanıstanın ölkəmizdəki səfiri Amanullah Ceyhun da iştirak edib.

Təhlükəsizlik Şurası Katibinin Xidmətindən AZƏRTAC-a bildiriblər ki, söhbət zamanı Ramil Usubov Azərbaycan ilə Əfqanıstan arasında ikitərəfli əməkdaşlıq münasibətlərinə toxunaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə milli təhlükəsizliyin təmin olunması sahəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. O, vətəndaş cəmiyyəti quruculuğu, demokratikləşmə və insan hüquq və azadlıqlarının qorunması, daxili sabitliyin, xalq-iqtidar birliyinin davamlılığının təmini sahəsində görülmüş tədbirlərlə ölkəmizdə dövlət və ictimai təhlükəsizlik sahəsində milli maraqların təmin olunduğunu qeyd edib. Səmərəli islahatlar nəticəsində Azərbaycanın bölgənin əsas iqtisadi gücünə çevrilməsinin, Avropanın əsas enerji təminatçılarından biri olmasının, valyuta ehtiyatlarının davamlı artmasının ölkənin iqtisadi təhlükəsizliyi sahəsində milli maraqlarının təmin olunmasında mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

Sosial təhlükəsizlik məsələlərinə toxunan R.Usubov əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində zəruri tədbirlərin görüldüyünü, səmərəli sosial islahatların həyata keçirildiyini, dünyada az rastlanan və ölkə vətəndaşlarının 70 faizindən çoxunu əhatə edən davamlı sosial dəstək paketlərinin reallaşdırıldığını görüş iştirakçılarının diqqətinə çatdırıb.

Azərbaycanın balanslaşdırmadan tam müstəqil siyasətə keçməsini, bölgədə maraqları kəsişən dövlətlərlə ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatının yaradılmasını ölkəmizin xarici siyasətində prioritet təşkil etdiyi qeyd olunub.

Hərbi təhlükəsizliyin təmini sahəsində görülən tədbirlərdən danışan R.Usubov müasir və peşəkar ordu quruculuğunun, ən yüksək və modern səviyyədə hərbi təchizatın təmin olunduğunu, müdafiə sənayesinin yaradıldığını və davamlı təkmilləşdirildiyini, bütün bunların Azərbaycan xalqının Vətən müharibəsində hərbi zəfərini şərtləndirdiyini vurğulayıb.

Əfqanıstanın hər zaman Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinə dəstək verdiyini qeyd edən R.Usubov qardaş ölkənin siyasi və mənəvi dəstəyinin 44 günlük Vətən müharibəsi zamanı bariz şəkildə nümayiş etdirildiyini vurğulayıb, Azərbaycan xalqının bu dəstəyi yüksək qiymətləndirdiyini bildirib.

Qonaqlar göstərilən diqqətə, Azərbaycanın və Əfqanıstanın təhlükəsizlik maraqlarının qorunması sahəsində aktual məsələlərlə əlaqədar müzakirələr üçün yaradılmış şəraitə görə təşəkkürlərini bildiriblər. Dövlətlərimizin başçılarının rəhbərliyi ilə həyata keçirilən sabitlik, təhlükəsizlik və inkişaf siyasətinə əlverişli şəraitin yaradılması üçün ümumi təhdidlərə qarşı mübarizədə hər iki ölkənin aidiyyəti orqanları arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsinin xüsusi əhəmiyyət daşıdığı qeyd olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Dövlət Təhlükəsizliyi Xidmətinin Şuşa Rayon İdarəsinin yeni inzibati binasının təntənəli açılışı olub

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Şuşa Rayon İdarəsinin yeni inzibati binasının təntənəli açılışı olub.



AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin saytına istinadla xəbər verir ki, tədbirdə DTX-nin rəisi general-polkovnik Əli Nağıyev, Xidmətin kollegiya üzvləri, Şuşa Rayon İdarəsinin əməkdaşları, digər hüquq mühafizə orqanlarının və ərazi üzrə qarnizonun yüksək rütbəli zabitləri iştirak ediblər.

Əvvəlcə binanın qarşısında 1992-ci ildə düşmən işğalı nəticəsində üç yaşında ikən ailəsi ilə birlikdə Şuşa şəhərini tərk etməyə məcbur qalmış, hazırda DTX-də xidmət edən leytenant U.Bəylərov Azərbaycanın dövlət bayrağını qaldırıb. Sonra Dövlət himni səsləndirilib.

Binanın rəmzi açılışını bildirən qırmızı lent kəsildikdən sonra tədbir iştirakçıları foyedə müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə ehtiramlarını bildirərək abidəsi önünə gül dəstələri qoyublar. İştirakçılar, həmçinin Ulu Öndərin və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dövlətçilik fəaliyyətini, Azərbaycan təhlükəsizlik orqanlarının tarixini əks etdirən fotostendlərə baxıblar.

Tədbir iştirakçıları Azərbaycan Respublikasının hüquq mühafizə siyasətinin Dağlıq Qarabağ ərazisində uğurla həyata keçirilməsinin növbəti təcəssümü olaraq DTX-nin Şuşa Rayon İdarəsinin müasir üslubda təmir edilmiş yeni inzibati binasının otaqları və əməliyyatçıların iş şəraiti ilə tanış olublar.

DTX-nin kollegiya üzvlərinin və Şuşa Rayon İdarəsinin rəhbərliyinin iştirakı ilə keçirilmiş xidməti müşavirədə çıxış edən general-polkovnik Əli Nağıyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə müstəqil Azərbaycan bütün sahələrdə durmadan inkişaf edir, günbəgün daha da qüdrətlənir. Bunun parlaq nümunəsi kimi 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın qətiyyətli sərkərdəliyi, xalqın və dövlətin sarsılmaz birliyi nəticəsində rəşadətli Ordumuz torpaqlarımızı düşmən işğalından azad edib, Azərbaycanın çoxəsrlik tarixinin və hərbi uğurlarının yeni şanlı və şərəfli səhifələrini yazıb.

Dövlət başçısı tərəfindən hüquq mühafizə orqanlarının inkişafına daim diqqət göstərildiyini vurğulayan general-polkovnik Əli Nağıyev DTX-nin Şuşa Rayon İdarəsinin yeni inzibati binasının istifadəyə verilməsinin də məhz bu qayğının bariz göstəricisi olduğunu qeyd edib. DTX-nin rəisi əməkdaşların məsuliyyətli, eyni zamanda böyük etimad olaraq Şuşa şəhərində xidmətlərini daha səmərəli və peşəkar təşkil etmələri üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirib.

Xidməti müşavirədə DTX-nin Şuşa Rayon İdarəsinin şəxsi heyəti qarşısında konkret vəzifələr qoyulub.

General-polkovnik Əli Nağıyev idarənin əməkdaşlarını bu əlamətdar hadisə münasibətilə bir daha təbrik edib və onlara uğurlar arzulayıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Şuşa qarnizonunda xidmət edən hərbi qulluqçularla da görüşüb. Hərbçilərə DTX-nin bayram sovqatları təqdim olunub.

Sonra tədbir iştirakçıları Şuşada qulluq keçən hərbçilər üçün DTX-nin Mədəniyyət mərkəzi tərəfindən məşhur Cıdır düzündə 30 ildən sonra ilk dəfə təşkil olunmuş konsert proqramına tamaşa ediblər.



# Ceyhun Bayramovun Avropa İttifaqının qonşuluq və genişlənmə üzrə komissarı ilə telefon danışığı olub

**Dekabrın 23-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Avropa İttifaqının (Aİ) qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyi ilə telefon danışığı olub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı nazir Ceyhun Bayramovun Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının iclasında iştirak məqsədilə ötən həftə Brüsselə səfəri çərçivəsində keçirdiyi görüşlərin davamı olaraq, ölkəmizin Aİ ilə əməkdaşlığı, o cümlədən enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Tərəflər, habelə digər qarşılıqlı maraq doğuran regional məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# *Hulusi KILIÇ:* "İlham Əliyev yüksək liderlik keyfiyyətləri, cəsarətli qərarları ilə seçilən Prezident, Müzəffər Ali Baş Komandandır"

"Prezident İlham Əliyev böyük qətiyyət göstərərək Azərbaycana qarşı otuz il idi davam edən işğalçılığın sona çatmasına nail oldu. O, yüksək liderlik keyfiyyətləri, cəsarətli qərarları ilə seçilən Prezident, Müzəffər Ali Baş Komandandır. Proseslərə nəzər saldıqda görürük ki, məhz onun uğurlu siyasəti sayəsində Azərbaycan hazırda bütün sahələr üzrə dinamik inkişafın yeni mərhələsini yaşayır".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a açıqlamasında bildirib.

Bütün Azərbaycan xalqının, eləcə də yenilməz Azərbaycan Ordusunun Ali Baş Komandan ətrafında sıx birləşərək ümummilli məsələlər naminə birlik nümayiş etdirməsini milli sərvət kimi dəyərləndirən səfir Hulusi Kılıç deyib ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti təkcə Azərbaycanın haqq işinin bərpası deyil, eyni zamanda, dünyada sülhün və ədalətin qorunması istiqamətində əməli addımlara çevrildi. Bəli, nəyi nə zaman etmək lazım olduğunu hamıdan yaxşı bilən Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində bir tərəfdən özünü soyuqqanlı və cəsur sərkərdə kimi təsdiq etdisə, digər tərəfdən dünya mediasının aparıcı qurumlarının qarşısında məntiqi düşüncələri və gerçəkləri əks etdirən həqiqətləri sərbəst şəkildə ifadə etməklə diqqəti cəlb etdi. Bir-birinə bağlı olan bu iki amil yenilməz Azərbaycan Ordusunun zəfər qazanmasında və bu qələbənin dünya birliyinə qəbul etdirilməsində həlledici güc oldu.

Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin inkişafında dinamizmi qorumaq üçün daim yeni təklif və təşəbbüslərlə çıxış etdiyini xatırladan Hulusi Kılıç qeyd edib ki, ən yaxın zamanlarda iki qardaş ölkənin diaspor təşkilatları vahid platforma üzərindən mühüm hədəflərə hesablanmış strategiyalar uğrunda birgə fəaliyyət göstərəcəklər.

Səfir deyib: "Azərbaycan xalqı xoşbəxtdir ki, hazırda dünyanı təlatümlər bürüdüyü bir vaxtda İlham Əliyev kimi yüksək intellektli, müdrik və cəsur Prezidenti var. Azərbaycanın xoşbəxtliyi Prezident İlham Əliyevin xoşbəxtliyidir. Bu mənəvi bağlılıqdan qürur duyur və Azərbaycanın işıqlı gələcəyinə inanırıq".

# Müzəffər sərkərdə və onun şanlı zəfəri

*Əvvəli 1-ci səh.*



Azərbaycanın müasir tarixi iki qüdrətli Liderin - müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsinin qalibi, Qarabağın xilaskarı Prezident, Ali Baş Komandan İlham Əliyevin müdriklik, qətiyyət və qəhrəmanlıq salnaməsidir. Bu, Qurtuluş tarixidir, Yüksəliş tarixidir, Zəfər tarixidir.

### "Mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm"- Heydər Əliyev

Müasir Azərbaycan dövlətinin memarı Ümummilli Lider Heydər Əliyev qurduğu dövlətin taleyini tapşıracağı yeni Liderin seçilməsində nümayiş etdirdiyi özünəməxsus müdrikliyin miqyası illər keçdikcə daha aydın görünür, seçimin uğuru təkzibolunmaz şəkildə öz təsdiqini tapırdı. Onun 2003-cü ilin prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd İlham Əliyev haqqında dediyi "mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o başa çatdıracaqdır" sözlər Ümummilli Liderin uzaqgörənliyinin və seçiminin alternativsizliyinin bariz nümunəsi sayıla bilər.

Etiraf edilməlidir ki, İlham Əliyevin Ümummilli Liderin seçimini və etimadını doğrultması özünü çox gözlətmədi. Əslində, 2003-cü ilin uğurlu seçki kampaniyasını Ulu Öndərin seçiminin düzgünlüyünə əhalinin inamının ifadəsi hesab etmək olar. İlham Əliyevin seçki proqramının o zaman üçün kifayət qədər cəsarətli görünən 600 min yeni iş yerlərinin yaradılması, 1990-cı illərin acı hadisələrinin yadigarları olan bütün çadır şəhərciklərinin ləğv edilməsi kimi müddəaları ölkəyə böyük dəyişikliklər vəd edən yeni liderin gəlməsindən xəbər verirdi. Həyat göstərdi ki, verilən vədlər seçici rəğbətini qazanmaq naminə deyil, ölkənin həyatında sözün həqiqi mənasında yeni mərhələnin başlanması kimi möhtəşəm proqramı həyata keçirmək niyyətlərindən irəli gəlir. Cəmiyyət İlham Əliyevin timsalında yeni liderin meydana gəldiyini görür, onun seçki platformasına inam və ehtiramla yanaşırdı. Digər tərəfdən, xalq onun nümunəsində Azərbaycanda Heydər Əliyev siyasətinin davam etdirilməsinin etibarlı təminatını görürdü ki, bu da İlham Əliyevin seçki kampaniyasının uğur amilləri sırasında əhəmiyyətli yer tuturdu.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti müşayiət edən diqqətəlayiq uğurların iki fundamental amilə əsaslandığı iddia edilə bilər. Bunun birincisi, onun Heydər Əliyev ideyalarına sədaqəti, bu ideyaların həyata keçirilməsinin etibarlı təminatçısı olması ilə əlaqədardır. Heydər Əliyevin ideyalarına və həmin ideyalara əsaslanan siyasətə dərin inam həmişə ölkəmizdə qərarlaşmış ictimai məfkurənin ayrılmaz tərkib hissəsi sayılıb və bu baxımdan Azərbaycan cəmiyyətinə təqdim edilən yeni konsepsiyanın Ümummilli Liderin ideyalarına sədaqət ruhunda formalaşması sonuncunun uğur amillərindən biri kimi qəbul edilir. İlham Əliyevin Heydər Əliyev siyasətinə həm sadiq olacağını bəyan etməsi, həm də əməli surətdə bunu sübuta yetirməsi həm onun siyasi kursuna, həm də şəxsiyyətinə hörmət və etimadın formalaşmasında vacib məqam olaraq qiymətləndirilməlidir.

İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurlar qazanmasının digər fundamental əsasının onun yeni tipli, müasir təfəkkürlü siyasətçi olması ilə şərtləndiyi ayrıca qeyd edilməlidir. Ümummilli Liderin titanik səyləri nəticəsində qurulan müstəqil Azərbaycan dövlətinin 2000-ci illərin əvvəllərindən etibarən yeni iqtisadi, sosial, siyasi keyfiyyət halına keçməsi, başqa sözlə ifadə edilsə, yeni trasformasiyası aktual problem kimi öz mövcudluğunu getdikcə daha qətiyyətlə ifadə edirdi. Azərbaycan XXI əsrin dövləti olmağa hazırlaşırdı və bu tarixi şansı dəyərləndirərək həyata keçirməli olan yeni lider artıq seçilmişdi. İlham Əliyev Heydər Əliyev ideyalarını yeni dövrün çağırışları və imkanlarına maksimum dərəcədə uyğunlaşdıraraq Ümummilli Liderin qurduğu müstəqil Azərbaycanı XXI əsrin ən uğurlu gənc dövlətlərindən birinə, bəlkə birincisinə çevirməyə müvəffəq oldu. Beləliklə də Heydər Əliyevin ümidləri, xalqın etimadı bütünlüklə həyatda təsdiqini tapdı.

### Güclü dövlət hər şeyə qadirdir

Prezident İlham Əliyevin bəyan etdiyi genişmiqyaslı layihələrin uğurla həyata keçirilməsi hər şeydən əvvəl dövlətin qüdrətinin artırılmasını, onun iqtisadiyyatının gücləndirilməsini nəzərdə tuturdu. Heydər Əliyevin "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" şüarının ardıcıl surətdə reallığa çevrilməsi yeni dövrün daha da aktuallaşdırdığı çağırış idi. Ümummilli Liderin uzaqgörənliyinin nəticəsi olan neft strategiyasının ilk bəhrələrini verməyə başlaması ölkənin həyatında möhtəşəm dəyişikliklərə start verilməsinə əlverişli imkanlar yaratmışdı. Məmnunluq hissi ilə qeyd edilə bilər ki, Prezident İlham Əliyev mövcud imkanları lazımınca dəyərləndirərək Azərbaycanın yeni güc potensialının yaradılması kimi tarixi missiyanı müvəffəqiyyətlə gerçəkləşdirməyə nail oldu. Ölkə hazırlaşdığı böyük sıçrayışı həyata keçirdi, iqtisadi inkişaf templərinə görə dünyada ilk pilləyə yüksəldi. Qısa bir vaxtda Azərbaycanın iqtisadi landşaftı ciddi şəkildə dəyişdi, bu isə öz növbəsində həm ölkə daxilində iqtisadi fəallığın artırılmasını şərtləndirdi, həm də güclü cazibədarlığı sayəsində milyardlarla xarici sərmayənin ölkə iqtisadiyyatına axmasını təmin etdi.

Neft strategiyasının sayəsində ölkəmizə daxil olan böyük maliyyə resurslarının məqsədəuyğun şəkildə idarə edilməsi və ölkə üçün ən faydalı şəkildə istifadəsi iqtisadi və maliyyə idarəetməsi sahəsində dünya miqyasında mühüm yeniliklərdən hesab oluna bilər. 2007-2008-ci illərin dünyanı bürüyən dərin maliyyə böhranının Azərbaycandan demək olar ki, yan ötməsini səsləndirən firkin əyani təsdiqi saymaq olar. Beləliklə, gənc Azərbaycan dövləti dünyaya iqtisadi nəzəriyyə və praktikada böyük maraq yaradan yeni inkişaf modelini təqdim etdi. Sözügedən modelin ən uğurlu təqdimatını isə ölkənin sürətli və hərtərəfli inkişafının nümunəsində nəinki Azərbaycan vətəndaşları, habelə beynəlxalq ekspertlər və maliyyə sahəsində idarəetmə nəhəngləri müşahidə edə bilirdilər.

İqtisadi və maliyyə sahəsində uğurlu idarəetmə bütün digər sahələrin inkişafına və tamamilə yenidən qurulmasına stimul verdi və lazım olan imkanları təmin etdi. Cəmi bir neçə il lazım oldu ki, Azərbaycan beynəlxalq icma tərəfindən dünyanın ən uğurlu gənc dövləti, çiçəklənən ölkə adlandırılmağa layiq görülsün. Hər birimiz Vətənimizin beynəlxalq nüfuzunun, dövlətimizin siyasi hörmətinin və beynəlxalq iştirakçılığının sürətlə artmasını böyük məmnunluqla və qürur hissi ilə izləyirdik.

Qısa tarixi zaman kəsiyində Azərbaycanın simasının bütünlüklə dəyişməsi həyata keçirilən uğurlu iqtisadi siyasətin və maliyyə idarəetməsinin diqqəti çəkən nəticəsi kimi ayrıca qeyd edilməlidir. Azərbaycan təkcə iqtisadi imkanları ilə deyil, həm də yeni siması, müasirliyi, dünya şəhərsalma praktikasına töhfələri ilə cazibədar olmuşdu. Bu isə öz növbəsində ölkənin qarşısında yeni imkanlar açırdı. Təsadüfi deyildir ki, gənc Azərbaycan dövləti qlobal əhəmiyyət kəsb edən bir sıra təşəbbüs və layihələrin mərkəzinə çevrildi. Regionun iqtisadi landşaftını köklü surətdə yeniləşdirən neft-qaz ixrac layihələri, beynəlxalq kommunikasiya layihələri və s. ölkəmizin qlobal iqtisadi təşəbbüslərinin kiçik bir hissəsidir.

Beləliklə, SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa edən, ötən əsrin 90-cı illərinin əvvəllərinin ağır hərbi məğlubiyyətini, iqtisadi və siyasi böhranlarını yaşamağa məhkum edilmiş Azərbaycan XXI əsrin ilk onilliyində əvvəlki mirasından nəinki tamamilə xilas olmuş, habelə böyük iqtisadi qüdrətə malik ölkə kimi özünü dünyaya həm təqdim etməyə, həm də tanıtmağa nail ola bilmişdi. Heç şübhəsiz, bu böyük möcüzə idi. Dahi Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin təfəkkürünün, qətiyyətinin və uzaqgörənliyinin məhsulu olan möcüzə. Azərbaycanın 2020-ci ilin dünyaya təqdim etdiyi və çoxlarını mat qoyan möhtəşəm hərbi möcüzəsinin sirlərini axtarmağa çalışsaq, yuxarıda qeyd etdiyimiz iqtisadi möcüzənin üzərindən sükutla keçmək nə mümkün, nə də ədalətli olardı.

### *Siyasətçi məharəti.* Lider

Ölkənin rəhbərinin siyasi proqramının miqyası və icra perspektivləri onun liderlik keyfiyyətləri və statusu ilə bilavasitə əlaqədardır. İlham Əliyevin həm təqdim etdiyi ölkənin inkişaf konsepsiyasının miqyası, həm də hamının Prezidenti olacağı ilə əlaqədar bəyanatı onun bütün xalqın lideri kimi özünüdərkinin bariz ifadəsi sayılmalıdır. Siyasətçiyə xas olan ən əsas keyfiyyətlərdən biri xalqı öz ətrafında birləşdirərək onu bəyan edilmiş siyasi proqramın icrası naminə səfərbər etməkdən ibarətdir. Bu, eyni zamanda liderin legitimliyinin və ictimai dəstəyinin miqyasının göstəricisi olmaq baxımından xüsusi əhəmiyyətə malikdir. Etiraf etmək yerinə düşər ki, prezidentliyinin elə ilk günlərindən İlham Əliyev cəmiyyəti öz ətrafında birləşdirərək elan etdiyi quruculuq və müasirləşmə proqramının icrası üçün səfərbər etməyə nail ola bildi.

İlham Əliyevin siyasətçi məharətinin mühüm göstəricilərindən biri onun uzaqgörənliyi, hədəflərin dəqiq müəyyənləşdirilməsi, uzunmüddətli dövrü əhatə edən planların işlənib hazırlanması istedadı sayıla bilər. Nümunə qismində aşağıdakıları sadalamaq mümkündür: Azərbaycanın qarşısında duran vəzifələrin həllini təmin etmək üçün dövlətin güc və qüdrətinin səbirlə və məqsədyönlü şəkildə artırılması strategiyası, ölkənin beynəlxalq imicinin yüksəldilməsi yolu ilə milli maraqlarımızın reallaşdırılmasında əhəmiyyətli beynəlxalq dəstəyin əldə edilməsi proqramı, ordunun döyüş qabiliyyətinin ciddi şəkildə yüksəldilməsi vasitəsilə Qarabağın işğaldan azad edilməsi konsepsiyası və s. İlham Əliyevin yüksək liderlik məharəti eyni dərəcədə xarici siyasət sahəsində özünü büruzə verir. Onun xarici siyasət doktrinası beynəlxalq iştirakçılığın gücləndirilməsi, Azərbaycana yeni dostlar qazandırılması, diplomatiyada hücumçu taktikaya üstünlük verilməsi, beynəlxalq təşəbbüskarlığın artırılması və ölkənin imicinin yaxşılaşdırılması kimi bir-birini üzvi surətdə tamamlayan 5 tərkib hissədən ibarət proqram kimi təqdim edilə bilər. Diplomatiya liderin siyasi məharətini aşkara çıxaran və ölkəyə böyük dividendlər gətirən ən incə fəaliyyət formasıdır. Qlobal meyillərin güclənməsi, ölkələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı əlaqələrinin genişlənməsi xarici siyasəti liderin özünüifadəsinin və siyasi uğurunun ən vacib amili dərəcəsinə yüksəltmişdir. Digər tərəfdən, müasir qloballaşma və informasiya texnologiyaları dövründə milli liderlər mütəmadi şəkildə beynəlxalq icmanın diqqət mərkəzində olur. Necə deyərlər, liderlər milli hüdudlardan çıxır, beynəlxalq birliyə daha intensiv şəkildə təqdim olunur və bu səbəbdən onun həm siyasi baxışları, həm davranışı daha geniş auditoriyanın müzakirə predmetinə çevrilir. Beləliklə, milli lider ölkənin beynəlxalq imicindən tutmuş onun dünya birliyində mövqeyinə qədər çeşidli parametrlərin formalaşmasında əhəmiyyətli, bəzən isə həlledici rol oynayır. Liderə təmsil etdiyi ölkəyə görə hörmət və ehtiram bəslənildiyi kimi, ölkəyə onu təmsil edən liderə görə qiymət verilməsi praktikasının geniş yayıldığı da sirr deyildir.

Sadalanan ümumi konseptual müddəalar Prezident İlham Əliyevin xarici siyasət sahəsində liderlik məharətini və onun əməli nəticələrini dəyərləndirmək baxımından mühüm açar rolunu oynayır. Əvvəla, İlham Əliyevin xarici siyasət doktrinasının yuxarıda sadalanan prinsiplərinin Azərbaycana müstəsna dividendlər gətirdiyi hər kəsə yaxşı məlumdur. Azərbaycanın 2012-ci ildə dünyanın ən mötəbər beynəlxalq təşkilatının - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-cu ildə isə ikinci ən çoxsaylı beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına rəhbərlik etməsi gənc dövlətin beynəlxalq iştirakçılıq sahəsində yüksək fəallığının təkzibedilməz sübutudur. Eləcə də ölkəmizə iqtisadi faydalar vəd edən karbohidrogen və kommunikasiya layihələrinin işlənməsi Azərbaycanın iqtisadi diplomatiyasının, möhtəşəm beynəlxalq forumların keçirilməsi humanitar diplomatiyasının, mədəniyyət sahəsində təşkil olunan tədbirlər mədəni diplomatiyasının, idman yarışları idman diplomatiyasının gözəl nümunələridir. Sadalananların hər biri ayrı-ayrı sahələrdə Azərbaycanın böyük uğurları olub, onun beynəlxalq nüfuz və hörmətinin artmasına birbaşa təsir etməklə ölkəmizin qlobal rolunun yüksəlməsinin əyani göstəriciləridir. Başqa sözlə ifadə etsək, yuxarıda qeyd olunanlar beynəlxalq həyatın ayrı-ayrı sahələrində ən mötəbər tədbirlər olmaqla əslində Azərbaycanın dünyaya yeni keyfiyyətdə təqdimatı nümunələri sayılmalıdır. Bu mənada beynəlxalq birlik İlham Əliyevi gənc, lakin kifayət qədər müasirləşmiş, beynəlxalq birliyin qabaqcıl dəyərlərini qəbul etmiş ölkənin lideri kimi tanımaq və qəbul etmək imkanı qazanmış oldu. İkincisi, İlham Əliyevin mütəmadi olaraq ən mötəbər beynəlxalq tədbirlərdə iştirakı, ən aktual diskuassiyalara qoşulması, müasir təfəkkür və dəyərlərə sahib olması onun yeni tipli milli lider imicini formalaşdırmağa əsas yaratdı. Bu isə öz növbəsində Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsində ifadə olunur. Tam məsuliyyət hissi ilə qeyd edilə bilər və qeyd edilməlidir ki, İlham Əliyevin müasir tipli milli lider kimi Prezidentliyi Azərbaycanın beynəlxalq aləmdə ən uğurlu təqdimatıdır.

Azərbaycan cəmiyyəti İlham Əliyevin liderliyini sabitliyin, təhlükəsizliyin, ictimai rifahın və dövlətin qüdrətinin ifadəsi və etibarlı təminatı hesab edir. Dövlət başçısı bu gün, eyni zamanda milli birliyin və həmrəyliyin təcəssümü missiyasını yerinə yetirir. Bütövlükdə cəmiyyətimiz, ayrı-ayrılıqda isə hər bir vətəndaş həm ölkəmizin, həm də özünün gələcəyi ilə bağlı baxışları və ümidlərini Prezident İlham Əliyevdən, onun düşünülmüş siyasətindən ayrılıqda təsəvvür etmir.

### *Sərkərdə qətiyyəti.* Ali Baş Komandan

2020-ci il noyabr ayının 10-dək müstəqil Azərbaycan dövlətinin qarşısında duran vəzifələr içərisində ən mühümləri erməni təcavüzü nəticəsində işğal edilmiş torpaqların azad edilməsi, ölkənin ərazi bütövlüyünün bərpası olmuşdur. Son 30 il ərzində dövlətin həyata keçirdiyi vəzifələr konkret şəraitə uyğun olaraq bu və ya digər dərəcədə dəyişikliklərə məruz qalsa da, ərazi bütövlüyünün bərpası həmişə aktuallığını qoruyub saxlamış, milli maraqların təminatının başlıca istiqaməti kimi çıxış etmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması zaman baxımından kifayət qədər çox vaxt apardığı kimi, həm də çoxşaxəli yanaşma, böyük səylər, gündəlik fəaliyyət tələb edirdi. Azərbaycan probleminin həllinə nail olmaq üçün siyasi-diplomatik səylər göstərmək, beynəlxalq vasitəçilərin missiyasına hörmətlə yanaşmaqla bərabər, münaqişənin nizama salınması, ədalətin bərpa olunmasında hərbi-siyasi vasitələrdən istifadə olunması ehtimalını heç zaman nəzərdən qaçırmırdı. Beynəlxalq vasitəçilərin "Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolu yoxdur" tezisinə qarşı Azərbaycanın Prezidenti İlham Əliyev tərəfindən "münaqişənin həllinin hərbi-siyasi yolu var" tezisini irəli sürməsi yuxarıda qeyd edilən fikrin ən bariz ifadəsi sayıla bilər. Uzun illər ərzində ATƏT Minsk qrupunun həmsədrlərinin öz missiyasına kifayət qədər məsuliyyətlə yanaşmaması və problemin həllinin diplomatik yolunu tapa bilməməsi hərbi-siyasi yolun qaçılmazlığına inamı artırırdı. Bununla əlaqədar olaraq, Azərbaycanın Silahlı Qüvvələrinin gücləndirilməsi, ən müasir silahlarla təchiz edilməsi, əsgər və zabitlərin döyüş qabiliyyətinin və vətənpərvərlik ruhunun yüksəldilməsi aktuallığını nəinki saxlayır, həm də daha böyük məna kəsb edirdi. Azərbaycanın artmaqda olan iqtisadiyyatı ordu quruculuğunun qarşısında yeni imkanlar açırdı. Bir neçə il ərzində Azərbaycanın hərbi büdcəsinin Ermənistanın dövlət büdcəsini üstələməsi, əlbəttə hər şeydən əvvəl bu iki dövlətin imkan və resurslarının ciddi şəkildə fərqləndiyini göstərirdi. Lakin haqqında söhbət açdığımız mənzərəni yalnız imkanlar arasında fərqin nəticəsi kimi qiymətləndirmək düzgün olmazdı. Bu, daha çox seçilmiş yolun və strategiyanın məntiqi yekunu baxımından nəzərdən keçirilməlidir. Hələ Prezidentliyinin ilk illərində İlham Əliyevin "Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən böyük olacaq" formasında tezisini səsləndirməsi yeni hərbi strategiyanın qısa səciyyəsini ifadə edirdi. Əsrlərboyu öz ölkəsinin milli maraqlarını müdafiə etmək kimi məqsədi qarşısına qoyan sərkərdələrin atdığı ilk addım ordunu gücləndirməkdən ibarət olub. Bu xüsusda Prezident İlham Əliyevin ordu quruculuğuna həssas yanaşması tarixdən məlum olan nəhəng sərkərdələrə xas olan strateq düşüncəsinin yeni və uğurlu nümunəsi sayıla bilər və sayılmalıdır. Sərkərdənin gücü onun yenilməz ordusundadır. Ancaq dünya hərb tarixində elə bir hal olmamışdır ki, ordu sərkərdəsiz, onun strateq düşüncəsindən, müdrikliyindən və qətiyyətindən kənarda yaradılsın. Yenilməz ordu sərkərdə müdrikliyinin və qətiyyətinin ifadəsi olduğu qədər də nəticəsidir. 44 gün davam edən Vətən müharibəsində qazanılan möhtəşəm zəfər İlham Əliyevin rəhbərliyi altında dünyanın ən müasir və ən yüksək döyüş qabiliyyətinə malik Azərbaycan Ordusunun qüdrətini nümayiş etdirdi. Vətən müharibəsində əldə edilən tarixi zəfər müzəffər ordunun sərkərdəsi kimi Ali Baş Komandan İlham Əliyevin həm müdrikliyinin, həm qətiyyətinin birbaşa nəticəsi kimi yaddaşlara həkk olunub. Onun hərbi əməliyyatların planlaşdırılması və idarə edilməsindən tutmuş böyük sərkərdə qətiyyəti ilə döyüşçüləri, həm də nəinki döyüşçüləri, bütün xalqı qələbəyə səsləyən çağırışları müharibənin taleyini həll edən əsas amillərdəndir. İnanıram ki, İlham Əliyevin strateji düşüncəsi, sərkərdə müdrikliyi və qətiyyəti dünya hərb tarixinə yeni parlaq səhifə kimi daxil olmuşdur.

Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş Ağdamdan xalqa müraciətində "Mən bu gün burada, Ağdamda dayanmışam. Öz ordumla, Qalib kimi" sözləri, müzəffər sərkərdənin öz qələbəsini bəyan etməsinin tarixdən məlum olan klassik nümunəsi idi. Bəli, İlham Əliyev öz qüdrətli ordusunu yaratdı, qələbə çaldı və işğaldan azad edilmiş ərazilərimizə səfər edərək möhtəşəm zəfərini bütün dünyaya bəyan etdi. Bütün dahi sərkərdələr kimi. Zəfər çaldı və yeni tarixi yaratdı.

### Zəfər

Müharibələr bəzi ölkələr üçün təcavüz məqsədi güdən təhlükəli seçim, digərlərinə görə isə dövlətin və xalqın milli maraqlarının qorunması naminə məcburi addımdır. 2020-ci il sentyabrın 27-də növbəti erməni hərbi təxribatına cavab olaraq başlayan Vətən müharibəsi Azərbaycanın Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş ərazilərinin azad edilməsi kimi zəruri və ədalətli məqsədlərə xidmət göstərmişdir.

Müharibə cəmiyyətin və dövlətin həyatında ən əhəmiyyətli hadisə olduğundan ölkənin bütün imkanları səfərbər edilir, xüsusi davranış normalarının seçilməsi qaçılmaz olur. Müharibənin uğurla başa çatmasını şərtləndirən əsas amillər dövlətin müharibəyə necə hazırlaşmasından, malik olduğu resurslardan, ordunun döyüş qabiliyyətindən və mənəvi ruhundan asılıdır. Lakin etiraf edilməlidir ki, istənilən hərbi fəaliyyətin başlıca uğuru hərbi strategiya anlayışı ilə əlaqədardır. Bu isə sərkərdə məharəti deməkdir. Bütün dövrlərdə hər bir müharibənin başlıca qəhrəmanı sərkərdələr olub. Ordumuzun sərkərdəsi, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 44 gün davam edən Vətən müharibəsinin əsas və həlledici qəhrəmanı olması təkcə Azərbaycan vətəndaşlarının deyil, bütün beynəlxalq icmanın yekdil qənaətidir. Məhz onun düzgün strategiyası sayəsində təxminən 30 il əvvəl Azərbaycanın ərazilərinin 20 faizini işğal etmiş Ermənistan ordusu darmadağın edildi, işğala son qoyuldu, tarixi qələbə əldə edildi. Birmənalı şəkildə qeyd olunmalıdır ki, Vətən müharibəsində əldə edilən hərbi uğur İlham Əliyevin qələbəsi, onun sərkərdə düşüncəsinin və strategiyasının təntənəsidir.

8 Noyabr Zəfər Günü Azərbaycanın çoxyüzillik tarixinin şanlı səhifəsini təşkil edir. Vətən müharibəsi və onun qələbə ilə başa çatması müasir Azərbaycan dövlətinin həyatının ən parlaq anları kimi, tariximizin bundan sonrakı dönəmlərində daim xüsusi qürur və iftixar hissi ilə xatırlanacaq. Çünki bu, millətin ümid, inam, qürur anları idi. Bu, ölkəmizin yeni tarixinin başlanğıcı, yeni inkişaf üfüqlərinin açılması məqamıdır.

Mən Vətən müharibəsini və Azərbaycanın şanlı Zəfərini əslində xeyirin şər üstündə qələbəsi kimi qiymətləndirmək istərdim. Nəzərə alsaq ki, şər qüvvələri təkcə işğalçı Ermənistan deyil, həm də onun havadarları təmsil edirdilər, onda Azərbaycanın qələbəsinin tarixi əhəmiyyəti və mənası daha aydın təsəvvür edilə bilər. Prezident İlham Əliyevin xalqa müraciətlərində, ayrı-ayrı ölkələrin nüfuzlu media orqanlarına müsahibələrində xeyirin şərə qarşı mübarizəsi və onun qələbə ilə nəticələnməsi özünün geniş ifadəsini tapmışdır. Vətən müharibəsində şər üzərində qələbə Azərbaycan xalqının ədalətli mübarizəsinin beynəlxalq əhəmiyyətindən xəbər verir. Xeyirlə şərin mübarizəsi qədim əsatirlərin mövzusu olsa da, etiraf etmək lazım gəlir ki, şər qüvvələr müasir dünyada da mövcuddur və ona qarşı mübarizə aparılması qlobal həyatın aktual problemi olaraq qalmaqdadır. Azərbaycan regionumuza və dünyaya təhdid olan şər qüvvələri məğlub etməklə əslində dünya miqyasında sülhə və təhlükəsizliyə özünün əhəmiyyətli töhfəsini vermişdir.

Azərbaycan xalqı ölkəmizə möhtəşəm zəfər sevincini bəxş etdiyinə, erməni işğalına son qoyduğuna, Qarabağı azad etdiyinə görə dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyevə dərin hörmət və ehtiramını ifadə edir. Şuşanın azad edilməsi şərəfinə, Zəfər günündə Bakının, digər şəhərlərimizin küçələrini dolduran izdiham, sevinc və bəxtiyarlıq hissləri bu hörmət və ehtiramın aydın ifadəsi idi.

Bir ölkənin Prezidenti, bir xalqın lideri olmaq böyük şərəfdir. Lakin xalqın sevimlisi olmaq, onun hörmət və ehtiramını qazanmaq daha böyük şərəf, daha böyük bəxtəvərlikdir. İlham Əliyev, özünün qeyd etdiyi kimi, xoşbəxt insandır. Xoşbəxtdir ki, həm Prezident, həm siyasi varis, həm də oğul kimi öz üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirdi. Azərbaycanın yeni, şanlı tarixinin müəllifi, xalqımızın bitib tükənmək bilməyən sevinc, qürur və bəxtiyarlığının ilham mənbəyi oldu. Bu elə bir zirvədir ki, ondan yüksəyini təsəvvür etmək mümkün deyil!

*Öz ölkəsinə şanlı Zəfər bayramını və bəxtiyarlığını bəxş edən Prezident İlham Əliyevə xalqımızın sevgisinin, vurğunluğunun, hörmət və ehtiramının miqyasını təsəvvür etmək çətindir. Xalqın gözündə, qəlbində və düşüncələrində İlham Əliyev Qalibdir. Çoxdan gözlədiyimiz Qalib.*

*İndi hamının ürəyində bir istək, dilində bir söz var: Allah İlham Əliyevin və Azərbaycanın yar və yardımçısı olsun.*

**Əli ƏHMƏDOV,**
***Yeni Azərbaycan Partiyasının sədr müavini - İcra katibi***

# İLHAM ƏLİYEV dedi və etdi

*Əvvəli 1-ci səh.*

■ Düşmənin silahlanmasına, işğal ərazilərində möhkəmlənməsinə, buraya xaricdən yeni ermənilərin gətirilərək kütləvi surətdə məskunlaşdırılmasına göz yumdu!

■ Azərbaycan dövlətinin, Prezidenti İlham Əliyevin bütün xəbərdarlıqlarına soyuq yanaşdı.

Bunlardan ruhlanan ermənilər isə nəinki özlərini işğal etdikləri ərazilərin sahibi kimi aparırdılar, hətta "yeni torpaqların işğalı üçün yeni müharibə" ilə hədələməyə başlamışdılar.

❖ ❖ ❖

**İlham Əliyev və zaman göstərdi ki, Azərbaycan Ali Baş Komandanının sözləri sadəcə hədə-qorxu yox, ciddi xəbərdarlıqlar imiş!**

17 il mənasız sülh danışıqlarına, ermənilərin ərköyünləşdirilməsinə və qudurdulmasına dözən, sona qədər torpaqları sülh yoıu ilə, ATƏT-in hazırladığı baza prinsiplərinə əsasən həllinə çalışan Azərbaycan rəhbəri, nəhayət Ermənistanın növbəti hərbi təxribatına əks-hücumla cavab verdi!

**Beləliklə, 27 sentyabr 2020-ci ildə Azərbaycan xalqının Vətən müharibəsi başlamış oldu!**

*Bu müharibə tarixə XXİ əsrin yeni müharibə nümunəsi kimi düşdü!*

*Bu müharibə Ermənistanın darmadağın edilməsi, diz çökdürülməsi ilə nəticələndi!*

*Bu müharibə Azərbaycan torpaqlarının işğaldan azad olunmasına, ərazi bütövlüyünün bərpasına səbəb oldu!*

*Bu müharibə İlham Əliyevin adını tarixin qızıl səhifələrinə "İtirilmiş əraziləri geri qaytaran dövlət başçısı" kimi yazdı!*

**İlham Əliyev dedi və etdi: düşməni müqəddəs torpaqlarımızdan həmişəlik qovdu!**

**Üstəlik Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimizin əvəzini çıxaraq bütün şəhidlərimizin, viran qoyulmuş yaşayış məskənlərimizin də qisasını aldı!**

❖ ❖ ❖

İlham Əliyevin möhtəşəm qələbəsinin başlıca səbəbləri hansılardır?

Bu suala birlikdə cavab tapmağa çalışaq!

Əvvəlcə qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev bu qələbəyə uzun yol gəlmiş, bir neçə mühüm sahədə - qüdrətli dövlət, güclü ordu quruculuğu ilə yanaşı, beynəlxalq təşkilat və qurumlarla, diplomatiya sferasında, habelə informasiya cəbhəsində də yorulmadan çalışmışdır.

**Diqqət yetirdikdə görürük ki, İlham Əliyev Azərbaycana rəhbərliyə başladığı ilk günlərdən daim düşünülmüş, uzaqgörən siyasət yeritmiş, məqsədə çatmaq yolunda həmişə hesablanmış, ölçülü-biçili addımlar atmışdır.**

*Həm ölkə, həm də beynəlxalq miqyasda İlham Əliyevin gördüyü işlər, eyni zamanda bir neçə məqsədə xidmət etmişdir.*

Məsələn, Azərbaycanın karbohidrogen ehtiyatlarının ixracının şaxələndirilməsi, qeyri-ənənəvi marşrutla dünya bazarına çıxarılması təkcə ölkəyə küllü miqdarda valyuta vəsaiti gətirmirdi. Eyni zamanda özünün təhlükəsizliyinə də qarant yaradır, qarşılıqlı maraqların təmini hesabına yeni dostlar qazandırırdı.

**Başqa sözlə, güclənən Azərbaycan güclü dövlətlərlə bərabərhüquqlu əməkdaşlıq yaradırdı.**

Başqa bir misal, idmanın inkişafı Azərbaycan gəncinin sağlamlığına, pis vərdişlərdən uzaqlaşmasına kömək göstərir.

*Eyni zamanda idman müstəqil Azərbaycanın dünyaya yeni təqdimatında, müsbət imicinin formalaşdırılmasında uğurlu vasitə rolunu oynayır.*

Azərbaycan gənci müxtəlif arenalarda keçirilən idman yarışlarında qalib gələrək dövlət bayrağını qaldırır, himnini səsləndirir.

Ölkəmizdə keçirilən idman yarışlarına gələnlər paytaxt Bakı və xalqımızla yaxından tanış olur, şəxsi təəssürat qazanır.

Yarım milyardlıq televiziya seyrçisi olan "Formula-1" yarışlarının izləyiciləri indiyədək tanımadıqları Azərbaycan, Bakı haqqında yeni məlumatlar əldə edirlər.

**Beləliklə, idman yalnız idman olaraq qalmır, xalqları, dövlətləri, insanları bir-birlərinə tanıdır, yaxınlaşdırır.**

Turizm də onun kimi.

İnsanlar gəzməyi, görməyi, yeni ölkələrlə tanış olmağı çox sevirlər.

Razı qaldıqları yerlərə yenə dönə-dönə gəlirlər.

*Bu həm də yaxşı gəlir mənbəyi sayılır və bir çox dövlətin büdcəsinə turizm hesabına hər il xeyli vəsait daxil olur.*

Azərbaycana gələnlərin sayı da ilbəil artır.

Turizm axını yalnız Xəzərin qumlu sahilləri, gözəl təbiət mənzərələri və mətbəximizlə bağlı deyil.

Xalqımızın mehribanlığı, gülərüzlüyü, tolerantlığı da mühüm rol oynayır.

## "Sözümüz imzamız qədər mötəbərdir".

**İlham ƏLİYEV**



**Müsəlman ölkəsinə gələn turistlər burada müasir insanların yaşadığının, bütün dinlərə və millətlərə hörmətlə yanaşıldığının, demokratik dövlət qurulduğunun şahidinə çevrilirlər.**

Ötən əsrin 90-cı illərində ermənilərin dünyaya təqdim etməyə çalışdıqları "zavallı milləti incidən" "vəhşi", "qaniçən" müsəlmanların yaşadığı Azərbaycanın mövcud olmadığını gözləri ilə görürlər.

❖ ❖ ❖

*Hər bir rəhbər xalqının içindən çıxır.*

*Yaxud, hər bir xalq öz rəhbərinə bənzəyir.*

Hamıya bəlli həqiqətlərdir!

Xüsusən dünya birliyinə yeni qoşulan ölkələrin tanınmasında rəhbər faktoru mühüm əhəmiyyətə malikdir.

Bu sarıdan Azərbaycan xalqının bəxti gətirib.

Hər cür müqayisə qüsurludur - demişlər.

Odur ki, heç bir müqayisə aparmayacağıq!

**İlham Əliyevin iti ağlı, dərin zəkası, aristokrat davranışı, parlaq və sinədəftər nitqi, xarici dilləri mükəmməl bilməsi və sərbəst danışması, jurnalistlərlə yüksək səviyyəli ünsiyyəti və digər mənəvi keyfiyyətləri onu artıq dünya çaplı siyasi liderlər səviyyəsinə yüksəltmişdir.**

*Xalqını təmsil edərək ucalan rəhbərimiz, xalqını da məharətlə ucaldır!*

*Uğurlu rəhbərin nüfuzu, öz növbəsində, xalqın nüfuzuna çevrilir.*

Eyni rakursdan yanaşırıq.

İlham Əliyev BMT-nin Təhlükəsizlik Şurasına rəhbərlik etdi.

*Bu hüququ özünün yaratdığı yeni Azərbaycanla birlikdə qazanmışdı.*

*Əvvəla, Təhlükəsizlik Şurasının iclaslarına sədrlik edən müddətdə mövcud imkandan istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ problemini bir daha, həm də obyektiv və beynəlxalq hüquqa uyğun şəkildə dünya dövlətlərinin diqqətinə çatdırdı.*

*İkinci, sədrliyi dövdə dünyanı düşündürən, narahat edən məsələ və problemlərin müzakirəsinə nail olaraq ölkəmizə çoxlu dost qazandırdı.*

Yaxud, İslam Əməkdaşlıq Təşkilatına rəhbərlik etdiyi dövrdə islam dövlətlərinin yaxınlaşmasına, əməkdaşlıqlarının güclənməsinə şəxsi töhfələrini verdi.

Eyni zamanda həm islamın, həm də Azərbaycanın sülhsevər, tolerant din olduğunu bir daha dünyaya nümayiş etdirdi.

*Daha bir misal: Azərbaycanı humanitar forumların keçirildiyi mərkəzə çevirən İlham Əliyev təkcə ölkəmizdə dünyanı qayğılandıran problemlərin müzakirəsinə, onların həllinə dəyərli təkliflər verilməsinə nail olmur, həm də həmin forumda iştirak edən dünyanın görkəmli siyasətçilərini və dövlət xadimlərini, məşhur simalarını Azərbaycanın dostuna çevirir.*

Ən nəhayət, yaxınlarda BMT-nin Təhlükəsizlik Şurasında Etmənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Minsk qrupu üzvlərinin təklifi ilə yeni qətnamə qəbul etmək istəyirdilər.

Ölkəmizin maraqlarına xidmət etməyən qətnamə!

**Lakin bu məkrli sənəd qəbul olunmadı!**

**Çünki Qoşulmama Hərəkatına rəhbərliyi dövründə İlham Əliyev bu quruma üzv dövlətlərin maraqlarını təmin edən bir sıra addımlar atmışdı, onların çoxuna Azərbaycan dövləti öz yardımını göstərmişdi.**

**Dost ölkələr isə bu məqamda Azərbaycanın maraqlarının qorunmasına öz dəstəklərini verdilər.**

❖ ❖ ❖

Hərbi əməliyyatların başlandığı ilk günlərdən bütün dünya gördü ki, Azərbaycan Ordusu həqiqətən dünyanın ən güclü orduları sırasında yer tutmağa layiqdir.

O, təkcə ən müasir silahlarla silahlanmayıb, həm də yeni taktika ilə vuruşur.

**Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunu yaradanda vahid məqsəd güdmüşdür:**

**Erməni işğalçılarını ölkə ərazisindən qovub çıxarmaq, minimum itki ilə maksimum nəticə əldə etmək!**

*Bu vəzifəni yerinə yetirən İlham Əliyev Azərbaycanın yeni müharibə tarixini yazdı!*

*Öz gücü, siyasəti, qurucusu olduğu ordusu ilə ölkəmizin ərazi bütövlüyünü təmin edərək tarixə qüdrətli dövlət başçısı, mahir sərkərdə, qətiyyətli rəhbər kimi düşdü!*

**Ən əsası dediyini etdi!**

**Sözünün imzası qədər mötəbər olduğunu bir daha sübuta yetirdi!**

**Bəxtiyar SADIQOV**

# Tariximizin ən şərəfli səhifəsinin müəllifi



*Əvvəli 1-ci səh.*

Onun məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində 17 il ərzində Azərbaycan dövlətinin bütün sahələrində əldə etdiyi uğurlar "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini sübut edir. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik fəaliyyətini təhlil etdikdə onun güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı müdrik lider olduğunu görürük. Bunun nəticəsidir ki, Azərbaycan davamlı inkişaf və modernləşmə yolu ilə irəliləyən, dünya siyasətində öz yeri və rolu olan dövlət kimi tanınır, xarici ölkələr ona hörmət və ehtiramla yanaşırlar.

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident İlham Əliyevin müzəffər komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi oldu. 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğal olunmuş əraziləri cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə erməni qəsbkarlarından azad edildi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında həm Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, həm də ondan irəli gələrək Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə uğurları, xarici siyasətdə nailiyyətləri dayanır.

## Qələbəyə aparan liderlik keyfiyyətləri

Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən Lider kimi xalqımızın böyük rəğbətini qazanıb. Onun dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Prezident İlham Əliyev təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur.

Ümumdünya tarixi təcrübələr sübut edir ki, hər bir xalqın genetik yaddaşını möhkəmləndirmək, mənəvi irsini və əxlaqi dəyərlərini qoruyub saxlayaraq gələcək nəsillərə ötürmək kimi çətin missiyanın yerinə yetirilməsi uzaqgörən liderlərin fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Onlar həmişə ali məqsədlər uğrunda mübarizənin önündə gedərək, göstərdikləri tarixi fəaliyyətlə rəhbərlik etdikləri dövlətlərin mütərəqqi yolla inkişafına nail olurlar. Bu baxımdan Prezident İlham Əliyev xalqımızın milli-mənəvi bütövlüyünün təmin olunmasında özünəməxsus yer tutan milli şüurun inkişafını daim diqqət mərkəzində saxlayır ki, bu da təsadüfi deyildir. Çünki milli şüur hər bir insanın mənsub olduğu xalqa bağlılıq hisslərini möhkəmləndirməklə milli özünüdərketmədə ciddi rol oynayır. Prezident İlham Əliyev xalqımızın mənəvi tərəqqisinə, milli özünüdərkin və qürur hissinin güclənməsinə Azərbaycanın inkişaf strategiyasının tərkib hissəsi kimi yanaşır.

Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət aparır. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir.

Prezident İlham Əliyevin səmərəli iş qabiliyyəti, fəallıq və təşəbbüskarlıq kimi keyfiyyətlərə malik olması onun cəmiyyətdə gedən prosesləri adekvat qiymətləndirməsində, ortaya çıxan problemlərin obyektiv və subyektiv səbəblərini dərindən, hərtərəfli araşdırmasında, ölkənin inkişafını nəzərdə tutan proqramlar hazırlayaraq həyata keçirməsində mühüm əhəmiyyət daşıyır. Ölkəmizin dövlət müstəqilliyinin möhkəmlənməsi sahəsində Azərbaycan Prezidentinin apardığı milli inkişaf siyasəti intellektual düşüncəyə və praqmatizmə əsaslanır. Prezident İlham Əliyevin qəbul etdiyi qərarların, yerinə yetirdiyi vəzifələrin milli və qlobal əhəmiyyəti həm yerli, həm də beynəlxalq ictimai rəydə yüksək qiymətləndirilir. Vaxtilə müharibə şəraitində yaşayan ölkəmizin davamlı sosial-iqtisadi inkişafa nail olması Prezident İlham Əliyevin bəyan etdiyi məqsədlərin xalqımızın milli maraqlarına söykənməsi ilə sıx şəkildə bağlıdır.

Tədqiqatçılar siyasi liderliyin strukturunda, adətən, üç komponenti (liderin şəxsi keyfiyyətləri, hakimiyyəti həyata keçirmə vasitələri və liderə təsir göstərən situasiya) bir-birindən fərqləndirirlər ki, onlar bütövlükdə liderin əxlaqi (humanizm, məsuliyyət, düzgünlük və s.) və professional (analitik düşünmək qabiliyyəti, səriştəlik, çeviklik və s.) keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayır. Siyasi liderə inam onun hakimiyyət səlahiyyətlərinin legitimliyində və cəmiyyətdə böyük nüfuz qazanmasında xüsusi yer tutur. Xüsusilə seçkilər liderə inamın hansı səviyyədə olduğunu sübut edən göstərici rolunu oynayır. Cəmiyyətdə gedən proseslərə obyektiv mövqedən yanaşması və ictimai şüurda baş verən dəyişiklikləri daim diqqət mərkəzində saxlaması siyasi liderin böyük uğurlar əldə etməsinə yol açır. Seçicilər, adətən, elə siyasi lideri dəstəkləyirlər ki, onun ideya və baxışları ictimai tələblərə tam şəkildə cavab verir. Siyasi liderin nüfuz qazanması üçün ümummilli mənafeləri üstün tutması, xalqı düşündürən məsələlərə böyük həssaslıqla yanaşıb onları həll etməsi vacib şərtdir. Buna görə də Azərbaycan xalqının Prezident İlham Əliyevə inamı onun müxtəlif illərdə keçirilmiş prezident seçkilərində böyük səs çoxluğu ilə qələbə qazanmasına həlledici təsir göstərmişdir və bunun əsasında siyasi elektoratın rasional seçimi dayanır.

Prezident İlham Əliyev ictimaiyyətin nümayəndələri ilə mütəmadi olaraq birbaşa təmaslar yaradır, onları narahat edən, düşündürən məsələlərə böyük həssaslıqla yanaşır. Onun mövqeyinə görə, cəmiyyətin inkişafına təkan verən mütərəqqi ideyalar müxtəlif dəyərlər, baxışlar və intellektual yanaşmalar arasındakı mübadilənin nəticəsində meydana gəlir. İctimai həyatda baş verən hadisə və proseslərə obyektiv yanaşmaq Prezident İlham Əliyevin liderliyinin əsas əlamətlərindən biridir. Onun qlobal düşüncəli, geniş dünyagörüşlü Lider olaraq ümummilli məsələlərlə bağlı həyata keçirdiyi siyasət realist xarakter daşıyır.

## Möhtəşəm zəfəri təmin edən sosial-iqtisadi və siyasi inkişaf

Prezident İlham Əliyevin siyasətində xalqın sosial rifahının yaxşılaşdırılması əsas istiqamətlərdən biridir. Buna görə də ötən illər ərzində Azərbaycanın sosial müdafiə sistemi gücləndirilmiş, təqaüdlər və digər sosial müavinətlər vaxtaşırı artırılmış, yoxsulluğun səviyyəsi ildən-ilə azaldılmışdır. Ölkəmizin maddi və mənəvi resursları səmərəli şəkildə milli inkişaf strategiyasının həyata keçirilməsinə cəlb olunmuşdur. Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi uğurlar Vətən müharibəsində onun Ermənistan üzərində qələbə qazanmasını şərtləndirən faktorlardan biridir.

Azərbaycanda müstəqil dövlət quruculuğunun uğurla həyata keçirilməsi ictimai həyatın bütün sahələrində modernləşməni təmin edir. Məlumdur ki, cəmiyyətin modernləşməsi üçün siyasi, iqtisadi və sosial ilkin şərtlərin olması vacibdir. Buna görə də bazar iqtisadiyyatının və demokratik siyasi sistemin inkişafı, siyasi mədəniyyət səviyyəsinin yüksəlməsi kimi amillər Azərbaycanın modernləşmə yolu ilə inkişafına mühüm təkan verir. Modernləşmə zamanı keçmiş, indi və gələcək arasındakı tarixi varislik prinsipi qorunur.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirərək Azərbaycanın maddi resurslarından əldə edilən gəlirləri ölkənin inkişafına yönəldir. Prezident İlham Əliyev ölkəmizin enerji resurslarının dünya bazarlarına səmərəli və əlverişli yollarla çıxarılmasını nəzərdə tutan praqmatik siyasət həyata keçirir və şaxələndirilmiş nəqliyyat infrastrukturu vasitəsilə beynəlxalq birliyin diqqətini Azərbaycana cəlb edir. Bütün bunlar ölkəmizlə dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsi və ilk növbədə, Azərbaycanın geoiqtisadi maraqlarının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Respublikamız böyük enerji-nəqliyyat layihələrinin əsas təşəbbüskarlarından biri kimi regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində vacib rol oynayır. Prezident İlham Əliyevə dərin inam və etibardan irəli gələrək, Azərbaycan iqtisadiyyatına böyük həcmdə xarici sərmayələrin qoyulması qeyri-neft sektorunun və müxtəlif sənaye sahələrinin inkişafına təsir göstərən amillərdəndir.

Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsidir ki, Azərbaycan dünyada müxtəlif sivilizasiyaların qovuşduğu tolerant məkan, multikultural dəyərlərin inkişaf etdiyi çoxmillətli ölkə kimi tanınır. Xalqımızın milli-mənəvi dəyərlərinin təbliğinə, mədəni həyatının zənginləşməsinə dövlət səviyyəsində göstərilən diqqət milli mədəniyyətimizin qorunmasında və dünya miqyasında tanınmasında xüsusi əhəmiyyət kəsb edir. Fərqli mədəniyyətlər arasında vəhdət və qarşılıqlı təsirin mövcud olması müasir cəmiyyətimizin xarakterini səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Prezident İlham Əliyev uzaqgörən siyasi lider kimi bu faktoru nəzərə alaraq, Azərbaycan vətəndaşlarına belə bir ideya aşılayır ki, dünyadakı qloballaşma şəraitində multikultural dəyərlərin qarşılıqlı təsiri milli və dini mənsubiyyətindən asılı olmayaraq insanlardan mədəniyyətlərarası dialoqu dəstəkləməyi və başqalarının mədəni dəyərlərinə hörmətlə yanaşılmasını tələb edir. Milli və dini münasibətlərin inkişafı sahəsində Prezident İlham Əliyevin apardığı siyasət etnik və dini mənsubiyyəti, mədəni dəyərləri və adət-ənənələrindən asılı olmayaraq bütün ölkə vətəndaşları tərəfindən dəstəklənir. Müxtəlif dini konfessiyaların fəaliyyəti üçün yaradılmış şərait cəmiyyətin mənəvi sərvətləri sırasında vicdan azadlığının özünə mühüm yer tutmasını təmin edir. Azərbaycanda yaşayan etnik qruplar ümumi birgəyaşayış qaydaları əsasında özlərinin mədəni-mənəvi dəyərlərini və etnoqrafik xüsusiyyətlərini qoruyub saxlayırlar. Ölkədəki bütün dini icmalar və etnik qruplar multikulturalizmin inkişafında, dostluq və humanizm prinsiplərinin ictimai həyatda öz təsdiqini tapmasında, ictimai-siyasi sabitliyin təmin olunması və vətəndaş həmrəyliyinin möhkəmlənməsində yaxından iştirak edir.

## Diplomatik mübarizənin şanlı qələbədə rolu

Vətən müharibəsində qələbənin əldə olunması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı ardıcıl, qətiyyətli diplomatik mübarizə ilə sıx şəkildə bağlıdır. Ötən illər ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi və milli maraqlarının təmin olunması sahəsində Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu ölkəmizə beynəlxalq aləmdə çoxlu dost dövlətlər və etibarlı tərəfdaşlar qazandırıb.

Azərbaycanın Cənubi Qafqazın aparıcı dövləti kimi dünya birliyində mövqeyi daha da möhkəmlənib. Digər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq Prezident İlham Əliyevin siyasətinin əsas prinsiplərindən birini təşkil edir. Bu siyasətin nəticəsində ölkəmizlə dünya dövlətləri arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq möhkəmlənir, Azərbaycan vətəndaşlarının firavan və təhlükəsiz şəraitdə yaşayışı təmin olunur.

Prezident İlham Əliyevin apardığı xarici siyasət ölkəmizi dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa Birliyi, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Bununla yanaşı, nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi Azərbaycanın uğurlu diplomatiyasının göstəricisidir. Uğurlu xarici siyasət nəticəsində əldə olunmuş nailiyyətlər Azərbaycanın müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafına mühüm təsir göstərir. Müasir dövrdə beynəlxalq aləmdə baş verən geosiyasi ziddiyyətlərə, qloballaşmanın özü ilə gətirdiyi çətinliklərə baxmayaraq, Azərbaycan davamlı inkişaf yolu ilə irəliləyən dövlət kimi dünya ölkələri arasında özünə layiqli yer tutur. Milli maraqlara və praqmatizmə əsaslanan xarici siyasətin aparılması beynəlxalq ictimaiyyətdə Azərbaycana böyük inam və etimad qazandırır.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olmaq üçün ötən illər ərzində fəal və çevik xarici siyasət həyata keçirilib. Dağlıq Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumatlar çatdırılıb, Ermənistanın yalançı təbliğatı ildən-ilə fiaskoya uğrayıb. Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi normalar çərçivəsində nizamlanmasına çalışıb, Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi kimi beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirib, Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə, dünya dövlətlərini isə problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb.

## Ordu quruculuğundakı nailiyyətlərin məntiqi nəticəsi

Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin, zabit-əsgər heyətinin yüksək hərbi hazırlığa və vətənpərvərlik əhvali-ruhiyyəsinə malik olmasının nəticələri özünü Vətən müharibəsində parlaq şəkildə göstərdi. Şanlı Ordumuz Azərbaycanın işğal olunmuş ərazilərini erməni qəsbkarından azad etdi. Sübut olundu ki, Azərbaycan müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrə malikdir.

Müharibə dövründə xalqımız Prezident İlham Əliyevin apardığı siyasətlə bağlı həmrəylik nümayiş etdirdi. Bir daha aydın oldu ki, Azərbaycan dövlətinin bütün sahələrində uğurların əldə edilməsində vətəndaş həmrəyliyi özünəməxsus yer tutur. Milli birliyin təmin olunması, müxtəlif ictimai-siyasi qüvvələr arasında etimad mühitinin yaradılması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar ictimai fikirdə onun haqqında uzaqgörən və ədalətli lider obrazını daha da möhkəmləndirir. Doğma vətənini sevən hər bir azərbaycanlı həmrəylik göstərərək torpaqlarımızın Ermənistanın işğalından azad olunması üçün Prezident İlham Əliyevin apardığı siyasəti dəstəklədi. Vətən müharibəsindən əvvəl də ermənilərin hərbi təxribatlarının qarşısının alınması üçün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətlə bağlı xalqımız dəfələrlə həmrəylik nümayiş etdirib. Buna nümunə olaraq 2016-cı ilin Aprel döyüşlərini göstərmək olar. Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda Milli Ordumuz əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısını aldı. Həmin döyüşlərdə mühüm nailiyyətlər əldə olundu, bir neçə yüksəklik və müəyyən ərazilər Ermənistanın işğalından azad olundu, əldə edilmiş qələbə vətəndaş birliyini daha da möhkəmləndirdi. Əvvəllər ermənilər dünyaya ordularının yenilməz, güclü olması haqqında yalan məlumat yayırdılar. Lakin Vətən müharibəsindəki döyüşlər ermənilərin bu cür iddialarının cəfəngiyyat olduğunu sübut etdi və qısa müddət ərzində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məhv etməklə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. 44 günlük müharibə dövründə dünyanın nüfuzlu telekanallarına verdiyi müsahibələrində Prezident İlham Əliyevin Azərbaycanla bağlı həqiqətləri beynəlxalq aləmin diqqətinə yüksək diplomatik peşəkarlıqla çatdırması dövlətimizin informasiya müharibəsində də qələbəsini təmin etdi.

## Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyəti

Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində baş verən müharibədə Azərbaycan Ordusu düşmənin hərbi qüvvələrini darmadağın etməklə həm də onun işğalçılıq siyasətini iflasa uğratdı. Bu qələbə münasibətilə Ali Baş Komandan İlham Əliyev bildirib: "Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".

Prezident İlham Əliyevə olan yüksək inamın nəticəsi idi ki, xalqımızın vətənpərvər övladları onun çağırışına qoşularaq torpaqlarımızın işğaldan azad edilməsi uğrunda səfərbər olub silaha sarıldılar. Rəşadətli Azərbaycan Ordusu "Dəmir yumruq" əməliyyatında böyük şücaət göstərərək xalqımızın tarixinə parlaq səhifələr yazdı. Vətən müharibəsinin ilk günlərindən başlayaraq Ali Baş Komandan İlham Əliyev əsgərlərimizin qəhrəmanlığı ilə fəxr etdiyini, qürur duyduğunu bildirib: "Bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir". Qeyd edək ki, Azərbaycan Ordusunun döyüşlərdə qazandığı qələbələr Prezident İlham Əliyevin xalqımızın milli maraqlarına söykənən uzaqgörən siyasətinin, güclü lider kimi beynəlxalq arenada yüksək nüfuzunun, xalq-ordu birliyinin məntiqi nəticəsidir.

Azərbaycan dövləti erməni işğalçılarını torpaqlarımızdan qovmaqla bölgədə yeni reallıq yaratdı və 27 il idi ki, BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələblərini yerinə yetirdi. Şanlı qələbədən sonra Prezident İlham Əliyevin dediyi kimi, "Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir". Vətən müharibəsində qazanılmış möhtəşəm qələbə Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti və Azərbaycan Ordusunun igid, mərd, qorxubilməz döyüşçülərinin qəhrəmanlığı nəticəsində reallaşdı. Müharibənin gedişində hərbçilərimizin əhvali-ruhiyyəsinin və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunun və döyüş tapşırıqlarını böyük məharətlə yerinə yetirdiklərinin şahidi olduq.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən birgə Bəyanatın imzalanması Vətən müharibəsində Azərbaycanın hərbi-siyasi qələbəsini təsdiq edən tarixi hadisə oldu. Bununla da müharibənin ilk günlərindən etibarən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri Ermənistan hakimiyyətinin qəbul etməkdən başqa çıxış yolu qalmadı.

Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya göstərdi. İşğal olunmuş torpaqlarda dalğalanan Qələbə bayrağımız da bu möhtəşəm tədbirə gətirildi, 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirildi. Paradda həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi, düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

*Yuxarıda qeyd edilənlərin ümumiləşdirilməsi göstərir ki, son illər ərzində ölkəmizin əldə etdiyi nailiyyətlər və beynəlxalq arenadakı böyük nüfuzu, xalq-iqtidar birliyi, xüsusilə ordu quruculuğu sahəsində görülmüş işlər Azərbaycanın Vətən müharibəsində qələbəsini şərtləndirən vacib faktorlardır. Xalqımız 30 ilə yaxındır işğal altında olan torpaqlarımızın azad olunmasını, tarixi ədalətin və ölkəmizin ərazi bütövlüyünün bərpasını böyük sevinc hissi ilə qeyd edir.*

*Bu qələbə ilə Azərbaycan bütün dünyaya öz gücünü və haqq-ədalət uğrunda qətiyyətli mübarizəsini nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin müdrikliyi, Milli Ordumuzun gücü, cəmiyyətdəki vətəndaş həmrəyliyi nəticəsində əldə olunmuş möhtəşəm qələbə Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən biridir. Xalqımız bu şanlı qələbəni böyük səbirsizliklə gözləyirdi və hər birimiz üçün müqəddəs sayılan torpaqlarımızın azad olunması sübut etdi ki, Azərbaycan əsgəri Vətənimizin hər qarış torpağı uğrunda canından keçməyə hazırdır.*

**Mübariz QURBANLI,**
***Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini***

# Zəfər Komandanı

*Əvvəli 1-ci səh.*




## Xalqa layiqli xidmət məramı

2003-cü ilin 31 oktyabrında səlahiyyətlərinin icrasına başlayan dövlət başçısı cənab İlham Əliyev ötən 17 ildə Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməklə yanaşı, Ulu Öndərin xaos və anarxiyadan qurtardığı respublikamızın "Güclü dövlət - müstəqil siyasət" konsepti əsasında inkişafını təmin edib. Ötən illərdəki fəaliyyəti dövlət başçısının verdiyi bütün vədlərin əməli fəaliyyətə və praqmatizmə söykəndiyini, respublikanın gerçək potensialı ilə uzlaşdığını tamamilə təsdiqləyib. Azərbaycan Prezidenti İlham Əliyevin əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu ictimai həyatın bütün sahələrində böyük uğurlara zəmin yaradıb, hər bir vətəndaşın həyatında nəzərəçarpacaq irəliləyişlərə səbəb olub.

Əgər 1993-2003-cü illərdə dövlət müstəqilliyinin daxili və xarici təhdidlərdən qorunub saxlanılması, iqtisadiyyatın dirçəldilməsi, ölkəmizin beynəlxalq arenada tanıdılması praktiki məqsədlər idisə, son 17 ildə obyektiv həyat reallıqları yeni hədəflər müəyyənləşdirib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, *"Azərbaycanın bugünkü reallıqları bir daha müstəqilliyimizin üstünlüklərini göstərir. Tarixdə Azərbaycan heç vaxt bu qədər güclü olmamışdır. Bunun başlıca səbəbi müstəqil olmağımızdır. Müstəqillik ən böyük sərvətdir. Hər bir vətəndaş müstəqilliyi qorumalıdır, öz işi ilə müstəqilliyimizə töhfə verməlidir. Elə etməliyik ki, bundan sonra Azərbaycan daim inkişaf yolu ilə getsin".*

"Biz xalqın xidmətçisiyik", - deyən Azərbaycan Prezidenti ötən 17 ildə cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir fərdin marağına cavab verən çevik və qətiyyətli qərarlar qəbul edib. Azərbaycanın siyasi, sosial-iqtisadi, mədəni-humanitar sahələrdə əldə etdiyi yüksək nəticələrin möhkəm təməl üzərində formalaşmış ictimai-siyasi sabitlik amili ilə şərtləndiyini, həmrəyliyə və vətəndaş sülhünə əsaslandığını xüsusi vurğulamağa ehtiyac yoxdur. Bu gün respublikamızda mövcud olan daxili sabitlik, əmin-amanlıq, milli barışıq mühiti demokratik inkişafın, qanunçuluğa və hüquq qaydalarına, ədalət meyarlarına ciddi şəkildə riayət olunmasının, habelə sürətli iqtisadi tərəqqinin başlıca təminatlarından biridir.

Müasir dövrdə hər bir dövlətin gücü və qüdrəti "insan meyarı", yəni həyat keyfiyyətinin, şəxsiyyətin dövlət tərəfindən təmin olunan vəziyyətinin önə çəkilməsi ilə ölçülür. Şəxsiyyət azadlığı, insanların maddi rifah səviyyəsi, hər bir fərdin özünü cəmiyyətdə təsdiqetmə imkanı - "insan meyarının" bu və digər elementləri onu dövlətin inkişafının qiymətləndirilməsinin əsas meyarlarına çevirir. Bu mənada əminliklə demək olar ki, tarixin heç bir mərhələsində Azərbaycan cəmiyyəti son illərdəki kimi sürətli dəyişikliklərə uğramayıb, insan amili belə aktual, öncül məsələ kimi gündəmə çıxmayıb.

Dünya təcrübəsi göstərir ki, təbii sərvətlərin zənginliyi bəzi hallarda dövlətlərə və xalqlara rifah, səadət və inkişaf deyil, əksinə, böyük faciələr, ağlasığmaz problemlər gətirir. Neftdən səmərəsiz istifadə nəticəsində bir çox ölkəni acınacaqlı vəziyyətə salmış "Holland sindromu" kimi arzuolunmaz presedent mövcuddur. Azərbaycan isə təbii sərvətlərindən maksimum səmərəli və məqsədyönlü şəkildə istifadə etməklə, ilk növbədə, çoxşaxəli iqtisadi inkişafa nail olub, eləcə də əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində uğurlu nəticələr qazanıb. "Neft bizim üçün məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün vasitədir", - deyən dövlət başçısı İlham Əliyevin yeritdiyi məqsədyönlü strategiya nəticəsində 2021-ci ilin dövlət büdcəsində qeyri-neft sektoru 54 faizə yüksələcək. Pandemiya şəraitində qeyri-neft sektorundakı artım hökumətin fəaliyyətinin yüksək səmərəlilik əmsalı kimi xüsusi vurğulanmalıdır.

## Pandemiyaya qarşı çevik strategiya

Dünyanın koronavirus pandemiyasından (COVID-19) ciddi ziyan çəkdiyi, hətta inkişaf etmiş ölkələrin belə bu qlobal bəladan sarsıldığı bir zamanda Azərbaycanın pandemiyaya qarşı mübarizədə mütərəqqi model ortaya qoyması bir daha təsdiqləyir ki, ölkəyə rəhbərlik edən liderin müdrik qərarları bəzən bütöv bir xalqı faciədən hifz edir.

Son 9 ayda mühüm dövlət proqramlarının işlənib hazırlanması və qəbulu sosial təcrid tədbirləri nəticəsində iş yerlərini müvəqqəti itirmiş vətəndaşlara və sahibkarlıq subyektlərinə ciddi dəstək olub. Prezident cənab İlham Əliyevin 19 mart 2020-ci il tarixli Sərəncamı əsasında pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədi ilə dəyəri 2,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketinin qəbulu cəmiyyətdə ciddi dəstək və razılıqla qarşılanıb. Pandemiya dövründə mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri üçün ciddi güzəştlərin nəzərdə tutulması iş adamlarına dəyən zərərin kompensasiya edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən dəstəklənməsi, 300 minə yaxın mikro sahibkarın, ümumilikdə, 600 minə yaxın insanın dövlətdən maddi yardım alması ölkə rəhbərinin daim xalqın yanında olduğunun əyani təsdiqidir.

Pandemiya dövründə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosial dəstək aksiyası da aztəminatlı vətəndaşların problemlərinin həlli baxımından əhəmiyyətli olub. "Biz birlikdə güclüyük" şüarı ilə həyata keçirilən aksiya çərçivəsində respublika üzrə 100 minədək aztəminatlı ailəyə ərzaq yardımlarının paylanılması təmin edilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına qoşulan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası pandemiya ilə bağlı həyata keçirdiyi sosial tədbirlərdə yaxından iştirak edir. Belə ki, sosial dəstək tədbirləri çərçivəsində Azərbaycan həmkarlar ittifaqları təşkilatları qısa müddət ərzində 5.372.588 manat vəsait xərcləyiblər.

Azərbaycan Prezidenti İlham Əliyevin Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışı ölkəmizin ilk gündən pandemiyaya qarşı sistemli, ardıcıl və preventiv tədbirlər həyata keçirdiyini bir daha nümayiş etdirdi.

İl ərzində ölkədə pandemiya ilə bağlı laboratoriyaların sayı 8 dəfə artırılıb, 10-dan çox yeni müasir xəstəxana, o cümlədən modul tipli xəstəxana tikilib, COVID xəstələri üçün 10 mindən çox çarpayı yeri yaradılıb. Həkim çatışmazlığı probleminin həlli üçün 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən mütəxəssislər dəvət edilib.

Yeni karantin tədbirləri ilə bağlı işsiz vətəndaşlara və biznes subyektlərinə maliyyə dəstəyinin davam etdirilməsi nəzərdə tutulub və bu baxımdan respublikamız dünyanın lider dövlətləri sırasında yer alıb. Azərbaycanın 2021-ci ilin əvvəlindən etibarən könüllülük və dövlət hesabına vaksinləşmə prosesini başlamaq niyyəti vətəndaşların sağlamlığının dövlətimiz üçün prioritet məsələ olduğunu bir daha təsdiqləyir. Bu məqsədlə aparıcı vaksin istehsalçıları olan "Sputnik V", "AstraZeneca", "Sinofarm", "Sinovac", "Moderna", "Pfizer BioNTech" kimi firmalarla danışıqlar aparılıb, Azərbaycan ölkələrin vaksinlərə ədalətli istifadə imkanını təmin etmək üzrə Ümumdünya Səhiyyə Təşkilatının iştirakı ilə beynəlxalq "COVAX" təşəbbüsünə ilk qoşulan ölkələrdən olub. Ölkəmizin vaksinləmə strategiyası çoxplatformalılığı nəzərdə tutmaqla, vaksinlərin elmi cəhətdən əsaslandırılmış təhlükəsizliyini prioritet məsələ kimi diqqətə çəkir.

Dekabrın 3-4-də Azərbaycan Prezidentinin təşəbbüsü, 70-dən çox dövlət və hökumət başçısının iştirakı ilə BMT Baş Assambleyasının koronavirus pandemiyasına həsr olunmuş 31-ci xüsusi sessiyasının keçirilməsi ölkəmizin bu bəşəri bəlaya qarşı səylərin birləşdirilməsində maraqlı olduğunu, habelə pandemiyaya qarşı qlobal mübarizə işinə sanballı töhfələr verdiyini bir daha təsdiqlədi.

## Uğur salnaməsi

Azərbaycan 2020-ci ili həm də böyük tarixi Zəfərlə başa vurur. 44 günlük Vətən müharibəsində qazandığımız layiqli qələbə bu gün hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, hər kəsdə qürur və fəxarət hissi doğurur.

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin də haqlı olaraq qeyd etdiyi kimi, müharibənin başlanmasının məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Birləşmiş Millətlət Təşkilatının hələ 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətini uzun illər ərzində davam etdirməyə çalışıb. Beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan, işğalçılıq niyyətindən əl çəkməyən bədxah qonşumuz uzun illər ərzində cəbhə xəttində vəziyyəti süni yolla gərginləşdirməyə, təxribatlar törətməyə və bu yolla mövcud "status-kvo"nu qoruyub saxlamağa çalışıb.

Atəşkəslə bağlı hələ 12 may 1994-cü il tarixdə imzalanmış Bişkək protokolundan sonra aparılan danışıqlar prosesinin məhz Ermənistanın qeyri-konstruktiv mövqeyi, habelə münaqişə ilə bağlı nizamlama planlarına etinasız yanaşması səbəbindən nəticə verməməsi bu gün beynəlxalq ictimaiyyətə yaxşı məlumdur. Qarşı tərəfin BMT-nin nizamlama ilə bağlı 4 məlum qətnaməsinə əməl etməməsi, beynəlxalq hüququn sərhədlərin toxunulmazlığı prinsipini uzun illərdir ki, pozması Azərbaycan tərəfindən haqlı olaraq bütün dünyaya bəyan edilir. Bununla belə, 30 ilə yaxın müddətdə Ermənistanda hakimiyyətdə olan siyasi qüvvələr ölkədaxili gərginliyi azaltmaq, ictimaiyyətin diqqətini ciddi sosial-iqtisadi və siyasi problemlərdən yayındırmaq, vaxt qazanmaq məqsədilə Ermənistan-Azərbaycan münaqişəsindən siyasi alət kimi yararlanmağa çalışıblar.

Ərazisi işğala məruz qalmış Azərbaycanın 30 ilə yaxın müddətdə diplomatik təmkin nümayiş etdirməsi, beynəlxalq təşkilatlar və aparıcı dövlətlərin münaqişəni danışıqlar yolu ilə tənzimləmək çağırışlarına həssaslıqla yanaşması, lakin bunun müqabilində işğalçı Ermənistana ciddi beynəlxalq təzyiqin göstərilməməsi son illərdə vəziyyəti daha da gərginləşdirmişdi. BMT ilə yanaşı, Avropa Şurası, Avropa İttifaqı, NATO, İslam Konfransı Təşkilatı və digər mötəbər beynəlxalq təşkilatların münaqişə ilə bağlı qətnamə və bəyanatlarına məhəl qoymayan Yerevanın aşkar şəkildə ərazi ilhaqı siyasəti yürütməsi, Dağlıq Qarabağa dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusunun verilməsi təklifi ilə razılaşmaması danışıqlar prosesini "dalana dirəmişdi". Prezident İlham Əliyevin bəyan etdiyi kimi, "Əgər beynəlxalq ictimaiyyət qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirsə, Azərbaycan bunu özü edəcək".

Ermənistan rəhbərliyinin son 2 ildə danışıqlardan faktiki olaraq imtina edərək Azərbaycana qarşı qəbuledilməz və əsassız şərtlər irəli sürməsi, terrorçu qruplaşmaları, muzdlu döyüşçüləri işğal etdiyi ərazilərimizdə yerləşdirməsi, cəbhə bölgəsində və qoşunların təmas xəttində açıq təxribatlar törətməsi hərbi əməliyyatların bərpası ehtimalını zamanla daha da artırırdı. Bu azmış kimi, son aylarda Şuşa şəhərində qondarma Dağlıq Qarabağ rejimimin "rəhbəri"nin "andiçmə mərasimi"nin təşkili, "Dağlıq Qarabağ parlamenti"nin Xankəndidən Şuşaya köçürülməsi barədə qərarın qəbulu düşmənin növbəti təxribatları, Azərbaycanı yeni müharibəyə təhrik etmək cəhdləri idi.

44 günlük müharibədə 5 min kvadratmetrədək ərazisini, 5 rayonunu, 2 şəhər tipli qəsəbəsini, 300-dək kəndini işğaldan azad edən Azərbaycan Ermənistanı hərbi kapitulyasiya barədə sənədi imzalamağa məcbur etdi. Beləliklə, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ermənistanın işğalçılıq siyasəti üzündən 30 il müddətində həllini tapmayan münaqişənin qısa müddətdə hərbi-siyasi həllinə nail olaraq beynəlxalq hüquq normalarının və ədalətin bərpasını təmin edib. Azərbaycan döyüş meydanında parlaq qələbə qazanmaqla, siyasi meydanda da istəyinə nail olub. Üçtərəfli 10 noyabr sazişinin imzalanması ilə faktiki olaraq Ermənistan-Azərbaycan münaqişəsi artıq tarixə çevrilib.

10 noyabr sazişinə əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğaldan dinc yolla azad edilməsi məhz Azərbaycanın şanlı hərbi qələbəsi nəticəsində mümkün olub. Ermənistan döyüş meydanında məğlub olmasaydı, öz xoşu ilə torpaqlarımızdan çıxmayacaqdı. Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan döyüş meydanında Ermənistan ordusunu sarsıdaraq, hərbi texnikasının 80 faizini məhv edərək onun saxta "yenilməzlik mifi"ni darmadağın edib.

## Saxta mifologiyanın süqutu

Azərbaycanın hərbi-siyasi qələbəsi nəticəsində imzalanmış məlum üçtərəfli Bəyanat əsasında dekabrın 1-də Laçın rayonunun işğaldan azad edilməsi təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil, eyni zamanda Ermənistanın son 30 ildə təcavüzkar siyasətini reallaşdırmaq üçün sərf etdiyi böyük maliyyə vəsaitinin, iqtisadi, siyasi və diplomatik cəhdlərinin tam fiasko ilə üzləşməsi deməkdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin araşdırmalarına görə, 1995-2020-ci illərdə Ermənistanın hərbi xərcləri 7,9 milyard dollar təşkil edib, üstəlik formalaşdırdığı marionet və qondarma rejimin xərcləri də təcavüzkar dövlətin üzərinə düşüb. Halbuki qeyd olunan müddətdə Ermənistanın özünün iqtisadiyyatına qoyulmuş birbaşa investisiyaların həcmi təxminən 8 milyard dollar civarında olub. Bu, 2020-ci il səviyyəsi ilə Ermənistanın 2,5 illik dövlət büdcəsinə bərabərdir.

İşğalçı siyasət yürüdən Ermənistan faktiki olaraq son 25 ildə Azərbaycanın liderliyi ilə regionda həyata keçirilən bütün strateji əhəmiyyətli neft-qaz, nəqliyyat-kommunikasiya, logistika layihələrindən məhrum olmaqla özünütəcrid vəziyyətinə düşüb. Bakı-Tblisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TAP, TANAP və s. kimi layihələrin Ermənistan ərazisindən keçməməsi bu ölkənin hər il yüz milyonlarla ölçülən gəlirdən məhrum olması deməkdir. Prezident cənab İlham Əliyev bununla bağlı haqlı olaraq deyib: *"Ermənistan, haradasan? Bakı-Tbilisi-Ceyhan yan keçdi. Bakı-Tbilisi-Ərzurum da həmçinin. TANAP da həmçinin. İndi biz qazımızı Avropaya çatdırırıq. Sən, Ermənistan, pul qazana bilərdin. Kəmərin bir hissəsi sənin əlində ola bilərdi. Sən tranzit haqqı alacaqdın. Sən özünü nədən məhrum etdin?! Dəyərdimi buna? Bu işğalçılıq, bu düşmənçilik, qonşuya qarşı bu nifrət hissləri, onları, bax, bu günə saldı".*

Militarist siyasət yürüdən, yaxın və uzaq perspektivə hesablanan bütün planlarını işğalçılıq marağı üzərində kökləyən, hər 4 nəfərindən biri yoxsulluq içində yaşayan Ermənistan ciddi sosial-iqtisadi, infrastruktur layihələrinin icrasından məhrum olub, strateji əhəmiyyətli müəssisələrini Rusiya və digər ölkələrə satmağa məcbur qalıb. Hazırda Ermənistanın dəmir yolları 100 faiz Rusiyaya məxsusdur. İşğal faktına son qoyulması ilə Ermənistanın Dağlıq Qarabağ və ətraf rayonlarda həyata keçirdiyi qeyri-qanuni məskunlaşma siyasəti, habelə Livan və Suriya əsilli ermənilərin Azərbaycan ərazilərində yerləşdirilməsi üçün sərf etdiyi milyonlarla dollar vəsait puç olub.

Ermənistan beynəlxalq konvensiyaları pozaraq Azərbaycan ərazisindəki faydalı qazıntıların - o cümlədən Zəngilan rayonundakı Vejnəli, Kəlbəcər rayonundakı Söyüdlü (Zod) qızıl yataqlarının qanunsuz mənimsənilməsini həyata keçirərək külli miqdarda valyuta əldə etsə də, hazırda bu imkandan məhrum olub. Ermənistanın cəmi ixracının dəyəri 2019-cu ildə 2,6 milyard ABŞ dolları olub, bunun 16 faizini və yaxud 415 milyon dollarını qızıl və qiymətli daşlar, qiymətli metallar və onlardan hazırlanan məmulatların ixracı təşkil edib. Təcavüzkar ölkənin ixracında xüsusilə qızıl strateji məhsullardan biri kimi daim ön sırada yer alıb.

İşğal altındakı Azərbaycan ərazilərindəki təbii yaylaqlardan, otlaqlardan, örüş sahələrindən qeyri-qanuni şəkildə istifadə edərək maldarlıqla məşğul olan erməni fermerlər artıq əllərindəki çoxlu sayda iri və kiçik buynuzlu mal-qaranı satmağa məhkum olublar.

Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının münbit torpaqlarından taxılçılıq məqsədilə qeyri-qanuni şəkildə istifadə etmiş erməni fermerlərin hesabına buğda və arpa məhsullarına olan ehtiyacının 25 faizə qədərini təmin edən, ildə təxminən 190 min tonadək taxıl yığan Ermənistan bu imkandan da məhrum edilib. Ermənistanın eks-kənd təsərrüfatı naziri Artur Xaçatryan məğlubiyyət nəticəsində ölkəsinin ciddi ərzaq böhranı ilə üzləşəcəyini, idxaldan asılılığının güclənəcəyini, drama təzyiqlərin daha da artacağını bildirib.

44 günlük müharibə nəticəsində ordusu demək olar ki, məhv edilən Ermənistan həm də 1 milyard dollardan çox maliyyə itkisinə məruz qalıb, gündəlik müharibə xərcləri təxminən 30-35 milyon ABŞ dolları təşkil edib. Ermənistanın xarici borclarının həcmi bu il 8 mlrd. dollara yüksəlib və ÜDM-in 70 faizinə yaxınlaşıb.

Ermənistan 30 ildən çox müddətdə işğalçı siyasət yürüdərək özünü regional layihələrdən təcrid etsə də, heç bir məqsədinə nail ola bilməyib. Bu gün faktiki olaraq Ermənistan regionda müstəqilliyini tamamilə itirib, müstəmləkə altında olan dövlətə çevrilib. Prezident İlham Əliyev qeyd etdiyi kimi: *"Bu idimi erməni xalqının arzuları? Bu idimi onların gözləntiləri? Onlar nə üçün müstəqil ölkə ola bilmədilər? İşğala görə. İşğaldan nə qazandılar? Heç nə. Biabır oldular siyasi müstəvidə, bütün beynəlxalq təşkilatlarda biz fəal iş apararaq onları biabır etdik və bizə lazım olan, beynəlxalq hüququ tələb edən qətnamələr, qərarlar qəbul olundu".*

Son 30 il ərzində faktiki olaraq müstəqil dövlət ola bilməyən Ermənistan yalnız işğalçılıq siyasətindən əl çəkib konstruktiv mövqe nümayiş etdirməklə, zamanla regional müstəvidə üzləşdiyi təcrid vəziyyətindən qismən çıxa, müəyyən layihələrdə iştirak imkanı qazana bilər.

## Böyük qayıdış və reabilitasiya proqramı

Xüsusi qeyd etmək istərdik ki, 2021-ci ildə ərazilərimizin bərpası və yenidən qurulması tədbirləri üçün 2,2 milyard manat vəsaitin nəzərdə tutulması gələn ilin "Böyük qayıdış" planının reallaşdırılması baxımından mühüm mərhələ olacağını, işğalçılardan təmizlənmiş rayon və şəhərlərin yol-nəqliyyat infrastrukturunun bərpası, elektrik enerjisi, su, rabitə, mavi yanacaq və s. təminatı istiqamətində mühüm layihələrin reallaşdırılacağını deməyə ciddi əsaslar yaradır. Ayrılmış vəsaitin müəyyən qismi, eyni zamanda qeyd olunan ərazilərdə müasir inzibati infrastrukturun yaradılmasına, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulmasına yönəldiləcək.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara artıq ənənə halını almış səfərləri həm də erməni vandalizmi nəticəsində tamamilə dağıdılmış, yerləyeksan edilmiş şəhər, rayon və kəndlərin bərpası və yenidən qurulması layihələri ilə yerində qərar qəbul etmək məqsədi daşıyır.

Dövlət başçısının tapşırığı əsasında hazırlanan baş planlar işğaldan azad edilmiş yaşayış məskənlərinin - şəhər və rayonların, qəsəbələrin müasirliklə tarixiliyin sintezinə əsaslanan şəhərsalma-arxitektura elementləri əsasında bərpasına və yenidən qurulmasına imkan yaradır.

İşğaldan azad edilmiş bəzi ərazilərin qısa müddətdə elektrik enerjisi ilə təchiz edilməsi, eyni zamanda "Azərenerji" və "Azərişıq" ASC-yə bölgənin enerji infrastrukturunun bərpası istiqamətində verilən tapşırıqlar qlobal böhran şəraitində ölkəmizin güclü iqtisadi-maliyyə potensialının göstəricisidir. İşğaldan azad edilmiş ərazilərin bol sulu çayları, eyni zamanda Xudafərin, Sərsəng, Suqovuşan və digər su anbarları təkcə su elektrik stansiyaların yaradılmasına, yeni enerji güclərinin alınmasına deyil, eyni zamanda suvarma infrastrukturunun bərpasına imkan yaradır.

İşğaldan azad edilmiş ərazilərdə həm respublika, həm də yerli əhəmiyyətli 2700 kilometrədək (km) yolların bərpasının nəzərdə tutulması, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı əsasında uzunluğu 101,5 km təşkil edən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun çəkilişinə başlanılması regionun gələcək iqtisadi inkişafı baxımından vacib əhəmiyyət kəsb edir. Bundan əlavə, bölgənin tamamilə sıradan çıxmış dəmir yolu xətləri şəbəkəsinin bərpa planına əsasən, yaxın perspektivdə uzunluğu 104 km olan Yevlax-Xankəndi dəmir yolu xəttinin Bərdə-Ağdam hissəsinin, habelə 43 km olan Horadiz-Ordubad, 51 km olan Yevlax-Xankəndi, 39,1 km olan Mincivan-Qafan, 6,3 km olan Qazax-Barxudarlı dəmir yolu xətlərinin bərpasının nəzərdə tutulması təkcə iqtisadi deyil, siyasi baxımdan da əhəmiyyətlidir.

Ermənistan ərazisindən keçərək Azərbaycanla Naxçıvanı birləşdirəcək yeni avtomobil və dəmir yollarının çəkilişi daha sərfəli, alternativ nəqliyyat-kommunikasiya marşrutu yaratmaqla, təkcə respublikamızın deyil, ümumən region dövlətlərinin (Türkiyə, Rusiya, Ermənistan, habelə Orta Asiya və Şərq ölkələri) geoiqtisadi maraqlarına uyğundur. Yeni nəqliyyat-kommunikasiya xətləri nəticəsində Azərbaycan Naxçıvan MR-ə və Türkiyənin şərq hissəsinə daha əlverişli çıxış əldə edəcək. Bu yollar eyni zamanda Rusiya Federasiyasının Türkiyəyə Gürcüstandan kənar yeni avtomobil və dəmir yolu marşrutu əldə etməsinə imkan yaradacaq.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində reallaşdırılacaq infrastruktur və biznes layihələrində təkcə yerli deyil, xarici şirkətlərin də iştirakının nəzərdə tutulması bölgədə iqtisadi fəallığın artmasına, respublikamızın investisiya cəlbediciliyinin yüksəlməsinə yeni perspektivlər açacaq.

## Vətən müharibəsi iştirakçılarına qayğı örnəyi

Azərbaycan dövlətinin son 25 ildə apardığı sosial siyasətin prioritet istiqamətlərindən birini ölkəmizin Silahlı Qüvvələrinin şəxsi heyətinin, eləcə də şəhid ailələri və Qarabağ müharibəsi iştirakçılarının sosial müdafiəsinin, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların cəmiyyətdə layiqli statusunun təmini məsələləri təşkil edib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ötən 17 ildə ölkədə reallaşdırılan hərbi-vətənpərvərlik təbliğatı və sosial müdafiə tədbirləri cəmiyyətdə orduya və hərbi qulluqçulara yüksək etimad və rəğbətin təmin olunmasına, hərbçilərin Vətən və xalq qarşısındakı əvəzsiz xidmətlərinin adekvat dəyərləndirilməsinə hesablanıb.

Ötən illərdə həm Böyük Vətən müharibəsi, həm Əfqanıstan, həm də Qarabağ müharibəsi veteranlarının, şəhid ailələrinin mənzil, torpaq sahəsi və avtomobillərlə təminatı, əlillərin yerli və xarici sanatoriyalara göndərilməsi, onlar üçün reabilitasiya mərkəzlərinin açılması, pensiya və müavinətlərinin davamlı şəkildə artırılması, onlara vergi güzəştlərinin tətbiqi və s. xüsusi qeyd olunmalıdır.

Heydər Əliyev Fondunun, şəxsən Fondun prezidenti Mehriban xanım Əliyevanın xüsusi diqqət və qayğısı ilə ötən 15 ildə veteran hərbçi və şəhid ailələri üçün Bakının rayonlarında və regionlarda çoxsaylı fərdi ev və yaşayış binaları inşa olunub, onlara müxtəlif sosial yardımlar edilib. Prezident İlham Əliyev xalqa çoxsaylı müraciətləri və xarici KİV-ə müsahibələrində Azərbaycan Ordusunun yüksək döyüş ruhunu, peşəkarlıq səviyyəsini, hərbçilərimizin yüksək şücaət və rəşadətini xüsusi vurğulayıb, şəhidlərin xatirəsini ehtiramla yad edərək onların qəhrəmanlıqlarının heç zaman unudulmayacağını bəyan edib.

Dövlət başçısının dekabrın 7-dən etibarən imzaladığı 9 sərəncam əsasında Silahlı Qüvvələrin hərbi qulluqçularının müxtəlif orden və medallarla təltif edilmələri Vətən müharibəsində xüsusi igidlik və cəsarət, qəhrəmanlıq göstərmiş hərbçilərimizin və şəhidlərimizin xidmətlərinin dövlət səviyyəsində yüksək dəyərləndirilməsidir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli "Azərbaycan Ordusuna Yardım Fondunun yaradılması və "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanının ləğv edilməsi barədə" Fərmanı əsasında yaradılmış Fondun məqsədi Azərbaycan Ordusunun müasir tələblərə uyğun inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirməklə yanaşı, hərbi qulluqçuların sosial müdafiəsini daha da gücləndirməkdən ibarətdir.

Dövlət başçısının 8 dekabr 2020-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Fərmanı müharibə iştirakçılarına və şəhid ailələrinə yardım və ictimai dəstək mexanizmlərinin formalaşdırılmasına, xeyriyyəçilik, humanizm və filantropiya ənənələrinin ictimai şüura aşılanmasına xidmət edir. Belə bir Fondun yaradılması ilə müharibə iştirakçılarının, şəhid ailələrinin üzləşdiyi problemlərin həllində dövlət qurumlarının, sıravi vətəndaşların, sahibkarların, ictimai fəal şəxslərin, vətəndaş cəmiyyəti təsisatlarının və s. iştirakı təmin edilir, yardımların ünvanlılığı və şəffaflığı təmin olunur.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) COVID-19 pandemiyası və erməni silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində zərər görmüşlərin, cəbhədə şəhid olan əsgər və zabitlərin ailələrinə, qazilərə müvafiq yardımlar göstərir. AHİK-in İcraiyyə Komitəsinin 14 dekabr 2020-ci il tarixli iclasında "YAŞAT" Fonduna 300.000 (üç yüz min) manat vəsait köçürülməsi barədə qərar qəbul edilib və vəsait Fondun hesabına köçürülüb.

*Qeyd olunanlar bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasətində yalnız bir amil prioritetdir - Azərbaycan xalqının və dövlətinin milli maraqları. Vətən müharibəsinin gedişi və yekunları cənab İlham Əliyevin necə vətənpərvər, qətiyyətli və prinsipial Prezident olduğunu bir daha təsdiqlədi. Dövlət başçısı heç bir beynəlxalq gücə boyun əymədən, xarici təzyiqləri dəf edərək xalqımızı milli hədəflərə doğru apardı və tarixi Zəfəri təmin etdi!*

*Bu gün hər bir azərbaycanlı ürəkdən inanır ki, tarixi qələbədən sonra respublikamız daha sürətlə inkişaf edəcək və qısa zamanda cənab İlham Əliyevin rəhbərliyi ilə dünyanın inkişaf etmiş ölkələri sırasına qoşulacaqdır.*

**Səttar MÖHBALIYEV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***

# Müqəddəs vəsiyyətin yerinə yetirilməsi

**Yeddi dolamanı qalxdılar. Yuxarı qalxdıqca Qarabağın əsrarəngiz təbiəti daha gözəl görünürdü. Yolun sağındakı Tar fabrikini keçdilər. Bu fabrikdə Şuşanın ən mahir ustaları simli alətlər hazırlayırdı, xüsusilə də tar. Çox qiymətsiz idi bu tarlar. Hər adama nəsib olmurdu almaq. İndi də Azərbaycanın bir çox görkəmli tarzənlərində Şuşa ustalarının bu fabrikdə hazırladığı tarlar var. Əvvəlcə bura kiçik bir sex idi. Sonra Ulu Öndər Heydər Əliyevin göstərişi ilə fabrikə çevrildi.**



Bu da möhtəşəm Şuşa qalası. Sultan bəy Sultanovun qulağını kəsdiyi Andranikə can verməyən Şuşa qalası.

Bu da qalanın yamacındakı Ərim gəldi. Xanımlar yığışardılar bura - Arana getmiş, döyüşlərə getmiş ərlərini gözləyərdilər. Dolamaları qalxıb at belində kimi görsələr, hamı çığırışardı ki, ərim gəldi. Burada sevinənlər də olmuşdu, göz yaşı axıdanlar da.

Və nəhayət, Ərim gəldini keçib Gəncə qapısından varid oldular Şuşaya.

Gənc İlham Əliyev ilk dəfəydi Şuşaya gəlirdi...

Gün gələcəkdi... bu şəhərə Azərbaycan xalqının xilaskarı kimi, bir sərkərdə kimi girəcəkdi. O günə hələ vardı...

...Şuşanın tarixini çox gözəl bilirdi. Həm kitablardan oxumuşdu, həm də atası Heydər Əliyevdən eşitmişdi.

Çox gözəl bilirdi ki, 1870-ci ildə bu şəhərin əsasını Çingiz xanın nəslindən olan Pənah xan qoyub. Bu şəhər də, bu qala da 4 il müddətinə tikilib və Qarabağın paytaxtı elan olunub. Və təkcə Qarabağınmı? Xeyr, bütün Azərbaycanın. Bu şəhər azərbaycanlılar üçün Kəbə kimi müqəddəsdir. Və bu şəhərin torpağı İmam Hüseynin torpağı kimi tütyədir. Və bu şəhər bir əsrboyu ermənilərin sinəsinə sancılmış bir xəncərdir.

Bu da Gəncə qapısı, bu da Şuşa şəhəri.

Uzun illər ermənilərin hücumuna məruz qalmış, yandırılmış və Azərbaycan hökumətinin laqeyd yanaşdığı, hətta bir ara Xankəndiyə tabe etdirilmiş bu şəhər Pənah xandan sonra ikinci ömrünü Heydər Əliyevin hakimiyyətə gəlişiylə yenidən yaşamağa başlayaraq Qarabağın paytaxtına çevrilmişdi.

Ulu Öndər Heydər Əliyev bu şəhərdə təkcə sanatoriyalar, istirahət mərkəzləri tikdirməmişdi, təkcə abadlıq işləri aparmamışdı, həm də elm-təhsil müəssisələri açdırmışdı. Əslində Heydər Əliyev bu şəhəri yenidən Qarabağın qeyri-rəsmi paytaxtı etmişdi.

Və bu şəhəri Ümumittifaq istirahət və turizm məkanına çevriləcəkdi...

...Gün gələcəkdi Prezident İlham Əliyev bu şəhəri təkcə azərbaycanlıların yox, eləcə də türk dünyasının paytaxtı elan edəcəkdi...

...Əvvəlcə Heydər Əliyev bu şəhərin abidələrini bərpa edəcəkdi, məscidlərini bərpa edəcəkdi, muzeyə çevirəcəkdi. Bu şəhərdən çıxmış böyük korifeylərin abidələrini qoyduracaqdı, ev-muzeylərini yaradacaqdı: Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün...

... Və gün gələcəkdi erməni faşizmi bu abidələri məhv edəcəkdi, muzeyləri dağıdacaqdı. Və gün gələcəkdi İlham Əliyev həmin abidələri yenidən ucaldacaqdı, ev-muzeylərini bərpa edəcəkdi. Özü də təkcə onların yox, Kərim bəy Mehmandarovun, Əhməd Ağaoğlunun, Mirmöhsün Nəvvabın, Məhəmməd ağa Müctehidzadənin (Ağdam məscidində sonuncu azan oxuyan Hafiz Sədrzadənin atası) və sair və ilaxır. Hələ o günə vardı...

...Bütün şəhər Heydər Əliyevin pişvazına çıxmışdı, əllərində gül-çiçək, gözlərində sevinc. Atası ilə səfərə çıxan İlham Əliyev də heyranlıqla camaatın bu sevincini, bu sevgisini izləyirdi.

Bu da Vaqifin məqbərəsi. Heydər Əliyev bir qış günündə, qarlı-şaxtalı bir havada bu məqbərənin açılışını etmişdi. Və bu məqbərəni tikdirmək üçün Moskvada, xüsusilə bu məqbərənin tikilməsini istəməyən yüksək çinli ermənilərlə çox üz-göz olmuşdu. Amma həmişə qalib olduğu kimi, yenə də qalib olmuşdu və bu möhtəşəm məqbərəni ucaltdırmışdı. Bu məqbərə də Dağlıq Qarabağda yaşayan ermənilərin ürəyinə saplanmış bir xəncər idi.

Açılışa da Azərbaycanın görkəmli şair, yazıçı, rəssam, qısası, ziyalılarını dəvət etmişdi. Və hər il keçiriləcək Vaqif poeziya günlərinin beləcə əsası qoyulmuşdu.

Azərbaycanın rəhbəri Heydər Əliyevin pencəyini tutmağı özlərinə şərəf bilən, əlini öpmək üçün növbəyə duran ermənilər xislətlərini nə qədər gizlətsələr də, 21 yaşlı İlham Əliyev bütün bunları çox gözəl görürdü. Heydər Əliyev öz oğluna, ata-bala söhbətləri zamanı ermənilərin mənfur simaları haqqında çox danışmışdı. Gələcək diplomat ermənilərin yüksək çinli vəzifəlilərinin Atasına necə yaltaqlandıqlarını hiss edirdi və bu ona ləzzət edirdi...

... Bu ləzzəti 38 il sonra yenidən yaşayacaqdı...

... Bu da Cıdır düzü. Təkcə şuşalıların, qarabağlıların yox, bütün azərbaycanlıların sevdiyi, ziyarət etdiyi bir məkan. Bu məkanda Pənah xan, İbrahim xan, Məmməd bəy Cavanşir Batmanqılınc çox at oynatmışdı...

... Gün gələcəkdi həmin Cıdır düzündə İlham Əliyev də at oynadacaqdı. Hələ o günə vardı...

...Və Heydər Əliyevin göstərişi ilə hər il burda Xarıbülbül festivalı keçiriləcəkdi. Özü də bu festivala təkcə Azərbaycanın yox, həm də SSRİ-də yazıb-yaradan şairlər, yazıçılar, sənət adamları dəvət olunacaqdı. Bu musiqi festivalı bir daha bütün dünyaya sübut edəcəkdi ki, Şuşa və Qarabağ Azərbaycandır!..

...Və gün gələcəkdi İlham Əliyev Vaqifin bu möhtəşəm abidəsini düşməndən xilas edib bərpa edəcəkdi, həm Vaqif poeziya günlərini, həm də Cıdır düzündəki Xarıbülbül festivalını yenidən keçirəcəkdi. Hələ o günə vardı. Və gün gələcəkdi İlham Əliyev bunu bütün dünyaya bəyan edəcəkdi!..

... Qəribə bir təsadüf. Ulu Öndər Heydər Əliyev Vaqifin məqbərəsini 59 yaşında tikdirmişdi, Prezident İlham Əliyev də 59 yaşında həm Şuşa şəhərini işğaldan azad edəcəkdi, həm də məqbərəni yenidən bərpa etdirəcəkdi. Nə qədər qəribə olsa da, nə qədər təsadüf olsa da, bu bir xoş təsadüfdü...

... Biz o günü 28 il gözlədik. Və o gün gəldi. Və o günü bizə Müzəffər Ali Baş Komandan İlham Əliyev yaşatdı.

Və o gün gəldi.

38 il bundan əvvəl bir gənc diplomat kimi getdiyi şəhərə azərbaycanlıların, eləcə də dünya türklərinin Məkkəsinə dünyanın qəbul elədiyi həm diplomatiyada bir lider kimi, həm də bir sərkərdə kimi, Pənah xan kimi daxil olacaq. Son 200 ildə Azərbaycanın itirdiyi torpaqları bərpa edərək Şah İsmayılın və Ulu Öndər Heydər Əliyevin davamçısı kimi daxil olacaq.

Şuşanı əvvəlkindən də gözəl tikəcək, bütün dünyaya tanıdacaq. Və Şuşanı təkcə müsəlmanların deyil, həm də bütün dünyanın ziyarət edə biləcəyi müqəddəs bir məkana çevirəcək.

Bu gün Qarabağı, arxalarında kimlərin durmasından asılı olmayaraq, Ermənistan ordusunun işğalından azad edən, Azərbaycanın sərhədlərini bərpa edən cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin 59 yaşı tamam olur. Bu təkcə Onun ad günü deyil, bütün azərbaycanlıların, eləcə də bütün türklərin ad günüdü. Və həm də Şuşanın 270 illiyinə Onun ən böyük hədiyyəsidir.

Cənab Prezident 50 illik yubileyini Ağcabədidə - Taxta körpüdə Laçın qaçqınları ilə keçirtdi. Yəni böyük təmtəraqla yox, hansısa bir qaçqın ailəsi ilə. Artıq qaçqınlıq da bitdi.

Mən inanıram ki, Prezident İlham Əliyev 60 illik yubileyini qaçqın olmayan şuşalılarla, qarabağlılara, eləcə də bütün azərbaycanlılarla birgə Şuşada keçirəcək! Və Cıdır düzündə xalqımızla bir yerdə qol-qola bir "Şərur yallısı" oynayacaq. Ermənilərə gözdağı vermək üçün yox, onsuz da ermənilərə gözdağını Qarabağı azad etməklə verib, onu sevən və həmişə onunla birlikdə olmaq istəyən Azərbaycan xalqı ilə bir yerdə. Nə cənab Prezident, nə də Azərbaycan xalqı kiməsə gözdağı vermək istəməyib.

*Möhtərəm Prezident, Ali Baş Komandan, cənab İlham Əliyev! Bu təkcə Sizin ad gününüz deyil, həm də Azərbaycan xalqının ad günüdür.*

*Sizi və Azərbaycan xalqının sevimlisi həyat yoldaşınız, Birinci vitse-prezident Mehriban xanımı və bütün ailənizi, bu ailəyə Azərbaycan xalqı da daxildir, ad gününüz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və daha böyük uğurlar arzulayıram.*

**Aqil ABBAS,**
***yazıçı,***
***Milli Məclisin deputatı***

# Dəmir yumruğun zərbəsi



**"Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur..."**

2020-ci ilin 10 noyabrında Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin xalqımıza müjdələdiyi bu zəfər xəbəri ilə ürəyimizdə 30 ildir yuva salan şaxtalı, buzlu həsrət dağı bir andaca əridi, yoxa çıxdı.

İlahi, nə xoş müjdəydi bu... Xəyalmıydı, röya, yoxsa əlçatmaz görünən arzularımızın səsi?

İnana bilmirdik, ruhumuza müqəddəs kəlam kimi təsir edən bu şad xəbəri dəfələrlə dinləyir, üzümüzü göylərə tutaraq şükürlər edir, sevincdən hönkür-hönkür ağlayırdıq...

Çox həsrətini çəkmişdik bu anların, bu günlərin... Düz 30 il idi ki qəlbimizdə Qarabağ ağırlıqda bir dağ vardı...

Ata-baba yurdlarına həsrət, doğmalarının məzarını ziyarət edə bilməyən, son mənzilə doğma ocağında köçmək nəsibi olmayan vətən qəriblərimiz çox idi...

İndi isə bütün bu ağrı-acılara, nisgilə, yurd qubarına son qoyulmuşdu... Cəmi bir neçə ay əvvələ qədər röyalarımızın bəzəyi, ümidlərimizin zirvəsi olan Qarabağ arzularımıza cənab Ali Baş Komandan İlham Əliyevin düşmənin başına endirdiyi dəmir yumruğunun zərbəsi ilə çatmışdıq...

## Böyük Qələbəyə addım-addım irəlilədik

Əslində, Ali Baş Komandan xalqımıza Böyük Qələbəyə az zaman qaldığını 2016-cı il Lələtəpə zəfəri zamanı bəyan etmişdi, "... Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaq".

Cənab Prezident hələ 2019-cu ildə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasında səsləndirdiyi "Qarabağ Azərbaycandır!" qələbə parolu ilə illərdir yurd-yuvasından didərgin düşərək vətən həsrəti yaşayan kəlbəcərlilərin, şuşalıların, laçınlıların, xocalıların, ağdamlıların və digər məcburi köçkün yurddaşlarımızın ümidlərinə qanad vermişdi. 10 milyonluq Azərbaycan xalqı, dünyada yaşayan bütün soydaşlarımız dövlət başçısına məxsus bu qələbə çağırışına qoşulmuş, fəaliyyət istiqamətimizin yalnız bir ünvanı olmuşdu: Qarabağ...

2020-ci ilin 27 sentyabrında isə Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı və birbaşa mülki əhalini hədəfə alması səbrimizin son həddi oldu. Ali Baş Komandanın vətən uğrunda "İrəli" əmri ilə on minlərlə gəncimiz öz ata-baba yurdlarının harayına hay verdi. İgidlərimiz silaha sarılaraq mənfur düşmənə həddini bildirməyə, murdar ayaqlarını torpaqlarımızdan vurub atmağa tələsdilər.

Elə ilk gündən ön cəbhədən qanad açan qələbə xəbərləri arxa cəbhədə milyonları sevindirdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında polad iradəli oğullarımız ay-ulduzlu bayrağımızı zirvələrdə dalğalandırmağa başladı. Qəhrəman əsgərlərimiz Vətənimizin hər qarışı uğrunda çarpışdılar, vuruşdular, nə yerə basdırılmış minalar, nə göydən yağdırılan bombalar, nə də düşmənin illərlə qurub bərkitdiyi istehkamlar onları durdurmağa qadir deyildi. İgidlərimiz bütün maneələri bir həmlədəcə əzib keçdilər, addım-addım təmizlədilər torpaqlarımızı mənfurlardan.

## Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı Ordumuz düşməni diz çökdürdü

Döyüş başlayandan qısa müddət sonra Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Suqovuşan, Hadrut qəsəbələri, Xocalının və Kəlbəcərin bir hissəsi, Murovdağ silsiləsi, Laçının cənub hissəsi, strateji yüksəkliklər düşməndən azad edildi, bu ərazilərimizdə Azərbaycanın üçrəngli müqəddəs bayrağı dalğalandırıldı.

Həmin ərəfədə Türkiyənin "A Haber" kanalına müsahibə verən Prezident İlham Əliyev vurğulamışdı ki, Şuşasız bizim işimiz yarımçıq qalar: "...Şuşanın azad edilməsi bizim hədəflərimiz arasındadır, nə zaman olacaq, bunu görərik".

Çox keçmədən isə qarşıya qoyulan müqəddəs hədəfə də çatıldı. Noyabrın 8-də şanlı Ordumuz Qarabağın büllur sarayı Şuşa şəhərini yağı tapdağından azad etdi. Və elə bu tarixi hadisə ilə də düşmənin beli qırıldı, təslim olmağa məcbur qaldı.

Ondan bir gün sonra, Bayraq Günündə üçrəngli bayrağımız daha 70 kəndimizdə qürurla dalğalandı. Beləliklə, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı Ordumuz düşmənə nə yerdə, nə də göydə aman verməyərək qarşısında diz çökdürdü, yalvarmağa, təslim olmağa məcbur etdi.

10 noyabr gecəsi Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev doğma xalqını böyük zəfər xəbəri ilə müjdələdi: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli Bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".

Bəli, nəhayət ki, Dağlıq Qarabağ münaqişəsinə son nöqtə qoyuldu. 30 illik münaqişə 44 gündə Azərbaycanın haqlı qələbəsi ilə bitdi. Prezidentin xalqa müraciəti bitər-bitməz isə əllərində ay-ulduzlu bayraqlar olan paytaxt sakinləri küçələrə çıxaraq şanlı qələbənin sevincini, qürurunu bölüşdülər. Bütün Azərbaycan bayram əhvali-ruhiyyəsinə qərq oldu. Minlərlə insan müqəddəs and yerimiz Şəhidlər xiyabanına axışaraq dualar oxudular, şəhidlərimizin qisasının alındığına, qanlarının yerdə qalmadığına görə bu qələbədə payı olan hər kəsə minnətdarlıq duydular.

## "Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi"

Müzəffər Ali Baş Komandan doğma Qarabağımıza qalib sərkərdə kimi qədəm qoydu. Ali Baş Komandan Füzuli yurduna qonaq oldu, cənnət Qarabağın mələyi Cəbrayıldan salamladı bizi, Ağdam məscidini ziyarət etdi, Kəbədən gətirdiyi müqəddəs Quranı hədiyyə verdi. Bir daha xoşbəxt insan kimi etiraf etdi ki, Allah ona istədiyi gücü verib və xalqla birlikdə 30 ilə yaxındır işğal altında olan tarixi torpaqlarımızı azad edib.

İlham Əliyev bu səfərlərində dağıdılıb viranə qalmış yurdlarımızı ürəkağrısı ilə seyr etdi, amma qətiyyətlə onu da bildirdi ki, tezliklə bütün bu yurdlar abadlaşdırılacaq, Qarabağa yeni həyat bəxş ediləcək və məcburi köçkünlərin hər biri öz doğma yurduna dönəcək.

"Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik".

Bu fikirləri tarixi qələbədən düz bir ay sonra, Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı parlaq qələbəyə həsr olunmuş möhtəşəm Zəfər paradında Ali Baş Komandan səsləndirdi. Vurğuladı ki, 44 gün davam edən müharibədə Azərbaycanın dəmir yumruğu işğalçının belini qırdı, ordumuz möhtəşəm qələbələr qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifə yazdı.

## İlham Əliyev informasiya savaşını da tam zəfərlə bitirdi

Xüsusilə vurğulamalıyıq ki, bütün dövrlərdə olduğu kimi, Vətən müharibəsi ərzində də, Ali Baş Komandan informasiya cəbhəsindəki mübarizəmizə öndərlik etdi. İlham Əliyev on illərdir xaricdə aparılan anti-Azərbaycan təbliğatını 44 gün ərzində darmadağın etdi. Dövlət başçısı müharibə dövründə dünyanın nüfuzlu televiziya kanallarına müsahibələrində münaqişənin tarixi, səbəbləri, hazırkı vəziyyəti, habelə Azərbaycanın mövqeyini əsaslandıran tarixi, hüquqi, siyasi, mənəvi və digər amilləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Verdiyi cavablarla bütün dünyaya Azərbaycan xalqının siyasi iradəsini, milli-mənəvi həmrəyliyini göstərən mesajlar çatdırdı.

Vurğulamalıyıq ki, İlham Əliyev sentyabrın 29-dan noyabrın 6-na kimi 30-a yaxın xarici KİV-ə müsahibə verdi. Bunun nəticəsində hətta Ermənistanın havadarları olan dövlətlərdə belə KİV-in saxta təbliğatı nəticəsiz qaldı və ictimaiyyət onların yalan informasiyalarını qəbul etmədi. Və İlham Əliyev 44 günlük müharibədə informasiya savaşını da tam zəfərlə bitirdi.

Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə min illərin o üzündə belə fəxarətlə xatırlanacaq şanlı səhifələr həkk etdi. Bu Qələbəni məhz Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, igid əsgərlərimizin qorxmazlığı, müqəddəs şəhidlərimizin canlarını Vətənə qurban vermələri hesabına qazandıq...

*İndi xoşbəxtliyini yaşadığımız bu günlərin şah memarı Prezident İlham Əliyev oldu, bizə qalibiyyət, qələbə sevinci bəxş etdi. Vətəni, xalqı qarşısında götürdüyü bütün öhdəlikləri yenə də layiqincə yerinə yetirdi, söz verdiyi kimi, Qarabağı azadlığa qovuşdurdu və yüz minlərlə məcburi köçkünün vətən həsrətinə birdəfəlik son qoydu...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qalibiyyət missiyası

## Qalib ordunun Müzəffər Ali Baş Komandanı İlham Əliyev 30 illik işğala 44 gün ərzində son qoyan lider kimi tariximizə möhürünü vurdu



*Əvvəli 1-ci səh.*

2003-cü ilin prezident seçkilərindən ötən 17 il müddətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ümummilli Liderin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi lider olduğunu təsdiqləyib, yüksək idarəçilik və liderlik keyfiyyətləri ilə ictimai inamı doğruldub. Dövlət başçısının idarəçilik fəaliyyətinin üstün cəhəti məhz bundan ibarətdir ki, o, mövcud gerçəklikləri obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə optimal qərarlar qəbul etməyi uğurla bacarır.

Statusundan, ictimai mövqeyindən asılı olmayaraq, hər bir insanın hansı ideyanın daşıyıcısı, nə əməl sahibi olduğunu müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. Bu mənada cənab İlham Əliyevin ötən 17 illik prezidentlik fəaliyyəti ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir.

*"Mən hər bir azərbaycanlının prezidenti olacağam"*, - deyən dövlət başçısı çoxşaxəli fəaliyyəti ilə bu nəcib niyyətini bütünlüklə doğruldub, sistemli və düzgün koordinasiya olunmuş fəaliyyəti ilə xalq qarşısında verdiyi vədlərə sadiqliyini sübut edib. Yüksək intellekti, işgüzarlığı, təvazökarlığı, savadı, səmimiliyi, mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifənin öhdəsindən inamla gəlib.

Praqmatizm, səmimilik, siyasi iradə və qətiyyətlilik, məqsədyönlülük, mütərəqqi islahatlara meyillilik, öz siyasətini reallaşdırarkən hər bir fərdin, qrupun, ümumilikdə, toplumun maraqlarını nəzərə almaq qabiliyyəti kimi mühüm keyfiyyətlər Prezident İlham Əliyevin qətiyyətli siyasi lider obrazını şərtləndirən mühüm məqamlar sırasında vurğulanmalıdır. Azərbaycan Prezidentinin ötən dövr ərzində vahid sistem halına saldığı milli inkişaf modeli həm də onun yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürü kimi diqqəti çəkir.

Əsl siyasətçi bəzən hətta mümkün görünməyəni reallaşdırmaq qabiliyyəti ilə seçilir. Vəd vermək asandır, lakin onu reallaşdırmamaq ən cəlbedici ideyaları da insanların gözündən salmaq, onları rüh düşkünlüyünə düçar etmək deməkdir. Bu mənada cənab İlham Əliyev həm də pafosdan, populizmdən uzaq, praqmatik və realist düşüncəli liderdir. Dövlət başçısının 2003-cü ilin prezident seçkiləri ərəfəsində verdiyi elə bir vəd yoxdur ki, ötən 17 ildə reallaşmamış qalsın. Əksinə, bu müddətdə həyata keçirilən islahatların - real miqyasına, əhəmiyyətinə görə ən azından onilliklər ərzində reallaşdırılması mümkündür.

Son aylara qədər obyektiv səbəblərdən həlli uzanan yeganə ümummilli xarakterli problem Ermənistan-Azərbaycan münaqişəsi və işğal faktının davam etməsi idisə, şükürlər olsun ki, son 3 ayda bu problem də tamamilə aradan qaldırıldı. 30 il müddətində davam edən münaqişəyə cəmi 44 gün ərzində son qoymağı bacaran, müzəffər Ordumuzun qazandığı strateji əhəmiyyətli hərbi qələbələrlə təcavüzkar Ermənistanı diz çökdürən, təslimçiliyə məhkum edən Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev ən yeni tariximizə Zəfər Sərkərdəsi kimi möhürünü vurdu.

Bu gün hər bir azərbaycanlı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbə ilə hədsiz qürur duyur, şükranlıq və fəxarət hissi keçirir. Aparılan uğurlu təbliğat və diplomatiyanın nəticəsi kimi, 30 ildən artıq davam edən münaqişənin tarixi, onu doğuran səbəblər, habelə Ermənistanın işğalçılıq siyasətinin real mahiyyəti hazırda dünya ictimaiyyətinə daha aydındır.

Dövlət başçısı cənab İlham Əliyev Vətən müharibəsi günlərində çoxsaylı xarici KİV-ə verdiyi müsahibələrində Azərbaycana qarşı əsassız və qərəzli ittihamları yüksək siyasi peşəkarlıqla cavablandırıb və Ermənistanın işğalçılıq siyasətinin ifşasına nail olub. Cənab İlham Əliyevin bu günlərdə MDB Dövlət Başçıları Şurasının videoformatda keçirilən iclasında vurğuladığı kimi, Azərbaycan diplomatik müstəvidə fəal iş apararaq münaqişənin tarixi, başlanma səbəbləri, habelə Ermənistanın işğalçılıq siyasəti haqda uzun illər aparılmış yalan, uydurma təbliğatın əsassızlığını sübuta yetirməyə, ölkəmizə münasibətdə formalaşdırılmış əsassız yanaşmaları aradan qaldırmağa nail olub.

Bu gün xüsusi qeyd etməyə ehtiyac yoxdur ki, məhz XX əsrin 80-ci illərinin sonundan etibarən keçmiş Ermənistan SSR rəhbərliyi SSRİ rəhbərliyinin açıq dəstəyilə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməyə başlayıb. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi barədə antikonstitusion qərarın qəbulu isə münaqişənin alovlanmasının əsas səbəblərindən biri olub. Təcavüzkar Ermənistan 1990-1993-cü illərdə ərazisindəki sovet və Rusiya qoşunlarının dəstəyi ilə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı və ətraf yeddi rayonu işğal etdi 1 milyondan çox insan qaçqın və məcburi köçkünə çevrildi.

BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərini dərhal və qeyd-şərtsiz azad etməsini nəzərdə tutan 4 qətnamə qəbul etsə də, işğalçı tərəf həmin qətnamələrə və beynəlxalq hüquqa aşkar etinasızlıq nümayiş etdirdi. 1992-ci ildə ATƏT çərçivəsində münaqişənin sülh yolu ilə tənzimlənməsi məqsədilə Minsk qrupu yaradılsa da, həmsədr dövlətlər işğalçıya uzun illər ərzində hansısa təzyiq və təsir mexanizmlərindən istifadə edə bilmədilər. Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə 28 il müddətində aparılan üzücü və gərgin danışıqlar prosesi problemi bir neçə dəfə real həll müstəvisinə yönəltsə də, Ermənistan rəhbərliyinin destruktiv və işğalçı mövqeyi üzündən sülhə gəlmək mümkün olmadı.

Münaqişənin həlli ilə bağlı Minsk qrupu həmsədrlərinin hazırladığı baza prinsipləri (Madrid prinsipləri) Azərbaycanın əvvəlcə 5, daha sonra 2 işğal olunmuş rayonunun mərhələlərlə azad edilməsini, məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasını, Dağlıq Qarabağa Azərbaycan daxilində yüksək muxtariyyət statusunun verilməsini, azərbaycanlı və erməni əhalinin beynəlxalq müşahidəçilərin təhlükəsizlik təminatı ilə dinc yanaşı yaşamalarını, iki ölkə arasında kommunikasiyaların bərpasını nəzərdə tutsa da, Nikol Paşinyan hakimiyyətinin 2018-ci ildən etibarən bütün səyləri danışıqların pozulmasına yönəlmişdi.

Həmsədrlərin qətiyyətsiz mövqe nümayiş etdirməsi, bəzi hallarda təcavüzkara açıq siyasi və hərbi dəstək verməleri fonunda danışıqlar prosesi son 2 ildə tamamilə mənasız xarakter almışdı. Ermənistanın avantürist baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi sərsəm bəyanatı, Dağlıq Qarabağdakı qeyri-qanuni rejimi münaqişə tərəfi kimi qəbul etdirməyə çalışması, danışıqların 20 ildən artıq müddətdə formalaşmış baza prinsiplərini rədd etməsi Azərbaycanı münaqişəyə təhrik etmək cəhdlərindən xəbər verirdi. Təcavüzkar tərəfin danışıqlar prosesini pozması, əsassız tələblər irəli sürməsi, müharibəyə hazırlaşması barədə Azərbaycan Prezidenti cənab İlham Əliyevin çoxsaylı xəbərdarlıqlarından həmsədr ölkələrin heç bir nəticə çıxarmaması, təcavüzkara qarşı təsirli mexanizmlərdən istifadə edilməməsi hər kəsdə danışıqların mənasızlığı fikrini qətiləşdirmişdi.

Ermənistanın 2020-ci ilin iyul ayından etibarən 3 dəfə ciddi təxribat törətməsi, sentyabr ayının son günlərində təcavüzkar ölkənin artilleriya hücumu nəticəsində Azərbaycanın hərbçilərinin və dinc vətəndaşlarının həlak olması irimiqyaslı hərbi əməliyyatların yenidən alovlanmasına, Azərbaycanın əkshəmlə əməliyyatlarına başlamasına səbəb oldu. Təcavüzkar ölkə sentyabrın son günlərində növbəti qəfil hücumla status-kvonu qoruyub saxlamağa, təxribatına görə Azərbaycanı günahlandırmağa, üçüncü ölkələri münaqişəyə cəlb etməyə çalışsa da, reallıqda özünü iflas və məğlubiyyət astanasına gətirdi.

44 günlük Vətən müharibəsi dövründə 300-dən çox yaşayış məntəqəsinin, strateji yüksəkliklərin, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərinin, şəhər tipli Suqovuşan, Hadrut qəsəbələrinin, Xocavənd rayonunun bir hissəsinin, Murovdağ dağ silsiləsinin, Laçın və Kəlbəcər rayonlarının bir hissəsinin, nəhayət, qədim Şuşa şəhərinin işğaldan azad olunması Ermənistanın hərbi-siyasi kapitulyasiyasını qaçılmaz prosesə çevirdi. Əkshəmlə əməliyyatlarının zaman keçdikcə daha uğurlu nəticələrlə müşayiət olunması, Silahlı Qüvvələrimizin Şuşa şəhərindən cəmi 1 gün sonra 70-dən çox yaşayış məntəqəsini işğaldan azad etməsi Ermənistanın hərbi-siyasi rəhbərliyini ağır ruhi sarsıntı və məğlubiyyətə məhkum etdi. Təcavüzkar dövlətin hərbi-siyasi komandanlığı üzləşdiyi sarsıdıcı zərbələri, hərbi-texnika, silah-sursat, canlı qüvvə və ərazi itkilərini heç cür gizlədə bilmədi, Azərbaycanın bütün meyarlar üzrə daha güclü olması barədə erməni cəmiyyətinə açıq mesajlar verməklə qaçılmaz xarakter alan hərbi uğursuzluqlarına zəmin hazırladı.

Ciddi məğlubiyyət fonunda hərbi xidmətdən boyun qaçırma və fərarilik halları geniş vüsət alırdı. İş o yerə çatmışdı ki, Ermənistan hakimiyyəti döyüş meydanında Azərbaycan Ordusu tərəfindən zərərsizləşdirilmiş erməni hərbçilərin nəşinin qəbulundan imtina edirdi, bunun daxildə ciddi narazılıq yaradacağından ehtiyatlanırdı.

Hərbi, siyasi və diplomatik müstəvilərdə ağır məğlubiyyətlərə düçar olan Ermənistan faktiki olaraq regionun heç bir dövləti tərəfindən ciddi və açıq dəstək almadı. Ermənistan prezidenti Armen Sarkisyanın beynəlxalq ictimaiyyəti Azərbaycanın apardığı hərbi əməliyyatlara biganə münasibətdə ittiham etməsi, baş nazir Nikol Paşinyanın bir neçə dəfə zəng edərək, habelə məktub ünvanlayaraq Rusiyanı üçüncü tərəf kimi münaqişəyə cəlb etmək istəməsi, lakin Moskvanın buna açıq rədd cavabları qapını kəsdirmiş iflas və məğlubiyyətin real mənzərəsi idi.

Yeri gəlmişkən, qeyd etmək vacibdir ki, Prezident cənab İlham Əliyevin uğurlu xarici siyasəti Rusiyanın ilk gündən Azərbaycanın başladığı əks-həmlə əməliyyatlarına neytral mövqeni təmin etdi. Rusiya Ermənistanı əl altında, nəzarətdə saxlamaq naminə ona müəyyən sahələrdə dəstək versə də, Minsk qrupunun həmsədri, eyni zamanda Azərbaycanla strateji tərəfdaş ölkə kimi bitərəfliyini qoruyub saxladı. İlk günlərdən Prezident Vladimir Putin hərbi əməliyyatların Ermənistan ərazisində getmədiyini bildirməklə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının prosesə hansısa formada müdaxilə etməyəcəyinə, Ermənistanın qurumdan hərbi dəstək gözləntilərinin mənasızlığına açıq eyham vurdu.

Sonrakı mərhələdə Rusiya Prezidenti Vladimir Putin "Valday" diskussiya klubunda "Azərbaycan ərazisinin əhəmiyyətli hissəsinin itirildiyi belə vəziyyət əbədi davam edə bilməz" bəyanatı ilə Ermənistanın işğalçı tərəf olduğuna bir daha açıq eyham vurdu. Bu açıqlama regionun fövqəlgüc dövləti olan Rusiyanın Azərbaycanın öz ərazilərini işğaldan azad etmək hüququnu tanımasının real təzahürü idi. V.Putinin "Valday" açıqlamalarında, eləcə də bir neçə gün əvvəl keçirdiyi ənənəvi illik mətbuat konfransında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan haqqında xoş fikirlər söyləməsi, onu etibarlı tərəfdaş kimi dəyərləndirməsi da diqqətçəkici məqamlardır.

Beləliklə, Azərbaycan hərb meydanında layiqli zəfər qazanmaqla düşmənə öz şərtlərini diktə etməyə nail oldu. Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş üçtərəfli 10 noyabr razılaşması Azərbaycanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağda ikinci erməni dövləti qurmaq iddialarının isə iflası kimi dəyərləndirilməlidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın əks-həmlə əməliyyatları münaqişə regionundakı "status-kvo" və təmas xətti anlayışlarını aradan qaldırdı.

Üçtərəfli Bəyanatla Ermənistanın qoşunlarını bütün işğal olunmuş ərazilərdən, o cümlədən Ağdam, Laçın və Kəlbəcər rayonlarından çıxarmağa məcbur edilməsi Azərbaycanın böyük qələbəsi kimi tarixiləşdi. Bu, həm də 30 ildən çox müddətdə Vətən həsrəti ilə yaşayan insanların nisgilinə, ümidsizliyinə son qoyulmasıdır. Dövlətimiz hər zaman qaçqın və məcburi köçkünlərin mənzil-məişət problemlərinin həlli, sosial təminatının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atsa da, məhz Azərbaycan Prezidenti cənab İlham Əliyev onların ən böyük arzusunu - doğma yurdlarına qayıtmaq amalını gerçəkləşdirdi.

44 günlük müharibə eyni zamanda Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya göstərdi. Bu günlərdə bir daha məlum oldu ki, 30 ilin torpaq həsrəti, əzabları xalqımızı sındırmayıb, onun iradəsinə mənfi təsir göstərməyib. Ermənilərin təxribatlarına, vandalizminə baxmayaraq, Azərbaycanın Tərtər, Beyləqan, Bərdə, Goranboy, Ağdam, Naftalan və digər rayonlarının, habelə Gəncə şəhərinin sakinləri sonadək yüksək vətənpərvərlik, iradə, əzm nümayiş etdirdilər.

10 minədək fərarilik halının aşkarlandığı Ermənistandan fərqli olaraq, 44 günlük müharibə günlərində Azərbaycanda bir nəfər də olsun, fərarilik faktının qeydə alınmaması xalqımızın mətinliyinin və yüksək döyüşkənlik ruhunun göstəricisi kimi dəyərləndirilir. Onu da xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsi dövründə ciddi beynəlxalq təzyiq və təhdidləri məhz xalqın inam və iradəsinə, birliyinə söykənərək dəf etdi, həlledici qələbənin əldə olunmasına qədər "dayanmaq" əmri vermədi.

Azərbaycan 44 gün ərzində BMT Təhlükəsizlik Şurasının 30 ildən çox davam edən qətnamələrinin icrasına nail oldu. Prezident cənab İlham Əliyevin bəyan etdiyi kimi, müharibə Azərbaycan üçün heç də son məqsəd deyildi. Ölkəmiz, sadəcə, güc tətbiq edərək, Ermənistanın işğalçılığına son qoymaq, BMT qətnamələrinin icrasını həyata keçirmək istəyirdi və bu hədəfi reallaşdırdı: *"Biz bu qələbəni döyüş meydanında qazandıq. 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Şuşa şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi və digər qəsəbələr döyüş meydanında azad edildi"*.

Təslimçilik sənədinə imza atmağa məhkum olmuş N.Paşinyanın "Facebook" sosial şəbəkəsi hesabında tez-tez canlı yayım edərək məğlubiyyətin səbəblərini əsaslandırmağa çalışması, hərbi əməliyyatları davam etdirməyin daha pis nəticələrə gətirib çıxara biləcəyini deməsi Ermənistanda ictimai narazılıqları daha da alovlandırıb.

N.Paşinyan Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələri qarşısında məğlub olduğunu, müqavimət göstərə bilmədiyini etiraf edərək, çıxılmaz durumda təslimçi sülhə imza atdığını desə də, depressiv durumda olan erməni ictimaiyyəti onu xain adlandıraraq hakimiyyətdən getməsini tələb edir. Ermənistandakı narazı kütlə, eləcə də vəziyyətdən siyasi maraqları üçün bəhrələnməyə çalışan müxalifət partiyaları bildirirlər ki, Ermənistanın baş naziri N.Paşinyan ilk gündən erməni ictimaiyyətini əsassız "qələbə nağıllarına kökləyib", real itkilərin miqyasını cəmiyyətdən gizləyib, xalqı aldadıb.

Ermənistanda yaxın gələcəkdə hansı qüvvənin hakimiyyətə gələcəyindən asılı olmayaraq, iqtidar 10 noyabr sazişinə əməl etməyə məhkumdur. Bunun əksi Rusiya Prezidenti Vladimir Putinin açıq bəyan etdiyi kimi, siyasi intihara bərabər olar. Artıq Ermənistanda daha çox insan anlamağa başlayır ki, 10 noyabr tarixli üçtərəfli Bəyanatdakı müddəaların tam şəkildə yerinə yetirilməsi Cənubi Qafqazda sülhə və birgəyaşayışa böyük töhfədir. Bunun üçün Ermənistan qonşularına qarşı ərazi iddialarından imtina etməli, həm öz xalqının, həm də Qarabağ regionunda yaşayacaq ermənilərin gələcək inkişafını düşünməlidir.

Münaqişənin başa çatması Ermənistanın həm Azərbaycan, həm də Türkiyə ilə münasibətlərini normallaşdırması, gələcək beynəlxalq və regional layihələrdə iştirakı baxımından tarixi fürsətdir. Ermənistan 10 noyabr Bəyanatına yeni işğalçılıq niyyətinə düşmək üçün "vaxt imkanı" deyil, Cənubi Qafqazda dövlətlər və xalqlararası inkişafa verilmiş tarixi fürsət kimi dəyərləndirməlidir.

Təəssüflə qeyd etmək lazımdır ki, Ermənistanın uzun illər işğal altında saxladığı yaşayış məskənlərində - şəhər və rayonlarda, kəndlərdə talançılığa yol verməsi, kütləvi dağıntılar törətməsi, təbii sərvətlərimizi qeyri-qanuni şəkildə mənimsəməsi təkcə müharibə qayda və adətlərinin pozulması deyil, eyni zamanda bəşəriyyətə və insanlığa qarşı aşkar qəsddir. İşğaldan azad edilmiş ərazilərdən hazırlanan video və foto görüntülər Ermənistanın kütləvi dağıntı və söküntüləri, talançılığı xüsusi amansızlıqla həyata keçirdiyini bir daha təsdiqləyib.

Bütün bunlar tarixən saxta ideologiya əsasında erməni cəmiyyətinə aşılanmış kin-küdurətin, nifrət və qisasçılıq hissinin real təzahürləridir. Sivilizasiyanın hazırkı mərhələsində ermənilərin bəşəri dəyərlərə üz çevirərək tarixi-mədəni, dini abidələri məhv etmələri mahiyyət etibarilə "İŞİD", "Hizbullah", "ASALA" və digər terror qruplaşmalarının tarixi minilliklərlə ölçülən dünya mədəni-tarixi irsinə qarşı vandal davranışı ilə müqayisə oluna bilər.

Ermənilər Azərbaycanın yaşayış məskənlərini, habelə tarixi, dini, mədəni abidələri, kurqanları və məscidləri yerləyeksan etməklə, həm də işğal altında saxladıqları ərazilərdə azərbaycanlılara xas bütün əlamət və nişanələri silməyə, tarixi yer adlarını saxtalaşdırmağa uğursuz cəhdlər ediblər. Ermənistanın işğalda saxladığı rayonlarda böyük dağıntılar törətməsi, bir dənə belə salamat, dağılmamış bina saxlamaması azərbaycanlıların doğma torpaqlarına qayıtmalarının qarşısını almaq məqsədi daşıyıb. Bununla bağlı dövlət başçısı cənab İlham Əliyev deyib: *"Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin"*.

Uzun illər işğal altında saxlanılmış ərazilərdə 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330 yerli əhəmiyyətli tarixi və mədəni abidə məhv edilib. Ermənistan işğalda saxladığı ərazilərdəki 22 muzeyi dağıdıb, 100 mindən çox tarixi eksponatı talan edib. İşğala qədər ərazilərimizdə mövcud olmuş 67 məsciddən 63-ü tamamilə dağıdılıb. Azərbaycanın etirazları və bəzi beynəlxalq təşkilatların təzyiqləri nəticəsində yalnız 4 məscidi - Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərini qismən qoruyub saxlamaq mümkün olub. Ağdam, Zəngilan, Qubadlı və digər rayonlarda dağıdılmış məscidlərin içərisində ev heyvanları, o cümlədən donuz saxlanılması ermənilərin təkcə azərbaycanlılara qarşı aqressiya və nifrətinin deyil, o cümlədən müsəlman dünyasına, İslami dəyərlərə həqarətlərinin təzahürüdür.

Təəssüflə vurğulamaq lazımdır ki, işğaldan azad edilmiş ərazilərdəki alban-xristian abidələri və kilsələrinin qorunması vacibliyi ilə bağlı son aylarda yersiz narahatlıq və çağırışlar edən bəzi Qərb dairələrinin indiyə qədər Azərbaycanın dağıdılmış tarixi-mədəni, dini abidələri, məscidləri, qəbiristanlıqları ilə bağlı susqunluq, laqeydlik nümayiş etdirmələri qərəzli və ədalətsiz yanaşmanın təzahürüdür. Ermənistanın Qafqaz Albaniyası memarlıq üslubuna xas tarixi və dini memarlıq abidələrini "rekonstruksiya" edərək erməniləşdirmək, saxtakarlıqla işğalçı siyasətinə bəraət qazandırmaq cəhdlərinə seyrçi və laqeyd münasibət Qərbin bəzi ölkələrinin Azərbaycana qarşı qərəzli və qeyri-adekvat yanaşmasını bir daha təsdiqləyir.

Ümumilikdə, zəfərlə başa çatan 44 günlük müharibə Azərbaycanda milli ruhu, mənəvi yüksəlişi təmin etməklə, hakimiyyət, ordu və xalq arasında etimadı da gücləndirib, xalqımız uzun illərdən sonra məğlubiyyət sindromundan xilas olub. İşğal faktını aradan qaldırmaqla əraziləri üzərində hüquqi-siyasi nəzarəti təmin edən Azərbaycan yeni iqtisadi dividendlər əldə etmək imkanı qazanıb. Məcburi köçkünlərin mərhələlərlə doğma yurdlarına qayıtması işğaldan azad edilmiş ərazilərinin geniş potensialından səmərəli istifadəyə imkan verəcək. Paytaxtın və digər iri şəhərlərin demoqrafik və sosial-iqtisadi yükü xeyli dərəcədə azalacaq, regionların tarazlı inkişafı təmin ediləcək.

İşğaldan azad edilmiş ərazilərin təbii ehtiyatlarla, şirin su qaynaqları və münbit torpaqlarla zənginliyi regionun sürətli sosial-iqtisadi inkişafına şərait yaradır. Azərbaycan 17 min kvadratkilometr ərazisini işğaldan azad etməklə, həm də uzun illər qeyri-qanuni şəkildə istismar olunan ərazilərinin aqrar-sənaye, ekoloji, hidroloji potensialını bərpa etmək imkanı qazanıb. Münaqişənin həlli Azərbaycanın dövlət büdcəsinə daxilolmaların zamanla artmasına, o cümlədən sosial-infrastruktur layihələrinə daha çox maliyyənin ayrılmasına, insanların rifah halının yüksəldilməsinə imkan verəcək. Münaqişənin başa çatması, regionda dayanıqlı sülhün əldə olunması Azərbaycana xarici investisiya axınını daha da gücləndirəcək, xüsusən də işğaldan azad edilmiş ərazilərdə biznes üçün əlverişli imkanlar açılacaq.

10 noyabr razılaşmasına əsasən, Azərbaycanın özünün ayrılmaz tərkib hissəsi olan Naxçıvana nəqliyyat və dəmir yolu əldə etməsi muxtar respublikanın iqtisadi blokadadan çıxması, onun iqtisadi potensialının güclənməsi, ümumən türk dünyasının yeni kommunikasiya-nəqliyyat imkanları qazanması deməkdir. Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin qurulması ölkəmizin nəqliyyat xəritəsinin şaxələndirilməsinə imkan verir. Bu, həm də Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə mənşəli malların ölkəmizə daha ucuz qiymətə idxalına şərait yaradır. Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin qurulması azərbaycanlıların Türkiyəyə turist kimi səfərlərini da artıra bilər.

Azərbaycan həm də işğal edilmiş ərazilərindəki təbii sərvətlərindən, qızıl, mis, əhəng, mineral, termal sular və s. ehtiyatlarından istifadə edərək iqtisadiyyatını inkişaf etdirmək imkanı qazanıb. Qarabağdakı təbii müalicəvi yeraltı su mənbələrinin bolluğu regionda mineral su istehsalı müəssisələrinin yaradılmasını və həmin məhsulların geniş çeşiddə ixracını şərtləndirir.

İşğaldan azad edilmiş Zəngilan rayonundakı Vejnəli, eyni zamanda Kəlbəcər rayonundakı Söyüdlü (Zod) qızıl yataqlarının mənimsənilməsi ilə ölkəmiz özünün strateji təbii sərvətləri üzərində nəzarəti tam təmin edəcək. İşğala qədər mövcud olmuş Bəsitçay və Qaragöl dövlət təbiət qoruqlarının, habelə Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının bərpası, flora və faunasının tədricən yenilənməsinə, ekoloji mühitin yaxşılaşmasına imkan yaradacaq.

İşğalın aradan qaldırılması bu torpaqlarda geniş yayılan faydalı qazıntıların - metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, mineral sular və digər ehtiyatların mənimsənilməsinə imkan yaradır. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə əkinçilik, meyvəçilik, tərəvəzçilik və digər mühüm kənd təsərrüfatı sahələrinin inkişafını stimullaşdırmaq istiqamətində addımların atılması planlaşdırılır. Qeyd olunan ərazilərin füsunkar təbiəti Azərbaycanın turizm potensialının daha da güclənməsinə imkan verəcək.

Qarşıya qoyduğu bütün hədəfləri inamla reallaşdıran respublikamızın işğaldan azad edilmiş ərazilərinin yaxın illərdə əsaslı bərpası və yenidən qurulmasına nail olacağı şübhəsizdir. Xüsusi vurğulamaq lazımdır ki, 2021-ci ilin dövlət büdcəsi layihəsində ilkin olaraq bu məqsədlə 2,2 milyard manat vəsaitin nəzərdə tutulması sosial-infrastruktur və tikinti layihələrinin, ümumən "Böyük Qayıdış" planının uğurla reallaşdırılmasına təminat yaradır.

Ərazilərimizin bərpası və yenidən qurulmasında, ümumən, dayanıqlı inkişafının təmin edilməsində sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması məsələləri də mühüm yer tutur. Azərbaycanda bu sahədəki mövcud vəziyyət dünyada biznes mühitinin qiymətləndirilməsi üçün ən vacib reytinq göstəricisi hesab edilən "Doing Business"in hesabatlarından da aydın görünür. "Doing Business 2020" hesabatına düzəlişdə Azərbaycanın mövqeyi daha da yaxşılaşıb, ölkəmiz 191 ölkə arasında 28-ci yerə yüksəlib. Ölkəmizin reytinq cədvəlində 6 pillə irəliləməsi, dünyanın 10 islahatçı ölkəsi sırasında qərar tutması ölkədə həyata keçirilən islahatların, idarəçilik sistemində yeniləşmənin əyani təzahürüdür.

Bütün bunlar göstərir ki, qlobal pandemiyanın doğurduğu ciddi fəsadlara, sosial çətinliklərə baxmayaraq, Azərbaycan 2020-ci ili iqtisadi, siyasi, diplomatik nailiyyətlərlə, ən əsası, tarixi ZƏFƏRLƏ başa vurur. Böyük qürur və fəxarət hissi ilə qeyd edirəm ki, gələn il biz artıq rayon və şəhərlərimizin işğal günlərini deyil, işğaldan azad olunması günlərini xatırlayacaq, Şuşa şəhərinin azad olduğu 8 noyabr gününü tarixi Zəfər Günü kimi qeyd edəcəyik.

Vətən müharibəsinin ilk günlərindən Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da Azərbaycan Ordusunun şəxsi heyətinə, yaralanmış, Vətən uğrunda şəhid olmuş hərbçilərin ailələrinə xüsusi ehtiram və həssaslıqla yanaşıb, müalicə alan yaralıları ziyarət edib, əlillərin dövlət hesabına müasir protezlərlə təmin olunacağını bildirib. Birinci vitse-prezident Vətən müharibəsi günlərində xalqa dəfələrlə müraciət edib, yaralı əsgərlərimizə şəfa, şəhid olanlara isə rəhmət diləyib.

Bu günlərdə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun təşkilatşlığı ilə işğaldan azad olunmuş ərazilərdə xidmət edən hərbi qulluqçularımıza dəstək aksiyasının həyata keçirilməsinə başlanılması Azərbaycan Ordusuna yüksək diqqət və qayğının növbəti parlaq nümunəsidir. Bu aksiya bir daha cəmiyyəti nəcib və xeyirxah təşəbbüslərdə fəal olmağa, əsgər və hərbçilərə xüsusi həssaslıq nümayiş etdirməyə yönəlmiş sosial çağırışdır.

*Sonda qeyd etmək vacibdir ki, tarixi qələbəni xalqına yaşadan, torpaqlarımızın 30 ildən sonra işğaldan azad edilməsinə nail olan qalib Ordunun Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev bu gün, sözün əsl mənasında, xalq qəhrəmanına, qürur və fəxarət ünvanına çevrilib.*

*Hər bir azərbaycanlı kimi, Sumqayıt şəhərinin çoxsaylı sakinləri də bu gün tarixi qələbəmizin sevincini yaşayır, dövlət başçısının rəhbərliyi ilə milli maraqlarımızın bundan sonra da layiqincə qorunacağına, işğaldan azad edilmiş torpaqlarımızın yaxın illərdə Cənubi Qafqazın ən müasir, abad, iqtisadi cəhətdən inkişaf etmiş bölgəsinə çevriləcəyinə ürəkdən inanırlar.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri, iqtisad elmləri doktoru***

# Hər bir azərbaycanlının Prezidenti

**Prezident İlham Əliyevin fəaliyyəti Azərbaycanın ötən 17 ildə daha da güclənməsini, tarixinin olduqca şərəfli dövrünə qədəm qoymasını təmin edib. Bu il torpaqlarımızın azad olunması ilə İlham Əliyev həm də dövlətimiz və xalqımız üçün olduqca mühüm bir tarixi missiyanı layiqincə yerinə yetirdi. Azərbaycan Prezidenti üçün əlamətdar olan gündə Milli Məclisin deputatları bu barədə fikirlərini oxucularımızla bölüşürlər.**



## Müdrik rəhbər, müzəffər Ali Baş Komandan

**Novruzəli ASLANOV,**
*Milli Məclisin deputatı,*
*Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- Azərbaycan xalqı özünün zəngin dövlətçilik tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Çünki 30 ilə yaxın idi ki, işğal altında olan torpaqlarımızın azad edilməsini, üstəlik təcavüzkar Ermənistanın müharibə meydanında məğlub edilərək cəzalandırılmasını başqa cür qiymətləndirmək mümkün deyil. Həm də bu, son 200 illik tariximizdə zəbt olunmuş ərazilərimizin geri qaytarılması ilə bağlı ilk hadisədir. Bu şərəli tarixi yazan və bu möhtəşəm sevinci bizə yaşadan isə möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevdir.

44 gün davam edən Vətən müharibəsi Prezident İlham Əliyevin yenilməz iradəsini, Ali Baş Komandan kimi rəhbərlik etdiyi ordunun qüdrətini və hansı müasir döyüş imkanlarına malik olduğunu bütün dünyaya nümayiş etdirdi. Beləliklə, artıq Cənubi Qafqazda yeni siyasi reallıq və dövr yaranıb. Bu reallığın lideri Azərbaycanı qalib edən İlham Əliyevdir. Yeni dövrün aparıcı qüvvəsi isə regionda söz sahibi kimi statusunu və mövqelərini qat-qat gücləndirən Azərbaycandır.

Qəhrəmanlıq salnaməsinə çevrilən bu qələbə həm də Azərbaycan xalqının öz rəhbərinin ətrafında sıx səfərbər olması barədə söylənənlərin praktik təsdiqi idi. Bəli, bu haqq savaşında xalqımız vətənpərvər liderimizin ətrafında yumruq kimi birləşdi, torpaqlarımızın azadlığı uğrunda mübarizədə milli həmrəyliyin ən gözəl nümunəsini yaratdı. Əslində bu birliyin müəllifi də elə İlham Əliyevin özüdür. Yaxşı xatirimizdədir ki, hələ 2003-cü ilin prezident seçkiləri zamanı cənab İlham Əliyev "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyə bəyan etmişdi. Aradan ötən 17 ilin mənzərəsi göstərir ki, İlham Əliyev öz siyasəti və fəaliyyəti ilə bütün vədlərini layiqincə doğruldub. Dövlət başçısı siyasəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu təsdiq edib.

Ümumiyyətlə, statusundan, ictimai mövqeyindən asılı olmayaraq, hər bir insanın nə əməl sahibi olduğunu müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. Bu mənada, cənab İlham Əliyevin ötən 17 illik prezidentlik fəaliyyəti ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Dövlət başçısı çoxşaxəli fəaliyyəti ilə qarşıya qoyduğu bütün vəzifə və məqsədləri bütünlüklə doğruldub, sistemli və düzgün koordinasiya olunmuş fəaliyyəti ilə xalq qarşısında verdiyi bütün vədlərə sadiqliyini sübut edib. Yüksək intellekti, işgüzarlığı, təvazökarlığı, savadı, səmimiliyi, mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifənin öhdəsindən inamla gəlir.

Bu baxımdan İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən 17 ilin hər bir mərhələsi möhtəşəm nailiyyətlərlə əlamətdardır. Heydər Əliyev yolunu layiqincə, qətiyyətlə, inamla davam etdirən, ən nüfuzlu siyasi liderlərlə bir cərgədə dayanan İlham Əliyevin rəhbərliyi ilə bu dövrdə keçilən inkişaf yolu Azərbaycanı bölgənin liderinə, dünyada isə söz sahibinə çevirib. Bu dövrdə əldə olunmuş möhtəşəm uğurlarımıza xronoloji ardıcıllıqla nəzər salaq: Ümummilli Lider Heydər Əliyevin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi" kimi mürəkkəb infrastruktur layihələri icra olunub, Azərbaycan fəzaya göndərdiyi 3 peyklə kosmik klubun üzvünə çevrilib. Nəqliyyat layihələrinin həyata keçirilməsinin nəticəsi olaraq Azərbaycan Şimalla Cənub, Şərqlə Qərb arasında ən etibarlı, ən sürətli və ən təhlükəsiz tranzit qovşağına çevrilib. Milli iqtisadiyyatımızın 3 dəfə artması, strateji valyuta ehtiyatlarımızın 50 milyard dolları ötməsi, əhalinin sosial rifahında baş verən dəyişikliklər də İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətini xarakterizə edən möhtəşəm nümunələrdir.

Siyasi sahədə də Azərbaycan bu illərdə qürurverən nailiyyətlərə imza atıb. Ən mühüm nailiyyətlərdən biri Prezident İlham Əliyevin tamamilə müstəqil xarici siyasət yürütməsidir ki, bu da Azərbaycana olan beynəlxalq etimadı daha da yüksəldib. Eyni zamanda respublikamızın enerji təhlükəsizliyi məsələlərində söz sahibi kimi çıxış etməsi Azərbaycanın beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə yüksəldib. Faktiki olaraq Cənubi Qafqazı əhatə edən istənilən layihənin həyata keçirilməsi Azərbaycanın iştirakı olmadan və mövqeyi öyrənilmədən mümkün deyil.

Azərbaycanın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi isə ötən 17 ilin ən böyük siyasi uğurlarından biri kimi İlham Əliyevin yürütdüyü müstəqil və qətiyyətli xarici siyasət kursunun nəticəsi idi.

Bütövlükdə respublikamızda qazanılan hər bir nailiyyət insanların cənab İlham Əliyevə olan etimadını daha da yüksəldib, milli birliyimizi möhkəmləndirib. Bu illərdə keçirilən bütün xarici və yerli sosioloji sorğularda qeydə alınan nəticələr də İlham Əliyevin xalq arasında yüksək nüfuza malik olduğunu dəfələrlə təsdiqləyib. Təbii ki, bunun da əsas səbəbi dövlət başçısının xalqın və dövlətin maraqlarının layiqincə təmin olunmasına xidmət fəaliyyəti, bu istiqamətdə həyata keçirilən siyasi kursun insanlar tərəfindən dərin razılıqla qarşılanmasıdır. Bunu təsdiq edən ən əsas faktorlardan biri isə indiyədək keçirilən bütün seçkilərdə səsvermə hüququ olan vətəndaşlarımızın İlham Əliyevə yüksək etimad göstərmələridir. Cəmiyyətimizdəki mütərəqqi proseslərin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə böyük dəstəyini nümayiş etdirib. Bu dəstək Azərbaycan cəmiyyətinin mövcud siyasi kursa inam və rəğbətinin əyani təcəssümü olmaqla, mütləq əksəriyyətin istək və arzusunu özündə əks etdirib.

Bu gün hər bir azərbaycanlının əsas vəzifələrindən biri vətəndaşlıq mövqeyindən çıxış edərək ölkəmizdə əldə olunan nailiyyətlərə öz töhfəsini verməsidir. Bu baxımdan respublikamızın Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti, o cümlədən Heydər Əliyev Fondunun həyata keçirdiyi hər bir tədbirlər, gördüyü işlər ən gözəl nümunələrdir.

Azərbaycanın yeganə problemi torpaqlarımızın işğal altında olması idi. Ötən 17 ildə gördüyü işlərlə Azərbaycanı inkişaf yoluna çıxaran, ordumuzu gücləndirən İlham Əliyev sərkərdə qətiyyəti ilə tarixi ədaləti yoluna qoydu, dövlətimizin ərazi bütövlüyünü bərpa etdi. İlham Əliyev bu müharibənin Müzəffər Ali Baş Komandanı, öz tarixi missiyasını layiqincə yerinə yetirən qəhrəmanıdır. Məhz İlham Əliyevin yenilməz qətiyyəti və müdrikliyi ölkəmizin hərbi-siyasi qələbəsini təmin etdi.

Şanlı qələbəmizdən sonra Azərbaycan yeni mərhələyə qədəm qoyub. Bu mərhələdə isə İlham Əliyevin rəhbərliyi ilə xalqımızı yeni nailiyyətlər və qələbələr gözləyir. Ölkəmizin daha da yüksəlişinə aparan bu yolda Prezident İlham Əliyevə uğurlar arzu edirəm.

## İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da tariximizin şanlı səhifələri yazılacaq

***İlham MƏMMƏDOV,***
*Milli Məclisin deputatı:*

- Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının da həyatında məhz Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ata vəsiyyətini layiqincə yerinə yetirib xalqımıza illərdir gözlənilən qələbə xəbərini bəxş edən və bir daha xalqın xilaskarına çevrilən, müasir dünya tarixinin qibtə etdiyi Prezident İlham Əliyev var.

İlham Əliyevin uğurlu siyasi xəttinin nəticəsində ölkəmiz dünyada sabitlik diyarına, müasir dünyanın tələblərinə cavab verən bir dövlətə çevrilib, uğurları ilə beynəlxalq aləmin diqqətini özünə cəlb edib. Cənab Prezidenti ölkəyə rəhbərlik etdiyi 17 ildə xalqımızın yaxın keçmişdə bizim üçün əlçatmaz görünən arzuları reallığa çevirib. Bu dövr bizə regionda söz və güc sahibi olan müstəqil Azərbaycan dövlətinin vətəndaşı olma şansını nəsib etmişdir.

Prezident İlham Əliyev tərəfindən ölkəmizin güclənməsi naminə atılan uğurlu addımlar 30 ilə yaxın idi işğal altında olan əzəli və əbədi Azərbaycan torpağını - Qarabağı yenidən bizə bəxş etdi. Ötən 17 ildə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən kompleks sosial-iqtisadi islahatlar, güclü xalq-iqtidar birliyi, ölkəmizin beynəlxalq nüfuzunun artması, ordu quruculuğu sahəsində həyata keçirilən mühüm tədbirlər təbii ki, bu Qələbəmizi şərtləndirdi. İqtisadi gücümüz Qələbəni əldə etmək potensialımızı təmin etdi.

Bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Məhz iqtisadi müstəqilliyimiz ordumuzu gücləndirmək üçün imkan yaratdı. Maliyyə imkanlarımızın artması nəticəsində ordumuzu lazım olan bütün hərbi texnika və silahlarla təmin etdik. O cümlədən Azərbaycanda müdafiə sənayesi yaradıldı və bu gün ordumuzun tələbatı böyük dərəcədə daxili istehsal hesabına təmin edilir.

Azərbaycan illərlə, demək olar, bütün beynəlxalq platformalarda ərazi bütövlüyümüzü dəstəkləyən sənədlərin qəbuluna nail olmaqla münaqişənin həllinə hüquqi zəmin yaratdı. Daxildəki həmrəyliyimiz, vahid amal uğrunda cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşməyimiz bizə əlavə güc verdi. Milli birliyimiz imkan vermədi ki, bəzi mənfur xarici qüvvələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər.

Bütün bu uğurlu siyasətin yekun nəticəsidir ki, Azərbaycan sentyabrın 27-də başlamış İkinci Qarabağ müharibəsini müvəffəqiyyətlə başa vurdu. Zəfər gününə qədər 44 günlük fəal müharibə yolu keçildi. Vətən müharibəsində dövlət-xalq birliyi öz təntənəsini yaşadı, zirvə məqamlarla tarixə düşdü, örnək oldu. Azərbaycan Vətən müharibəsində öz ərazi bütövlüyünü bərpa edərək tarixi qələbəyə imza atdı. Bunu beynəlxalq aləmdə də hər kəs etiraf edir. Həm də Azərbaycan Silahlı Qüvvələri mülki insanlarla müharibə aparmadığını, hərbçinin işinin hərb meydanında olduğunu göstərdi. Azərbaycan Prezidentinin rəhbərliyi ilə qazanılmış bu Qələbə ölkəmizin tarixində yeni bir mərhələnin başlanğıcı oldu.

Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı birgə bəyanat məzmun, mahiyyət, ehtiva etdiyi səbəb və nəticə etibarilə Ermənistanın tam kapitulyasiyası və bizim qələbəmizdir. Hərb meydanında məğlubiyyətini dərk edən işğalçı Ermənistanın siyasi rəhbərliyi Azərbaycan Prezidenti İlham Əliyevin müharibənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi, başqa sözlə, kapitulyasiya şərtlərinə razılıq verdi. Vətən müharibəsi bizim Böyük Zəfərimizlə başa çatdı. Azərbaycan son iki yüz illik tarixində zəbt olunmuş torpaqlarını azad etdi.

Vacib məqamlardan biri də odur ki, bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də olmadı. Dağlıq Qarabağa heç bir status, muxtariyyət, hətta mədəni muxtariyyət belə verilmədi. Mühüm məqamlardan biri də, Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirilməsi istiqamətində tarixi addımın atılmasıdır. Bununla da, Naxçıvanın 30 illik blokadasına son qoyulur, eyni zamanda türk dünyasının yerüstü tranzit-rabitə əlaqəsi bərpa olunur. Beləliklə, bu müharibə Azərbaycanın tam və birmənalı qələbəsi ilə nəticələndi. Bu zəfər Azərbaycan xalqına, xalq isə bu qələbəyə layiqdir.

Azərbaycan dövlətçiliyi böyük bir imtahandan şərəflə çıxdı. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən doğma yurd həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi bir daha parlaq şəkildə nümayiş etdirdi. Bu tarixi nəticə xalqımız haqqında "məğlub xalq" rəyini sındırdı, əksinə, nə qədər yenilməz olduğumuzu bütün dünyaya nümayiş etdirdi.

Vətən müharibəsində qazandığımız qələbə Prezident İlham Əliyevin son 17 il ərzində həyata keçirdiyi güclü dövlət strategiyasının nəticəsidir. İşğaldan azad olunmuş torpaqlarımızın yenidən qurulması nəticəsində həyat yenidən canlanacaq, doğma yurd həsrəti ilə yaşayan məcburi köçkünlər öz el-obalarına qayıdacaqlar.

Bu möhtəşəm qələbənin əldə olunmasında ən böyük amil Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin polad kimi möhkəm siyasi iradəsidir. İlham Əliyev hərbi, siyasi və diplomatik sahədə qələbələrimizin simvoluna çevrildi. Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcək.

## Milli maraqlarımızı qətiyyətlə təmin edən lider

***Müşfiq MƏMMƏDLİ,***
*Milli Məclisin deputatı:*

- 2020-ci il başa çatmaq üzrədir. Demək olar ki, bütün dövlətlər məlum pandemiya səbəbindən bu ili eyni problemlərlə başa vurur. Koronavirusun Azərbaycanda da çətinliklər yaratmasına baxmayaraq, 2020-ci il 29 illik müstəqilliyimizin tamamilə fərqli bir dövrü kimi tarixə qovuşur. Çünki bu il dövlətimizin və xalqımızın tarixinə Qələbə, torpaqlarımızın işğaldan azad olunduğu dövr kimi həkk olundu. Bu şanlı və tarixi Qələbənin müəllifi, 44 günlük savaşın qalib sərkərdəsi isə möhtərəm Prezident, müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevdir.

Bu müharibə dövlətimiz və xalqımız üçün şərəf və milli ləyaqət məsələsi idi. Ona görə qalib gəlməkdən, düşməni darmadağın etməkdən başqa yolumuz yox idi. İlham Əliyevin Ali Baş Komandanlığı ilə qəhrəmanlıqla döyüşən ordumuz, öz rəhbəri ətrafında sıx birləşən, həmrəylik nümayiş etdirən xalqımız bu savaşdan şərəflə və ləyaqətlə çıxdı.

Bəli, zaman bizi bəzən ağır sınaqlara çəksə də, artıq yenidən tariximizin şərəfli səhifələri yazılır. Heydər Əliyevin müəyyən etdiyi, İlham Əliyevin layiqincə davam etdirdiyi siyasi xəttin nəticəsi olaraq güclü Azərbaycan dövlətinin yaranması bu gün dünyanın etiraf etdiyi reallıqdır. Elə bu reallıqdan çıxış edərək xalqımız öz tarixinin yeni yüksəliş salnaməsini yaradır. 44 günlük Vətən müharibəsindəki qələbə də bu salnamənin parlaq səhifəsidir. Bu şanlı qələbə, torpaqlarımızın azad olunması, işğalçı Ermənistanın hərb meydanında məğlub edilməsi ilə İlham Əliyev tariximizi və dövlətçiliyimizi şərəfləndirdi, 30 ilə yaxın idi doğma yurd həsrəti ilə yaşayan məcburi köçkünlərin iztirabına son qoydu.

Tarix sübut edir ki, müharibələrdə uğur qazanmağın bir sıra vacib şərtləri var. Bu baxımdan İlham Əliyevin rəhbərliyi ilə bu şərtlərin təmin olunması yönündə qazanılan uğurlar hər birimizin fəxarət ünvanıdır. Bu yolda ən mühüm vəzifələrdən biri möhkəm iqtisadi potensiala və maliyyə imkanlarına sahib olmaq idi. İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın iqtisadi gücünü və bundan irəli gələrək maliyyə imkanlarını artırması son 17 ildə ölkəmizin ən böyük reallıqlarından biridir. 44 günlük müharibəni zəfərlə başa vuran rəşadətli ordumuzun ən modern hərbi texnika ilə təchiz olunması, müasir döyüş imkanlarını mənimsəməsi, ilk növbədə, respublikamızın iqtisadi baxımdan möhkəmlənməsinin, maliyyə imkanlarımızın artmasının nəticəsidir. Bəli, 2003-cü ildə rəhbərliyə başladıqdan sonra Ulu Öndər Heydər Əliyevin neft strategiyasının həyata keçməsini layiqincə təmin edən Prezident İlham Əliyev əldə olunan gəlirləri inkişafa, quruculuğa istiqamətləndirdi. Bu imkanların nəticəsində Azərbaycan həm də güclü ordusu olan dövlətə çevrildi. Beləliklə, 44 günlük müharibədə qazanılan qələbə göstərdi ki, Prezident İlham Əliyev Azərbaycanın neft və qazdan gələn gəlirlərini, ilk növbədə, ölkəmizin milli maraqlarının təmin olunmasına yönəldir.

Bu Qələbənin təmin olunmasında başqa bir uğurumuz İlham Əliyevin illər əvvəl elan etdiyi hücum diplomatiyasının öz hədəflərinə çatması, milli mənafelərimizlə uyğun qətiyyətli xarici siyasətin həyata keçirilməsidir. Buna görə də İlham Əliyev haqlı olaraq bütün dünyada nüfuzlu siyasi lider olaraq qəbul edilir. Vətən müharibəsi günlərində beynəlxalq ictimaiyyətin dövlətimizin başçısına olan münasibəti də bunu təsdiq etdi. Məhz İlham Əliyevin yürütdüyü siyasətin nəticəsində Azərbaycan 17 ildə erməni yalanlarına bütün dünyada böyük zərbə vurdu və bu, Vətən müharibəsində Azərbaycana qarşı beynəlxalq diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Döyüş meydanındakı qələbədən sonra isə İlham Əliyev irəli sürdüyü şərtlərlə Ermənistanı kapitulyasiyaya məcbur etdi. Bununla da İlham Əliyev hərbi zəfərdən sonra Azərbaycanın ən möhtəşəm siyasi-diplomatik qələbəsini də təmin etdi.

İlham Əliyev dövlətini və xalqını sevən vətənpərvər liderdir. Təsadüfi deyil ki, 17 ildə cənab Prezidentin xalqımızın maraqlarını rəhbər tutan fəaliyyəti fonunda Azərbaycan cəmiyyətinin milli həmrəyliyi daha da güclənib və bu, Vətən müharibəsində özünü bir daha göstərdi. Xalqımızın öz rəhbərinin ətrafında səfərbər olması Qələbənin qazanılmasında mühüm rol oynadı.

Bu gün hər bir azərbaycanlı İlham Əliyevin timsalında ölkəmizin tərəqqisini, dövlətçiliyimizin qüdrətlənməsini və yüksələn milli qürurumuzu görür. Bu mənada şübhə yoxdur ki, qarşıdakı illərdə İlham Əliyevin rəhbərliyi ilə xalqımızı növbəti möhtəşəm uğurlar gözləyir və bu yolda bütün xalqımız öz rəhbərinin ətrafında daim səfərbərdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Azərbaycan Zəfəri"

**Kitab mədəniyyətində miniatür nəşrlərin xüsusi yeri var. Artıq dünya mədəniyyəti bu üsuldan kifayət qədər istifadə edir. Ölkəmizdə də miniatür kitab nəşri sahəsində həm təcrübə, həm də maraqlı materiallar kifayət qədərdir. Hətta neçə illərdir ki, Bakıda fəaliyyət göstərən Miniatür Kitab Muzeyinin ekspozisiyasında dünyada məşhur olan, ən nadir incilərdən hesab edilən, kiçikhəcmli, böyük dəyərli nüsxələrə rast gəlmək olar.**










Azərbaycan Respublikası "Kitab" Cəmiyyətinin xəttilə Ulu Öndərlə bağlı 37 müxtəlif ölçülərdə buraxılan həmin kitabların hamısı Heydər Əliyev Fondunda və bütün dünyada analoqu olmayan Miniatür Kitab Muzeyində nümayiş etdirilir. Təkrarsız sənət inciləri kimi yaradılan həmin kitablar "İndiqo" nəşriyyatında çap olunub.

Xatırladaq ki, Azərbaycanda minatür kitab buraxılışı ilə məşğul olan, "Kitab" Cəmiyyətinin sədri, Miniatür Kitab Muzeyinin təsisçisi, Əməkdar mədəniyyət işçisi Zərifə Salahovanın Heydər Əliyev irsini həm də bu cür kitablarla təbliğ etmək fəaliyyəti 1993-cü ildən, Ulu Öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdığı dövrdən başlanıb.

Cəmi 44 günlük Vətən müharibəsində qazandığımız Qələbəyə də Minatür Kitab Muzeyi öz töhvəsini verdi. Dilarə Seyidzadə və Zərifə Salahovanın tərtibatında, 55x55 mm ölçüdə, 352 səhifəlik (7 rəngli foto da daxil), forzası Azərbaycan xəritəsi olan, Miniatür Kitab Muzeyinin sifariçi ilə, 100 nüsxədən ibarət Azərbaycan, rus və ingilis dillərində çapdan buraxılan "Qarabağ Azərbaycandır!", "Azərbaycan Zəfəri" və "Карабах - это Азербайджан!" kitablarında dövlət başçısının 27 sentyabr-8 noyabr 2020-ci il tarixlərdə Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə əlaqədar xalqa müraciəti verilib.

"Qarabağ Azərbaycandır!" mini nəşri Ulu Öndər Heydər Əliyevin vaxtilə xalqa etdiyi müraciəti ilə açılır ki, bu da, ilk növbədə, Ümummilli Liderin siyasətinə xalq məhəbbətinin tükənməzliyinin bariz nümunəsidir. Həmçinin həmin müraciət kitabın siyasi, ictimai mahiyyətini bir daha artırmış olur.

Əsas mətni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 noyabr 2020-ci il tarixli xalqa müraciəti olan "Qarabağ Azərbaycandır!" kitabında "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" verilib.

Azərbaycan Prezidentinin işğaldan azad olunan rayonların əhalisinə verdiyi qələbə müjdəli müraciətlərinin də kitabda yer alması nəşrlərin dəyərini qat-qat artırmış olur.

Ümumiyyətlə, hər üç yeni nəşr Miniatür Kitab Muzeyində bir-birindən dəyərli kitabların arasında xüsusi çəkiyə malikdir. Diqqəti çəkən cəhətlərdən biri də budur ki, həcmcə kiçik olduqlarına baxmayaraq, bu kitablar bir-birinə bənzəmir. Üz qabıqları üçün maraqlı, bir-birindən fərqli formalar düşünülüb. Qələbə soraqlı xəbərlərin xalq coşqusunu əks etdirən foto-şəkillər məzmunu bir qədər də mənalandırır. Ümumiyyətlə, nəşrlər yüksək tərtibat cəhətdən xeyli fərqlənirlər.

Miniatür Kitab Muzeyinin direktoru, kitabların buraxılışına məsul Zərifə Salahova deyir ki, yeni nəşrlər muzeydəki incilərin arasında ona görə xüsusi çəkiyə malikdir ki, onlar xalqımızın illərlə gözlədiyi və nəhayət, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti - "Dəmir yumruq" siyasəti ilə Qarabağa sülh və azadlıq gətirdiyini tarixiləşdirir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***



# İlham Əliyev Azərbaycan könüllülərinin ən böyük himayədarıdır

## *İmaməddin QULİYEV:* "Vətən müharibəsində könüllülər əsgərlərimizə yardımların çatdırılmasında və informasiya savaşında fəal iştirak etdilər"

Torpaqlarımızın azadlığı ilə başa çatan Vətən müharibəsinin ortaya qoyduğu ən böyük reallıqlardan biri də xalqımızın həmrəyliyi, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx səfərbərliyi oldu. Bir amal uğrunda birləşən xalqımız döyüş meydanında olduğu kimi, arxa cəbhədə də əsl qəhrəmanlıq nümunələri yaratdı, milli birliyin ən mükəmməl örnəyini nümayiş etdirdi. Əli silah tutan oğullar könüllü döyüşə yollandılar, arxa cəbhənin on minlərlə könüllü qəhrəmanı isə ordumuzun qələbəsi üçün maddi-mənəvi yardımlarını əsirgəmədilər, hər biri öz qəlbinin səsi ilə döyüşən əsgərlərimizin yanında oldular.

44 günlük müharibədə ordumuzun qələbəsi üçün həm də vətəndaş cəmiyyəti institutları əllərindən gələni etdilər. Bu mövzuda söhbətləşdiyimiz Azərbaycan Könüllülər İctimai Birliyinin (AKİB) prezidenti, eyni zamanda Gənclərin Dostluq Şəbəkəsi İctimai Birliyinin təsisçisi və sədri İmaməddin Quliyev bildirir ki, könüllülər həm döyüşən əsgərlərimizə yardımların çatdırılmasında, həm də Azərbaycanın informasiya savaşında fəal iştirak etdilər: "Cənab İlham Əliyevin dediyi kimi, biz haqlı olaraq bu savaşı Vətən müharibəsi adlandırırıq. Çünki bu torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpası uğrunda xalqımızın apardığı müqəddəs müharibə idi. 44 günlük müharibənin ordumuzun qələbəsi ilə başa çatması hər birimizi sevindirdi. Bu Qələbənin müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyev və Rəşadətli Ordumuzdur. Azərbaycan əsgəri bu Qələbə ilə tariximizin yeni şərəfli səhifəsini yazdı. Eyni zamanda bu müharibə xalqımızın yumruq kimi bir olduğunu bütün dünyaya göstərdi. Rəhbəri olduğum Azərbaycan Könüllülər İctimai Birliyi də 44 günlük müharibədə öz fəaliyyətini məhz bu müstəviyə yönəltdi və başqa cür ola da bilməzdi".

AKİB üzvləri 44 günlük müharibədə əsgərlərimizə yardımların, sovqatların çatdırılmasında səfərbər oldular. Könüllülərin informasiya müharibəsində iştirakı da təqdirəlayiqdir. Onlar xüsusilə sosial şəbəkələrdə fəal olaraq Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında, erməni yalanlarının qarşısının alınmasında fəallıq göstərdilər.

Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edilib. Bu barədə danışan İmaməddin Quliyev dedi ki, cənab İlham Əliyev tərəfindən bu ilin "Könüllülər ili" elan edilməsi könüllülük fəaliyyətini 20 ilə yaxındır təşviq edən bir gənc kimi onu və bu istiqamətdə fəaliyyət göstərən təşkilatları və gənclərimizi dərindən sevindirib: "Dövlətimizin prioritet kimi üstünlük verdiyi gənclər siyasəti çərçivəsində müxtəlif fəaliyyətlər inkişaf etdirilir ki, onlardan da biri könüllülükdür. Bunun nəticəsində indiyədək çoxsaylı digər könüllülər təşkilatları və hərəkatları yaranıb, dövlət orqanlarını və özəl sferanı əhatə edən könüllülərdən ibarət qruplar formalaşıb. Könüllülük fəaliyyəti gənclərin dövlətçilik işində rolunu artırmaqla yanaşı, onların gələcəkdə şəxsi fəaliyyətlərini qura bilmələri üçün də müəyyən imkanlar yaradır, təcrübə əldə etmələrinə və özünə inam qazanmalarına səbəb olur".

İmaməddin Quliyev əlavə etdi ki, respublikamızda bu fəaliyyətin təşviqi məqsədilə dövlət tərəfindən zəruri addımlar atılıb, normativ hüquqi baza təkmilləşdirilib, dövlət dəstəyi mexanizmləri formalaşdırılıb. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib. Bu da ölkəmizdə gənclərin



fəaliyyətində könüllülüyün xüsusi yer tutduğunu və bu sahəyə marağın böyük olduğunu göstərir. AKİB prezidenti, həmçinin könüllülük fəaliyyəti ilə bağlı qarşıda dayanan vəzifələrdən və gələcək planlardan da danışdı: "Biz könüllülük fəaliyyətini yalnız beynəlxalq səviyyəli tədbirlərin təşkil edilməsində deyil, həmçinin yerli icmaların inkişafında, cəmiyyətimizi narahat edən ekoloji, sosial və digər istiqamətlərdə qarşılaşdığımız problemlərin həllində birgə fəaliyyətdə görürük. Yeniyetmə və gənclərin könüllülük haqqında maarifləndirilməsi və biliklərinin artırılması zəruridir. Könüllülük fəaliyyətində təcrübələrdən yararlanmaq üçün qeyri-hökumət təşkilatlarının üzərinə böyük iş düşür. Bu istiqamətdə beynəlxalq mübadilə proqramlarının ölkəmizdə tətbiq edilməsini çox vacib hesab edirik. 2000-ci ildən fəaliyyət göstərən təşkilatımızın əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğuna təkan vermək, sosial, iqtisadi, ekoloji problemlərin aradan qaldırılmasına töhfə vermək, bu istiqamətdə könüllülük hərəkatının fəaliyyətini artırmaq və gənclərin beynəlxalq inteqrasiyasını təmin etmək, beynəlxalq əməkdaşlığın qurulması üçün çalışmaqdır".

İmaməddin Quliyev indiyədək könüllülük fəaliyyəti və gənclərlə bağlı 50-dən çox layihənin rəhbəri olub. 20-dən çox ölkədə gənclərlə bağlı tədbirlərdə Azərbaycanı təmsil edib. 20 illik fəaliyyəti dövründə AKİB tərəfindən 200-dən çox yerli və beynəlxalq layihə həyata keçirilib. Həmin layihələr donor təşkilatlar tərəfindən dəstəklənib. Avropa Şurasının qərarı ilə AKİB 2005-ci ilin nəticələrinə görə Avropa Gənclər Mükafatı (European Youth Award) ilə təltif edilməklə Avropada ilin gənclər təşkilatı seçilib. Həmçinin təşkilat 2013-cü ildə uğurlu fəaliyyətinə görə Gənclər və İdman Nazirliyi tərəfindən mükafatlandırılıb.

AKİB tərəfindən keçirilən tədbirlər və layihələr qarşıya qoyulan hədəflərə çatılması baxımından kifayət qədər səmərəli, əhatə dairəsi baxımından isə genişdir. Təşkilat həm də digər təşkilatlar tərəfindən keçirilən könüllülüklə bağlı layihələrə də dəstək olur. 2013-cü ilin aprel ayında Gəncədə regionları təmsil edən 100 nəfər gəncin iştirakı, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçirilən "Azərbaycan Gənclərinin I Könüllülük Forumu", həmin ilin oktyabrında Ağdamda 60 nəfər gənci bir araya gətirən "Gənclərin Könüllülük və İnkişaf Düşərgəsi" layihəsi bütövlükdə respublikamızda könüllülük hərəkatının inkişafında mühüt tədbirlər olub.

Təşkilatın mühüm tədbirlərindən biri plastik tullantılara qarşı mübarizə ilə bağlıdır. Belə ki, 2019-cu ilin iyulunda Turizm və Menecment Universitetində AKİB Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının dəstəyilə "Azərbaycanda plastik tullantılara qarşı mübarizə" layihəsi çərçivəsində 30 nəfər könüllü üçün TOT (Təlimçilər üçün Təlim) seminarlar keçirilib. Ötən ilin iyun-sentyabr aylarında isə UNESCO-nun dəstəyi ilə "Azərbaycanda plastik tullantılara qarşı mübarizə" Forumu keçirilib. Forumda hökumət, qeyri-hökumət, beynəlxalq təşkilatların əməkdaşları, gənclər və gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər. Layihənin keçirilməsində məqsəd plastik tullantıların ətraf mühitə və insan sağlamlığına mənfi təsirləri barədə məlumatlılığın artırılması, tullantıların istifadəsini azaltmaq və qarşısını almaq üçün praktiki yolların tapılması, ekoloji mədəniyyəti artırmaqla Azərbaycanın turistik yerlərini təmiz saxlamaq olub. Bu çərçivədə "Gəlin çimərliklərimizi təmiz saxlayaq" devizi altında Pirşağı çimərliyində sahilyanı təmizlik kampaniyası da keçirilib. 250-dən çox könüllünün iştirakı ilə baş tutan tədbirdə 2 tona yaxın məişət tullantısı toplanaraq ərazi təmizlənib. "Azərbaycanda plastik tullantılara qarşı mübarizə" layihəsi çərçivəsində könüllülərin plastik tullantılarla mübarizə kampaniyasına qoşulmalarını həvəsləndirmək üçün sosial film də hazırlanıb.

AKİB-in mühüm layihələrindən biri də Milli qəhrəmanlarımızın tanıdılması ilə bağlıdır. Bu barədə AKİB prezidenti dedi ki, layihə rəhbəri olduğu "www.milliqahramanalar.az" saytının yaradılmasında məqsəd ərazilərimizin bütövlüyü uğrunda döyüşlərdə şücaət göstərmiş Azərbaycanın Milli qəhrəmanlarının tanıdılması və gənclərə onların həyatı, keçdiyi döyüş yolları, göstərdiyi igidliklər haqqında məlumat verməkdir. Saytda məlumatlar Azərbaycan, rus və ingilis dillərində yerləşdirilib.

AKİB 2018-ci ildən hər il 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günündə "Azerbaijan golden kids awards" uşaq nominasiyaları üzrə mükafatlandırma mərasimi keçirir. Məqsəd uşaq və gənclərin inkişafına və peşə bacarıqlarının üzə çıxmasına dəstək olmaqdan ibarətdir. 2018-2019-cu ildə keçirilən müsabiqələrdən fərqli olaraq builki müsabiqə pandemiya ilə əlaqədar onlayn formatda təşkil olunub.

AKİB-in maarifləndirici təşəbbüslərindən biri də gənclərin yol hərəkəti qaydalarına dair bilik və bacarıqlarının artırılmasıdır. Bu məqsədlə AKİB Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Bakı Nəqliyyat Agentliyi ilə birgə təşkil etdiyi və bu il başa çatan qrant müsabiqəsi çərçivəsində "Yol hərəkəti qaydalarını öyrənək və öyrədək" layihəsini həyata keçirib. Bu ilin sentyabr ayından başlanan layihədə iştirak etmək üçün 250-dən çox müraciət daxil olub, təcrübəli ekspert və təlimçilər tərəfindən seçilmiş 50 gənc iştirakçıya təlimlər keçirilib.

Ölkəmizdə koronavirus qarşı mübarizədə və xüsusi karantin dövründə könüllülərin fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Bu barədə danışan İmaməddin Quliyev dedi: "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanda xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya, hemofiliya və leykoz xəstəliyindən əziyyət çəkənlərin qanla təmin edilməsi məqsədilə dəstək çağırışına bir çox insanların, təşkilatların könüllü olaraq qoşulmaları könüllülük fəaliyyətinin yaranmış bu vəziyyətdə aktual olduğunu göstərir. Eyni zamanda yaşlı və tənha insanların ərzaq və digər zəruri məhsullarla təminatında, xeyriyyəçilik fəaliyyəti göstərən təşkilatların yardımlarının ehtiyacı olanlara çatdırılmasında könüllülərin iştirakı mühüm rola malikdir.

Könüllülər, həmçinin sosial şəbəkələrdə əhalinin şəxsi gigiyena qaydalarına əməl etmələri, özünütəcrid şəraitinə uyğun davranmaları, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmaları kimi mütəmadi paylaşımlar edirlər. Hətta könüllülər müraciət edərək koronavirusa yoluxmuş xəstələrin qayğısına qalmaq istədiklərini bildirirlər".

İmaməddin Quliyevin sözlərinə görə, könüllülərin bu istiqamətdə fəaliyyəti pandemiya bitdikdən sonra da davam etdirilməlidir: "Əldə edilmiş təcrübələrdən istifadə edərək AKİB gələcək layihələrin mütləq əksəriyyətini bu istiqamətdə keçirməyi planlaşdırır. Xüsusilə ictimai nəqliyyatdan istifadə zamanı insanların gigiyenik qaydaları pozduqları müşahidə olunur. Əldə olunan təcrübələrə istinad edərək gələcəkdə baş verə biləcək bu cür oxşar təhlükələrə qarşı qabaqlayıcı tədbirlər görmək, könüllülərin iştirakı ilə maarifləndirici layihələr həyata keçirmək olduqca vacib və əhəmiyyətlidir".

Könüllülük ölkəmizin tarixində, istərsə də adət-ənənələrində tez-tez rast gəlinən, mərhəməti, humanistliyi və həm də vətənpətvərliyi tərənnüm edən fəaliyyətdir. Könüllü olmaq ümid yeri, savab əmələ sahib olmaq, xalqına, vətəninə sosial xidmət etmək deməkdir. Bu baxımdan AKİB-in timsalında Azərbaycanda könüllülük hərəkatının inkişafını, xüsusən gənclərin fəaliyyətində xüsusi yer tutduğunu görmək mümkündür. Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci ilin Azərbaycanda "Könüllülər ili" elan edilməsi isə ölkəmizdə könüllülük fəaliyyətinin daha da inkişafında mühüm addım oldu. Görünən odur ki, könüllülük fəaliyyəti Azərbaycanda geniş yayılaraq cəmiyyətimizin bütün sferalarını əhatə edib və həyat tərzinə çevrilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Neftçilərin böyük dostu

**Azərbaycan neftçisinin fədakar əməyi həmişə, necə deyərlər, dillərdə dastan olub. Dənizin qoynunda da, qurudakı yataqlarda da çalışsa, çətin, bənzərsiz peşəsi ondan böyük zəhmət, hünər, məsuliyyət tələb edir. Odur ki, gərəkli əməyi xalq tərəfindən daim dəstəklənir, dövlət tərəfindən həmişə yüksək qiymətləndirilir. Ulu Öndər Heydər Əliyev neftçi əməyinə böyük dəyər verirdi. Prezident İlham Əliyev bu ənənəni uğurla davam etdirir, neftçilər daim dövlət başçısının diqqət mərkəzindədir.**



Ölkəmizin öz tərəfdaşları ilə birlikdə həyata keçirdiyi neft, qaz və ixrac layihələri dünyaya səs salıb. Bu layihələr Azərbaycanın iqtisadi qüdrətini artırmaqla, insanların güzəranını yaxşılaşdırmaqla yanaşı, bir sıra digər ölkələrin enerji təhlükəsizliyinin təminatına da mühüm töhfə verib. Biz həmin layihələrlə Avropanın enerji xəritəsini dəyişdirmişik. Və bu məsələlərə həsr olunan elə bir mötəbər tədbir yoxdur ki, orada Prezident İlham Əliyev "qara qızıl"ı və mavi yanacağı yerin təkindən və dənizin dibindən çıxaran, hünər yiyəsi, şan-şöhrət sahibi olan fədakar Azərbaycan neftçisinin əməyini, rəşadətini qeyd etməsin.

"Neftçi peşəsi Azərbaycanda həmişə çox hörmətli peşə olub. Bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan neftçiləri ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində çox böyük işlər görüblər, böyük töhfələr veriblər. Bu gün Azərbaycanın neft-qaz sektoru öz yeni inkişaf dövrünü yaşayır" - çıxışlarının birində Prezident belə deyib.

Digər bir tədbirdə dövlət başçısı yenə də vurğulayıb: "Azərbaycanın uğurları haqqında danışanda, əlbəttə ki, neft-qaz sənayesində əldə olunmuş nailiyyətləri, neftçilərimizin əməyini xüsusi qeyd etməliyik. Neftçilərimizin qəhrəmanlığı, fədakarlığı sayəsində bu gün müstəqil Azərbaycan uğurla inkişaf edir... Azərbaycan o ölkələrdəndir ki, neft-qaz yataqları ölkəmizə tərəqqi, xoşbəxtlik, inkişaf gətirdi".

Bu cür sitatlar onlarladır. Həm də Azərbaycan Prezidentinin dediyi söz heç zaman söz olaraq qalmır, öz real nəticəsini həyatda, işdə, əməldə tapır.

Neft, qaz böyük sərvətdir. İlham Əliyev onları hasil edən insanların daha böyük sərvət olduğunu deyir:" 1994-cü ildə kontraktın üzərində iş aparılarkən xüsusi qeyd edirdik ki, biz istəyirik kontraktda Azərbaycan vətəndaşlarının işə cəlb olunması məsələsi göstərilsin. Biz istəyirdik ki, bu, bir öhdəlik kimi konsorsiumun şirkətləri üzərinə qoyulsun ki, Azərbaycan mütəxəssisləri tədricən bütün əsas vəzifələrdə işləsinlər və belə də oldu... Bu gün "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır, yəni bunu biz təmin etdik. Bu, çox böyük sərvətdir. Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir".

Prezident İlham Əliyev neftçilərə böyük qayğı və dəstək göstərir, mübaliğəsiz desək, onların əsl dostudur. Bu dostluğun nəticələri Azərbaycan neftçisinin iş və məişət şəraitindən dolanışığınadək hər tərəfdə görünür. Hətta onun nə vaxtsa iş zamanı əyninə geyindiyi mazutlu pencəyi əvəz edən müasir kombinezonunda da...

Bunları əyani görmək üçün bircə dəfə neftçilərin çalışdığı hansısa məkana, məsələn, Neft Daşlarına səfər etmək kifayətdir. Bu gün Neft Daşlarının başqa bir cəlalı var. Dəniz-şəhərin özü də büsbütün dəyişib, neftçilərin işlədiyi və yaşadığı şərait də. Yaxın keçmişdə isə heç də belə deyildi. Prezident bu il sentyabrın 19-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edərkən həmin vaxtı belə xatırladı: "Sovet İttifaqı dağılanda biz hansı vəziyyətlə üzləşmişdik: dağılmış neft infrastrukturu... "Neft Daşları" hansı vəziyyətdə idi o vaxt. Mən xatırlayıram, "Neft Daşları"na Prezident kimi ilk dəfə 2004-cü ildə gedəndə ağır vəziyyət idi. Bütün platformalar çürümüşdü, dağılmışdı. Burada işləmək böyük çətinlik, böyük təhlükə yaradırdı".

İndi isə 71 yaşlı Neft Daşları ildən-ilə cavanlaşır, müasirləşir.

2020-ci il xalqımızı və dövlətimizi çox sınağa çəkdi. Pandemiya, müharibə... İşinin, qayğılarının aşıb-daşdığı bu mürəkkəb dövrdə də neftçilərin böyük dostu onları unutmadı. Belə ki, avqustun 10-da Prezident İlham Əliyev BDÖZ-də "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak etdi. Bu nəhəng və mürəkkəb konstruksiyanın Azərbaycan mütəxəssisləri və fəhlələri tərəfindən inşa edildiyi üçün şad olduğunu bildirdi. Həmçinin neft-qaz layihələri üçün qurğuların tikilməsi sayəsində hazırda zavodda 5 minə yaxın insanın çalışdığını və yüksək əməkhaqqı aldığını məmnunluqla qeyd etdi.

BDÖZ-də "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edərkən də dövlət başçısı həmişə olduğu kimi, yenə də vurğuladı: "Neftçilər hər zaman Azərbaycanda böyük hörmətə layiq insanlar olub. Bu gün də belədir və neftçilərin əməyi əsl qəhrəmanlıqdır. Neftçi peşəsi həm hörmətli peşədir, eyni zamanda riskli, təhlükəli peşədir və bir daha demək istəyirəm ki, onların əməyi əsl qəhrəmanlıqdır".

Prezident ölkəmizin inkişafında neftçilərin əhəmiyyətli rolunu qeyd etməklə yanaşı, Azərbaycanın uğurlu gələcəyinin də onların peşəsindən, nailiyyətlərindən böyük dərəcədə asılı olacağını dedi.

Əlavə edək ki, dövlət başçısı qocaman, dünyasını dəyişmiş neftçilərin xidmətlərini də unutmur, həmçinin vaxtilə Azərbaycanın neft maqnatlarının xalq üçün gördüyü xeyirxah işlərə yüksək dəyər verir. Çox uzağa getməyək, elə bu il paytaxtın Əmircan qəsəbəsində Murtuza Muxtarovun adına parkın istifadəyə verilməsində iştirak etməsi və onun büstü qarşısına gül dəstəsi qoyması deyilənlərə əyani misaldır. Prezident BDÖZ-də də Hacı Zeynalabdin Tağıyevin, Şəmsi Əsədullayevin, Murtuza Muxtarovun xeyirxah əməllərini bir daha yada saldı. Vaxtilə SOCAR-da əfsanəvi Neftçi Qurban - Qurban Abbasovla, görkəmli neftçi-geoloq, akademik Xoşbəxt Yusifzadə ilə birlikdə işlədiyindən qürur duyduğunu bildirdi.

Azərbaycan neftçilərinin böyük dostu Prezident İlham Əliyev həm də fəxrlə onların həmkarı olduğunu deyir. Sentyabr ayında, neftçilərin peşə bayramı ərəfəsində BDÖZ-də olarkən bunu bir daha bəyan etdi: "Şadam ki, mənim də həyatımın 9 ili Azərbaycan Dövlət Neft Şirkətində keçibdir. O illərdə əldə etdiyim təcrübə mənim üçün çox qiymətlidir və çox gözəl xatirələrim var. Əldə etdiyim təcrübə, biliklər bu gün mənə kömək göstərir... Bu gün neftçilər də görürlər ki, onların əməyi Azərbaycan xalqının maraqlarına xidmət edir və bu, onlar üçün də çox önəmlidir. Çünki onlar bilirlər ki, bu gün və bundan sonra ölkəmizin həm siyasi, həm iqtisadi nailiyyətləri böyük dərəcədə neft-qaz amilinə söykənir. Belə olan halda, bu, onları daha da ruhlandırır. Bir daha demək istəyirəm, mən hər zaman fəxr etmişəm ki, həyatımın 9 ili Dövlət Neft Şirkətində keçib və neftçilərin həmkarı kimi onları ürəkdən təbrik edirəm, yeni uğurlar arzulayıram".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Xalqın sevimli rəhbəri

**Neçə illər bundan əvvəl Ulu Öndər Heydər Əliyev televiziyada tarixi bir çıxış etdi. Xüsusi qeyd etməyə dəyər ki, o vaxt Ümummilli Lider bu çıxışı edərkən o dərəcədə mütəəssir olmuşdu ki, onu təsvir etmək belə asan deyil.**

Ulu Öndər təəssüf hissi ilə bildirdi ki, bədnam erməni terrorçuları torpaqlarımızın xeyli hissəsini qəsb etsələr də, övladlarımız bu işin öhdəsindən gələcəkdir: bir qarış da olsun torpağımız düşmən əsarətində qalmayacaq. Ümummilli Lider bu fikri o dərəcədə qətiyyətlə dedi ki, uşaqdan-böyüyə hər kəsin qəlbində bir ümid işığı yandı, alovlandı. Mən də qəlbimdə xeyli rahatlıq tapdım. Yaşadığm Ağdam şəhərini, sonra isə ata yurdum Qərvənd kəndini də tərk etməyə məcbur olsam da, Qarabağdan kənara bir addım da atmadım. İllərlə məzuniyyət belə görmədən tibb elmləri üzrə fəlsəfə doktoru Taryel Eyvazovun rəhbərliyi ilə həkimlərimiz gecə-gündüz indiki Ermənistandan olan qaçqınların, Qarabağın məcburi köçkünlərinin tibbi xidmətində olduq. Həkimlərimiz nə qədər əziyyət çəksə də, yorulsa da, Ulu Öndərimizin qətiyyəti daim onlara ruh verir, əziyyəti, yorğunluğu unutdurdular.

O vaxtlar böyük sərkərdəmizin yüksək fikri məndə belə bir inam yaratmışdı ki, nə vaxtsa qələbə bizim olacaq. Möhtərəm Prezident İlham Əliyevin məlum "yeddi şərt" qarşısında tək bircə şərt qoyması xalqımız kimi, mənim də inamımı çox artırdı. Çünki bu qətiyyət elə Ulu Öndərin qətiyyətinin davamıdır.

Şükür ki, yaşımın ixtiyar çağında sonsuz həsrətlə gözlədiyim Zəfər gününü görmək mənə də nəsib oldu. Sevincimizin hədd-hüdudu yoxdur. Çünki bir ömürdə yüz ömrün iztirabını çəkə-çəkə gözlədiyimiz doğma torpağımıza qovuşmaq həsrətinə son qoyuldu. Bu, ölkəmizin dilbər guşəsi Qarabağımızın qələbəsi idi. Təkcə Qarabağınmı?! Yox! Lerikin, Şəkinin, Şirvanın, Bakının da, Gəncənin də, deməli, bütünlüklə Vətənimiz Azərbaycanın qələbəsidir bu!

Təkcə Azərbaycanınmı?! Yox! Böyük sərkərdələrimizin məqsədyönlü qətiyyətləri sayəsində bir müsəlman ölkəsi qələbə çaldı! Bu, təkcə müsəlman qələbəsidirmi?! Yox! Bu, böyük kürsülərdə hazırlanmış iftiraların, yalanların, hər cür fitnəkarlığın üzərindəki qələbədir.

Eşq olsun bu qələbəmizin əsasını düzgün hazırlayıb, sərrast istiqamətləndirən Ali Baş Komandana! Eşq olsun bu möhtəşəm planları həyata keçirən igidlərimizə! Eşq olsun başda böyük sərkərdələrimiz olmaqla, bütün Azərbaycan xalqına!

Möhtərəm sərkərdəmiz İlham Əliyevin həm döyüş texnikası, həm də erməni havadarlarına cavabları çox sərrast, real, hədəfə düzgün hesablanmışdır. Bu düşməni və onun havadarlarını hələ də çaş-baş qoymaqdadır!

İstər bu işlərin hazırlanmasında, istərsə də həyata keçirilməsində, ölkəmizin cahanşümul qələbəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da əməyi təqdirəlayiqdir. Çətin məqamlarda onun fəaliyyəti Prezidentə təkcə həyat yoldaşı kimi deyil, həm də yenilməz silahdaşı olmasını təsdiqlədi.

Möhtərəm Prezident İlham Əliyev Qələbə sevincini bütün xalqımızla bölüşdürdü: Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla başa vurdu! Böyük sərkərdəmiz uzun illər daim liberallıq edənlərin də dərsini verdi: "Biz BMT-nin qərarlarını yerinə yetirdik!"

Bir qərinəlik iztirablarımızı götürdü üstümüzdən böyük sərkərdəmiz.

Ermənistan ordusu məhv edildi: işğalçı hakimiyyət diz çökdü!

Daha bir unudulmayacaq fakt: üç rayon (Ağdam, Kəlbəcər və Laçın) itki verilmədən boşaldıldı. Bundan da böyük dahilik olardımı?!

***Asif AĞAYEV,***
***Ağdam şəhər sakini,***
***Bərdədə müvəqqəti məskunlaşmış***
***təqaüdçü həkim***

# “Vətən müharibəsində möhtəşəm zəfər: Azərbaycanın və regionun gələcəyinə baxış” mövzusunda videokonfrans keçirilib





**Dekabrın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində “Vətən müharibəsində möhtəşəm zəfər: Azərbaycanın və regionun gələcəyinə baxış” mövzusunda videokonfrans keçirilib.**

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videokonfransda çıxış edən Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov tədbirin əlamətdar gün ərəfəsində keçirildiyini bildirib. Əli Əhmədov möhtəşəm Zəfərimizin əsas səbəbkarı olan Prezident, Ali Baş Komandanımız, YAP-ın sədri İlham Əliyevin dekabrın 24-də doğum gününün olduğunu qeyd edərək bu münasibətlə dövlətimizin başçısını təbrik edib, gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Əli Əhmədov söyləyib ki, Azərbaycanın həyatında və tarixində qazanılan möhtəşəm uğurlar hər bir vətəndaşı ürəkdən sevindirir. 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyatında baş verən davamlı inkişaf, iqtisadiyyatın sürətli yüksəlişi, ölkənin müasirləşməsi, simasının kökündən dəyişdirilməsi, Bakıda mötəbər beynəlxalq tədbirlərin keçirilməsi düşünülmüş siyasətin uğurla reallaşmasının nəticələridir.

Baş nazirin müavini qeyd edib ki, bu gün 44 gün davam edən Vətən müharibəsində qazanılmış tarixi zəfəri qeyd etməmək mümkün deyil. Azərbaycanın Vətən müharibəsində qazandığı zəfər tariximizin ən mühüm hadisələrindən biridir. Bu Qələbə tariximizə qızıl hərflərlə yazılacaq. Məhz bunun nəticəsidir ki, indi hər bir vətəndaşımız azərbaycanlı olmasının qürurunu yaşayır. Bu tarixi Qələbəni müəyyənləşdirən daha bir cəhət onun döyüş meydanında qan bahasına, can bahasına əldə olunmasıdır. Heç şübhəsiz, Azərbaycan bu Qələbəni qazanmaqla öz tarixinin qızıl səhifəsini, şərəf və ləyaqət səhifəsini yazıb.

YAP sədrinin müavini deyib ki, böyük qələbəmizin həlledici amili Prezident, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlət, xalq və ordu o zaman güclü olur ki, ona güclü lider rəhbərlik edir. Bu mənada bu gün Azərbaycan xalqının böyük coşqu ilə qeyd etdiyi Qələbəmizin baş qəhrəmanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevdir. Biz hərb və diplomatiya cəbhəsində Prezident İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini gördük. Xalqımızın, dövlətimizin birliyi, dövlət başçısına sonsuz inam bizim Qələbəmizlə nəticələndi. Bütün bunların fonunda Ermənistan tərəfindən bir neçə il ərzində zəbt olunmuş və 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərzində işğaldan azad olundu. Əli Əhmədov vurğulayıb ki, bu Qələbə Azərbaycana sülh gətirməklə yanaşı, Cənubi Qafqazda da sülh və firavanlıq üçün də etibarlı zəmin yaradır. Qazanılan möhtəşəm zəfər Azərbaycanın beynəlxalq müstəvidə mövqelərini daha da gücləndirəcək.

Tədbirdə xarici işlər naziri Ceyhun Bayramov çıxış edərək bildirib ki, 2020-ci il 8 noyabr müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə daxil oldu. Azərbaycan ərazilərinin qonşu Ermənistan tərəfindən otuz ilə yaxın davam edən hərbi işğalına son qoyuldu. Müstəqilliyinin ilk günlərindən ölkəmizin üzləşdiyi bu işğal və onun ağır nəticələri barədə, işğal altında olmuş ərazilərimizdə həyata keçirilən etnik təmizləmə və qanunsuz fəaliyyət haqqında uzun illər ərzində beynəlxalq müstəvidə səsimizi ucaltdıq, beynəlxalq birliyi bu işğala son qoyulması üçün qətiyyətli mövqe tutmağa çağırdıq.

Nazir deyib ki, bu illərdə bütün beynəlxalq tədbirlərdə münaqişə ilə bağlı həqiqətlər səsləndirilir, məsələnin tarixi, hüquqi, siyasi və iqtisadi aspektləri, eləcə də Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyi davamlı şəkildə diqqətə çatdırılırdı: “Davamlı şəkildə aparılmış iş nəticəsində bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə birmənalı dəstək verib. Ermənistanın sentyabrın 27-də növbəti hərbi təxribatına cavab olaraq Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başlanıldı və rəşadətli Ordumuzun şücaəti və qəhrəmanlığı nəticəsində noyabrın 8-dək ərazilərimizin bir hissəsi, o cümlədən 5 şəhər, 4 qəsəbə, və 286 kənd işğaldan azad olundu. Beləliklə də, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq hüquqa uyğun olaraq mülki əhalinin müdafiəsi və ölkənin ərazi bütövlüyünün təmin edilməsi məqsədilə həyata keçirdiyi əks-həmlə əməliyyatı uzunsürən münaqişənin həllini mümkün etdi və eyni zamanda sonrakı siyasi həll üçün zəmin yaratdı”.

Ceyhun Bayramov qeyd edib ki, hərbi əməliyyatlar davam etdiyi müddətdə bir çox dünya ölkələri və beynəlxalq təşkilatlar Azərbaycanın maraqlarına cavab verən mövqedən çıxış edib. Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləməklə yanaşı, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasını tələb edən və Azərbaycana qarşı hücumları pisləyən, o cümlədən Azərbaycanla həmrəyliyini ifadə edən ölkələr arasında Türkiyənin müstəsna rolunu qeyd etməklə yanaşı, Pakistan, Əfqanıstan, Bosniya və Herseqovina, Cibuti və Liviyanı xüsusilə vurğulamaq olar. Eyni yanaşma beynəlxalq təşkilatlar arasında Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Əməkdaşlıq Şurası tərəfindən nümayiş etdirilib.

Ceyhun Bayramov söyləyib ki, 10 noyabr birgə Bəyanatı ilə bölgədə yeni mərhələyə, yenidənqurma və bərpa mərhələsi, dinc birgəyaşayışın təmin edilməsi mərhələsinə qədəm qoyuldu: “Azərbaycan Prezidentinin sözləri ilə desək, əldə edilən razılaşma ilə bu gün və gələcək üçün yeni təhlükəsizlik və yeni əməkdaşlıq formatını təşkil etdik. Bu yeni reallıq nədən ibarətdir? İlk növbədə, Azərbaycan ərazilərinin onilliklərlə işğalına son qoyuldu və Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Məcburi köçkünlər öz yurdlarına geri dönməsi ilə uzun illərdir ki, öz evlərində yaşamaq hüququ pozulan insanların fundamental hüquqları həyata keçirilir. Bölgədəki bütün nəqliyyat yollarının açılması və iqtisadiyyatın bərpası şimal ilə cənub, şərq ilə qərb arasında iqtisadi-ticarət dövriyyəsinin artımına və ölkəmizin bu xüsusda rolunun gücləndirilməsinə imkanlar yaradacaq. Əlbəttə, burada ən vacib məqamlardan biri azərbaycanlı və erməni əhalisinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh və təhlükəsizlik şəraitində birgəyaşayışının təmin edilməsidir.

Azərbaycan tərəfi etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bərabər şəkildə və ayrı-seçkilik olmadan bütün ölkəmizin vətəndaşlarının hüquq və azadlıqlarını təmin edərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan erməni əsilli vətəndaşlarını ölkənin sosial, iqtisadi məkanına yenidən inteqrasiya etməkdə qərarlıdır. Bu baxımdan Azərbaycan Respublikasının Konstitusiyası müvafiq hüquqi bazanı təmin edir. Bölgənin gələcək inkişafı, bərpa və yenidənqurma fəaliyyəti ilə bağlı baxışlarımız dövlət başçısı tərəfindən açıq şəkildə ifadə olunub və bölgədə yeni əməkdaşlıq platformasının yaradılması ilə bağlı bəyanatlar səsləndirilib. Belə bir əməkdaşlıq və işbirliyi çərçivəsi, əlbəttə, bütün bölgə ölkələri üçün faydalı ola bilər. İşbirliyi çərçivəsi bölgə dövlətlərinin iştirakı ilə çoxtərəfli əməkdaşlıq platformalarını təşkil edə bilər. Dövlət başçısının 10 dekabr tarixdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə mətbuat brifinqində təqdim etdiyi bölgənin gələcək inkişafı modeli Qələbədən sonrakı yeni dövr üçün baxışları aydın şəkildə əks etdirdi: ənənəvi mövcud olan Türkiyə-Azərbaycan-Gürcüstan işbirliyi, eyni zamanda Azərbaycan-Rusiya-İran, eləcə də Türkiyə-Rusiya-İran işbirliyi çərçivələri mövcuddur. Bütün bu işbirliyi platformalarını ümumiləşdirib vahid platforma kimi təqdim edə bilərik. Əgər Ermənistan rəhbərliyi müharibədən düzgün nəticələr çıxararsa və öz əsassız iddialarından əl çəkərsə və gələcəyə sağlam düşüncə ilə baxarsa, o zaman onların da bu platformada yeri ola bilər. Bununla da gələcəkdə bölgədə müharibə riski sıfıra endirilə bilər”.

Xarici işlər naziri diqqətə çatdırıb ki, bu gün biz artıq konkret layihələrin, o cümlədən multimodal tranzit layihələri və genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinə başlamışıq: “İşğaldan azad olunmuş bütün ərazilərin bərpası və bu ərazilərdə vətəndaşlarımızın normal həyatının təmin edilməsi üçün bütün müvafiq addımlar atılacaq. Prezidentin Ehtiyat Fondundan ayrılmış müvafiq vəsait hesabına Füzuli-Şuşa avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolunun tikintisinə artıq başlanıb. İnanırıq ki, bütün bu və gələcəkdə həyata keçiriləcək layihələr bölgəyə yeni nəfəs gətirəcək. Bərpa və yenidənqurma işlərində, eləcə də öz evlərinə geri qayıdan məcburi köçkünlərə humanitar yardımın göstərilməsi məsələlərində ölkəmiz bölgədəki sülh və sabitliyə töhfə vermək niyyətində olan bütün aidiyyəti təşkilatlar, o cümlədən BMT-nin müvafiq qurumları, habelə ayrı-ayrı dövlətlərlə işləməyə hazırdır. Biz yalnız müştərək əzmkarlıq, xüsusilə dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı ilə bağlı olan beynəlxalq öhdəliklərə qarşılıqlı şəkildə tam əməl etməklə dinc, təhlükəsiz və firavan gələcəyə nail ola bilərik.

Yekunda vurğulamaq istərdim ki, bundan sonra da səylərimiz ikitərəfli və çoxtərəfli münasibətlərdə maraqlarımıza cavab verən, qarşılıqlı hörmət və bərabərhüquqluluq prinsipləri əsasında əməkdaşlığın inkişaf etdirilməsi, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasına dost ölkələrin və tərəfdaş beynəlxalq təşkilatların cəlb olunması, bölgədə yeni əməkdaşlıq və inkişaf təşəbbüslərinin təşviq edilməsi ilə Azərbaycanın beynəlxalq aləmdə siyasi və iqtisadi mövqeyinin gücləndirilməsinə yönələcək. Prezident İlham Əliyevin qətiyyətli, uzaqgörən və uğurlu siyasəti əsasında ölkəmizin davamlı inkişafı və regional, eləcə də qlobal rolunun möhkəmləndirilməsi istiqamətində səylərimiz davam etdiriləcək”.

Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli çıxışında bildirib ki, zaman göstərdi ki, yalnız Heydər Əliyev siyasəti nəticəsində Dağlıq Qarabağ münaqişəsini həll etmək mümkündür. Prezident İlham Əliyev məhz bu siyasətə sadiqlik nümayiş etdirərək problemin həllinə nail oldu. Bu qələbə ilə Prezident İlham Əliyev böyük sərkərdə kimi adını tarixə yazdırdı.

Dağlıq Qarabağ münaqişəsinin yaranma tarixindən və problemin başladığı ilk illərdəki proseslərdən danışan Əli Hüseynli xatırladıb ki, həmin dövrdə respublikamızda qeyri-sabitlik hökm sürürdü. Xüsusilə AXC-Müsavat cütlüyü hakimiyyətə qanunsuz gəldikdən sonra ilk günlərdə strateji əhəmiyyətə malik olan Laçın rayonu işğal edildi. Bununla da işğalçı Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlılıq yarandı. 1993-cü ilin aprelində Kəlbəcərin işğal edilməsi ilə bu coğrafi bağlılıq daha da genişləndi. Həmin ilin yay aylarında ölkədə siyasi böhranın dərinləşməsi torpaqlarımızın işğalının genişlənməsinə zəmin yaratdı. Belə olan halda Azərbaycan xalqının çağırışı, ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdı. Qısa müddətdə respublikada sabitlik yaradıldı. 1993-cü ilin noyabrında Ulu Öndər Heydər Əliyevin xalqa müraciəti ilə insanlar silaha sarılaraq erməni işğalının qarşısını almaq üçün mübarizəyə başladılar. Bunun nəticəsində işğal altında olan torpaqlarımızın bir hissəsi azad edildi. 1994-cü ildə atəşkəsin imzalanması ilə ölkəmizin inkişafında, eləcə də ordu quruculuğunda əsaslı mərhələ başladı.

Birinci vitse-spikerin sözlərinə görə, bu müddətdə Ulu Öndərimiz diplomatik müstəvidə fəal siyasət həyata keçirdi. Bunun nəticəsində beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyan sənədlər qəbul etdi. Bu proses Prezident İlham Əliyevin fəaliyyəti dövründə daha da geniş miqyas aldı. Təbii ki, həmin sənədlər torpaqlarımızın hərbi yolla azad edilməsi üçün hüquqi baza yaratdı.

Əli Hüseynlinin fikrincə, bu gün Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması 1991-ci ildə müstəqilliyimizin bərpa edilməsinə bərabər hadisədir. Yeni mərhələdə regionda yeni əməkdaşlıq üçün geniş imkanların açıldığını deyən birinci vitse-spiker qeyd edib ki, Ermənistan bu tarixi şansdan istifadə etməlidir. Təhdidlərə gəlincə, Əli Hüseynli söyləyib ki, Azərbaycanın qələbəsindən daha çox Qərbdəki erməni lobbisi, ermənipərəst dairələr narahatdır. Amma regiondakı yeni əməkdaşlıq platforması heç bir halda Qərblə, Avropa ölkələri ilə əlaqələrə problem yaratmayacaq. Onun fikrincə, heç bir qüvvə Azərbaycan-Avropa İttifaqı əlaqələrinə mane ola bilməz.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov isə çıxışında işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialı ilə bağlı fikirlərini bildirib. O, Qarabağın regional innovasiya mərkəzinə çevrilməsi ilə bağlı əsas hədəf və məqsədləri açıqlayıb, bu istiqamətdə infrastruktur, institusional və elm-təhsil istiqamətləri üzrə təkliflər səsləndirib.

Rektor Prezident tərəfindən müəyyənləşdirilən iqtisadi inkişaf modelinin formalaşdığını və işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın həmin modelin baza prinsiplərinə əsaslanaraq həyata keçiriləcəyini diqqətə çatdırıb. Ölkə başçısının müvafiq sərəncamına əsasən, işğaldan azad olunan ərazilərə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyasının yaradıldığını, hazırda həmin ərazilərdə bərpa işlərinə başlanıldığını bildirib.

Ölkə iqtisadiyyatında investisiya yatırımına ehtiyacı olan region və sahələrin olduğunu deyən rektor Qarabağ iqtisadiyyatının bu baxımdan Azərbaycanın gələcək dayanıqlı və davamlı inkişafı üçün əlverişli və əvəzolunmaz şans olduğunu deyib. Professor Ə.Muradov “Rəqəmsal Qarabağ” Dövlət Proqramının hazırlanmasının, Qarabağda müasir tələblərə cavab verən yeni ali təhsil müəssisələrinin yaradılmasının, eləcə də Qarabağın simvolu olan Şuşa şəhərində “Smart city” (“Ağıllı şəhər”) modelinin qurulmasının faydalı olacağını vurğulayıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, hazırda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə post-münaqişə quruculuğu strategiyası həyata keçirilir. Bu inkişaf strategiyası işğaldan azad olunan ərazilərin reinteqrasiyası və dəyər zəncirlərinə qoşulması ilə həyata keçiriləcək. Onun sözlərinə görə, dövlət başçısının bəyan etdiyi kimi, yeni əməkdaşlıq platforması region ölkələrinin xalqları üçün böyük fayda gətirəcək. V.Qasımlı regionda həyata keçirilən layihələrlə yanaşı, münaqişədən sonra yeni layihələrin də gerçəkləşməsinin əhəmiyyətini vurğulayıb və bunu slaydlarla təqdim edib. İcraçı direktor gələcəkdə həyata keçirilə bilən nəqliyyat və enerji layihələrinin önəmini diqqətə çatdırıb. Onun sözlərinə görə, Ermənistanın inkişafı Azərbaycan və Türkiyə ilə əməkdaşlıqdan asılıdır.

V.Qasımlı diqqətə çatdırıb ki, ilkin mərhələdə işğaldan azad olunmuş ərazilərimizdə görülən işlər nəticəsində ölkəmizin kənd təsərrüfatında 10,4 faiz, mədənçıxarma sənayesində 5,3 faiz, emal sənayesində 4,3 faiz, turizmdə 5,5 faiz artım gözlənilir. Bütövlükdə isə, bu amil ÜDM-də 3 faiz, qeyri-neft sektorunda 5,1 faiz artımla müşahidə olunacaq.

# İran-Azərbaycan əlaqələri səmimi dostluğa əsaslanır



**“Müharibənin başa çatması və Azərbaycan ərazilərinin işğaldan azad edilməsi sevindirici haldır”.**

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevlə görüşündə deyib. O bildirib ki, Qarabağın işğaldan azad edilməsi regionun inkişafı üçün yeni imkanlar yaradıb.

Azərbaycan Prezidenti İlham Əliyevin İran-Azərbaycan sərhədinin dostluq və qardaşlıq sərhədi olması haqqında fikrini təqdir edən Mahmud Vaezi diqqətə çatdırıb ki, rəsmi Tehran da sərhədin dostluq və qardaşlıq sərhədi olmasından məmnundur. Yeni siyasi reallıq ikitərəfli əlaqələrin inkişafı ilə yanaşı, İran-Azərbaycan-Rusiya, həmçinin İran-Azərbaycan-Türkiyə üçtərəfli əməkdaşlıqları üçün də faydalı olacaq, regiondakı problemlərin aradan qaldırılmasında əhəmiyyətli rol oynayacaq.

Mahmud Vaezi qeyd edib ki, hazırda İran-Azərbaycan əlaqələri inkişaf mərhələsindədir. Hər iki dövlət beynəlxalq əhəmiyyətli iqtisadi layihələrin həyata keçirilməsinə çalışır. Onun sözlərinə görə, yanvarın 16-da Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə dövlətlərarası komissiyanın iclası keçiriləcək. Bu iclasda dəmir yolu xəttinin tikintisinin, su bəndi və elektrik stansiyasının inşasının tamamlanması məsələləri müzakirə ediləcək.

Administrasiya rəhbəri həmçinin vurğulayıb ki, İran-Azərbaycan əlaqələri xalqların mənafeyinə uyğun olaraq səmimi dostluğa əsaslanır.

# Baş nazirin müavini Şahin Mustafayevin İranda keçirdiyi görüşlərdə əməkdaşlığa dair bir sıra məsələlər müzakirə olunub

Dekabrın 22-də Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasına səfər edib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər zamanı Şahin Mustafayev İran İslam Respublikası Prezidenti Administrasiyasının rəhbəri Mahmud Vaezi, energetika naziri Rza Ərdəkanian, müdafiə və silahlı qüvvələrə dəstək naziri Əmir Hatəmi ilə görüşüb və danışıqlar aparıb. Görüşlər zamanı İran rəsmiləri uzun illərdir işğal edilmiş Azərbaycan ərazilərinin azad olunması münasibətilə təbriklərini çatdırıblar. İran tərəfinin işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işlərində hərtərəfli dəstək göstərməyə hazır olduğu ifadə edilib. Həmçinin ölkələrimiz arasında yol-nəqliyyat, energetika, iqtisadi-ticarət, infrastruktur, o cümlədən hərbi-texniki sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri haqqında müzakirələr aparılıb.

İran Prezidenti Administrasiyasının rəhbəri Mahmud Vaezi ilə keçirilən görüşdə ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipinin əhəmiyyəti vurğulanıb. Azərbaycanın işğal altındakı ərazilərinin azad olunmasından və Dağlıq Qarabağ münaqişəsinin başa çatmasından rəsmi Tehranın məmnun olduğu ifadə edilib.

Qeyd olunub ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi regionda sülhün və sabitliyin təmin olunmasında vacib şərtdir və Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinə nəzarətin bərpa edilməsi dost və qardaş İran İslam Respublikası ilə daha geniş əməkdaşlıq üçün yeni fürsətlər və perspektivlər yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan-İran sərhədini dostluq sərhədi adlandırmasının İranda xoş qarşılandığı və yüksək qiymətləndirildiyi qeyd edilib.

Hər iki ölkənin dövlət başçılarının siyasi iradəsi ölkələr arasında əməkdaşlığın miqyasını ən yüksək səviyyəyə qaldırıb.

Energetika Nazirliyində keçirilən görüşdə iki ölkə arasında elektroenergetika sahəsində əməkdaşlıq əlaqələri müzakirə olunub, icrada olan layihələrin sürətləndirilməsi istiqamətində atılacaq addımlar barədə fikir mübadiləsi aparılıb. Azərbaycan-İran-Rusiya enerji sistemlərinin birləşdirilməsi, Azərbaycan-İran-Türkiyə arasında elektrik enerjisi ticarəti məsələləri müzakirə edilib. Araz çayının su və enerji potensialından səmərəli istifadə edilməsi üçün icra olunan layihələrin əhəmiyyəti vurğulanıb. “Ordubad” və “Marazad” su elektrik stansiyaları ilə bağlı məsələlər müzakirə edilib, o cümlədən “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları və su elektrik stansiyalarının tikintisinin tezliklə başa çatdırılması üçün atılacaq növbəti addımlar, həmçinin layihələrin icrası məqsədilə yaradılmış komissiyalar və işçi qrupları tərəfindən keçirilən görüşlər və onların nəticələri müzakirə edilib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində elektroenergetika sahəsində əməkdaşlıq imkanları və bərpa-yenidənqurma işlərində İran şirkətlərinin iştirakı məsələlərinə dair fikir mübadiləsi aparılıb. Həmçinin sərhəd çaylarının birgə istismarı sahəsində Azərbaycan ilə İranın əməkdaşlığının dünyada nümunə olduğu vurğulanmış, növbəti ildə Naxçıvan MR ərazisində “Araz” SES və hidroqovşağının birgə istismarının 50 illiyinin yüksək səviyyədə qeyd edilməsi razılaşdırılıb.

Müdafiə və Silahlı Qüvvələrə Dəstək Nazirliyində keçirilən görüş zamanı iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlıq məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb. İran tərəfi işğaldan azad olunmuş ərazilərdə mina və partlayıcı maddələrin zərərsizləşdirilməsi sahəsində öz təcrübə və imkanlarını Azərbaycan tərəfi ilə bölüşməyə hazır olduğunu bildirib.

# ABŞ Azərbaycanı din azadlığının təmin edildiyi ölkə hesab edir

ABŞ hökuməti tərəfindən din azadlığı pozulmuş ölkələrlə bağlı ictimaiyyətə məlumat verilib, eyni zamanda ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının (BDAK) bununla əlaqədar bəyanatı dərc edilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Departamentinin məlumatında 1998-ci il tarixli Beynəlxalq Dini Etiqad Azadlığı Aktına əsasən, ölkələr “xüsusi narahatlıq yaradan” və “xüsusi izləmə” olmaqla 2 təsnifat üzrə qruplaşdırılıb.

Qeyd edək ki, BDAK-ın bəyanatında Komissiya tərəfindən dərc edilmiş 2020-ci il hesabatında növbəti dəfə ədalətsizliyə yol verilərək bir sıra ölkələrlə yanaşı, Azərbaycanın da “xüsusi izləmə” siyahısına daxil olunması tövsiyəsi xatırladılıb. Lakin ABŞ-ın dövlət katibinin tövsiyəsi əsasında Azərbaycan bu il “xüsusi narahatlıq yaradan” və ya “xüsusi izləmə” siyahılarına daxil edilməyib.

# Naxçıvanda şəhid ailələri və yaralananlara Dəstək Fondunun saytı yaradılıb

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına Dəstək Fondunun saytı yaradılıb.**

AZƏRTAC xəbər verir ki, **http://destekfondu.nmr.az** domenində fəaliyyət göstərən sayta daxil olmaqla ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək vermək mümkündür.

Saytın “Köçürmələr” bölümündə könüllü olaraq maliyyə vəsaiti şəklində yardımlar edən hüquqi və fiziki şəxslərin siyahısı və yardımın miqdarı yer alır.

Saytın “Müraciət” bölümündəki “Şəhid ailələri” və “Müharibədə yaralananlar” alt bölümlərinə daxil olub qeydiyyatdan keçməklə müraciət ünvanlamaq mümkündür. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov dekabrın 14-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına Dəstək Fondunun yaradılması haqqında fərman imzalayıb. Fond və onun yeni saytı bu kateqoriyadan olan şəxslərə əlavə dəstək verilməsi məqsədilə yaradılıb.

# Azərbaycan tarixinə şərəf, ləyaqət, qürur yazan Ali Baş Komandan

"Prezident İlham Əliyev 30 illik münaqişəni 44 gün ərzində həll edən, Qələbə ilə təqvimimizə ilk dəfə Zəfər günü yazan böyük sərkərdədir. Qazanılan hərbi zəfər nəticəsində Azərbaycan tarixi artıq 27 sentyabrdan etibarən yeni dövrünə qədəm qoyub".




AZƏRTAC xəbər verir ki, bu fikirlər Yevlax Şəhər İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) rayon təşkilatının birgə təşkilatçılığı ilə "Azərbaycan tarixinə şərəf, ləyaqət, qürur yazan Ali Baş Komandan İlham Əliyev" mövzusunda keçirilən elmi-praktik videokonfransda səsləndirilib.

Videokonfransda Milli Məclisin deputatları, YAP rayon təşkilatının şura üzvləri, ərazi ilk partiya təşkilatlarının sədrləri, partiya fəalları, bələdiyyələr, icra nümayəndələri, idarə, müəssisə rəhbərləri iştirak ediblər.

Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev konfransda çıxış edərək Prezident İlham Əliyevin Azərbaycan dövlətinin, vətəndaşının taleyinə, xalqımızın tarixinə ən böyük, ən gur işıq saldığını və bu işıqlı yolla bizləri böyük zəfərlərə çatdırdığını bildirib. Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyev siyasi məktəbinin davamçısı olduğunu söyləyən Anar Tağıyev Azərbaycanın bugünkü inkişafının məhz Heydər Əliyev ideyalarının uğurla həyata keçirilməsi nəticəsində mümkün olduğunu deyib. Prezident İlham Əliyevin şəxsi keyfiyyətlərindən, təşəbbüskarlıqla yanaşı, yüksək məsuliyyətindən, sözünə imzası qədər əhəmiyyət verməsindən və həyatının bütün dövrlərində xalqına verdiyi vədləri əməli ilə doğrultmasından ətraflı danışıb.

Bildirib ki, Prezident İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasət nəticəsində Azərbaycan qüdrətli dövlətə çevrilib. Xalqımız inamlı, əzmli və güclüdür. Anar Tağıyev 44 günlük müharibə dövründə Prezidentin yaxın silahdaşı, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın həyata keçirdiyi humanizm missiyasını da yüksək dəyərləndirib.

O, haqq savaşında qəhrəmancasına şəhid olan hərbçilərimizə rəhmət diləyib, Vətən müharibəsində yevlaxlıların da Ali Baş Komandanın rəhbərliyi ilə düşmənə qarşı vuruşan müzəffər Ordumuzun sıralarında göstərdiyi şücaətdən bəhs edib. Milli Məclisin Əmək və sosial-siyasət komitəsinin sədri Musa Quliyev çıxışında bildirib ki, Azərbaycan tarixi uğurlarını məhz Prezident İlham Əliyevin rəhbərliyi altında əldə edib. 17 il ərzində Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına 2 il sədrlik edib, kosmik dövlətlər klubuna üzv olub, bir çox humanitar, beynəlxalq səviyyəli idman tədbirlərinə, iqtisadi forumlara evsahibliyi edib. Ölkəmiz öz sosial-iqtisadi inkişafına görə dünyanın 100 ildə keçə bilmədiyi inkişaf yolu keçib.

Musa Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qələbəsindən, ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsindən də danışıb.

Milli Məclisin deputatı, YAP Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva dövlət başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin uğurlu xarici və daxili siyasətindən ətraflı söz açıb. Bildirib ki, bu siyasət Azərbaycanın dünyadakı beynəlxalq imicini davamlı olaraq yüksəldir. Dünyanın güclü dövlətləri ilə əlaqələrin qurulması Vətən müharibəsi dövründə əksər dövlət başçılarının Azərbaycanın haqq işini dəstəkləməsi bunun bariz nümunəsi və əyani sübutudur.

Konfransda çıxış edən Milli Məclisin deputatı, YAP Gəncə Şəhər Təşkilatı Qadınlar Şurasının sədri Pərvin Kərimzadə Azərbaycanın dövlətçilik tarixindən, Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki böyük rolundan danışıb. Bildirib ki, Prezident İlham Əliyevin milli maraqlara söykənən siyasətinin nəticəsidir ki, 44 günlük Vətən müharibəsində ordumuz yeni zəfər tarixi yazdı və 30 illik işğala son qoyaraq, üçrəngli bayrağımızı ruhumuzun paytaxtı olan Şuşada, azad olunmuş kənd, qəsəbə və şəhərlərimizdə ucaltdı.

Milli Məclisin deputatı Müşfiq Məmmədli videokonfransda Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə səhiyyə və sosial sahədə həyata keçirilən Dövlət proqramlarından söz açıb və görülən işlərin insanların sağlamlığı, sosial rifahı və təminatı sahəsində mühüm rol oynadığını qeyd edib.

Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli çıxışında bildirib ki, müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyev Vətən müharibəsi tarixinə öz adını Qarabağ fatehi kimi yazaraq Prezident-Ordu-Xalq birliyinin sarsılmaz və əbədi olduğunu bir daha sübut etdi.

Daha sonra çıxış edən Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Yevlax Rayon Təşkilatının sədri İlham Məmmədov bildirib ki, Şuşamızı, torpaqlarımızın hər bir qarışını yağı düşməndən azad edən əsgərlərimiz yeni bir tarix yazmağı bacardılar. Vətən müharibəsində bir daha əmin olduq ki, xalq-Prezident, xalq-iqtidar birliyi sarsılmazdır. Bu birlik şəhid övladına ağlamayaraq, "Vətən sağ olsun", - deyən anaların, nəşini çiynində daşıyan şəhidin həyat yoldaşlarının, "fəxr edirəm ki, atam Vətən yolunda şəhid olub", - deyən övladların varlığındadır. Xalq-Heydər birliyinin əbədi, sarsılmaz olduğunu sübut edən Azərbaycan xalqı "İlhamla irəli" deyərək Prezidentimizin ətrafında sıx birləşib, ona inanır, etibar edir və öz xoşbəxt, firavan, işıqlı gələcəyini İlham Heydər oğlu Əliyevdə görür.

# Milli Məclisin komitələrinin birgə iclasında "Siyasi partiyalar haqqında" qanuna dəyişikliklərə baxılıb

**Dekabrın 23-də Milli Məclisin İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin onlayn formatda birgə iclası keçirilib.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclası açan Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli əvvəlcə iclas iştirakçılarını Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda şanlı Ordumuzun 44 günlük savaşdakı möhtəşəm Qələbəsi münasibətilə təbrik edib. Vitse-spiker bu Zəfərin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin atdığı uğurlu diplomatik addımların nəticəsi olduğunu deyib. Fəzail İbrahimli bu Qələbəni həm də dünyanın müxtəlif ölkələrindəki erməni lobbisi və erməni təəssübkeşliyi üzərində Azərbaycanın qalibiyyəti, haqqın, ədalətin zəfər çalması kimi dəyərləndirib.

Sonra "Siyasi partiyalar haqqında" qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə olunub.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli sənədə təklif edilən dəyişikliklərin mahiyyəti barədə danışıb. Qeyd edilib ki, qanunun "Siyasi partiyalara dövlət büdcəsindən vəsaitin ayrılması" adlanan 17-1-ci maddəsinə dəyişikliklər təklif olunur. Əli Hüseynli vurğulayıb ki, siyasi partiyaların maliyyələşməsi üçün hər il dövlət büdcəsindən vəsait ayrılır. Qanunun hazırda qüvvədə olan mətnində "dövlət büdcəsindən ayrılmış vəsaitin 10 faizinin siyasi partiyalar tərəfindən irəli sürülən, etibarlı səslərin azı 3 faizini qazanan, lakin Milli Məclisdə təmsil olunmayan həmin partiyalar arasında proporsional olaraq bölündüyü" qeyd olunub. Bu sahədə mövcud olan boşluqların aradan qaldırılması üçün təklif olunan yeni dəyişiklikdə həmin məbləğ 10 faizdən 5 faizə endirilir. Məbləğin digər 5 faizi isə təkrar və əlavə seçkilərdə qələbə qazanan deputatların partiya mənsubiyyətinin yaranması ilə əlaqədar parlamentdə təmsil olunan yeni siyasi partiyalara ayrılır.

Təklif olunan dəyişikliklərdə qanunun tətbiqi zamanı yarana biləcək vəsait çatışmazlığının aradan qaldırılması mexanizmləri, siyasi partiyaları təmsil edən deputatların saylarının artması və azalması, Milli Məclisdə yeni siyasi partiyaların təmsil olunması hallarında vəsaitin hesablanma tarixi əksini tapıb. Dəyişikliklərdə siyasi partiyaların dövlət büdcəsindən ayrılan vəsaitdən imtina etdiyi zaman həmin vəsaitin dövlət büdcəsinə qaytarılması yox, Milli Məclisdə təmsil olunan partiyalar arasında dördüncü rübün sonunda bərabər olaraq bölünməsi nəzərdə tutulub.

Onlayn iclasda deputatlar Ceyhun Məmmədov, Anar İsgəndərov, Sahib Alıyev çıxış edərək müzakirə olunan bilən qanun layihəsi ilə bağlı fikirlərini bildiriblər. Yeni dəyişikliklərin dövlətlə siyasi partiyalar arasında əlaqələrin gücləndirilməsində, siyasi partiyaların daha səmərəli fəaliyyət göstərməsində mühüm rol oynayacağı vurğulanıb.

Müzakirələrin sonunda qanun layihəsinin birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

Toplantıda hər iki komitənin üzvləri olan deputatlar iştirak ediblər.

# 2021-ci ilin büdcə zərfi Milli Məclisin 7 komitəsinin birgə iclasında müzakirə olunub

**Dekabrın 23-də Milli Məclisin Əmək və sosial siyasət, Elm və təhsil, Mədəniyyət, Səhiyyə, Ailə, qadın və uşaq məsələləri, İctimai birliklər və dini qurumlar, Gənclər və idman komitələrinin onlayn formatda keçirilən birgə iclasında "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfindəki digər qanunlar birinci oxunuşda müzakirəyə çıxarılıb. İclasda hökumət rəsmiləri və Hesablama Palatasının təmsilçiləri iştirak ediblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, 8 məsələdən ibarət gündəlikdəki qanun layihələrinin beşi büdcə zərfinə daxildir.

İclasda "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib ki, bu sənəd komitədə çox geniş müzakirə olunub və Milli Məclis sədrinin tapşırığına əsasən, bütün komitələrin deputatları üçün translyasiya edilib, bu, Azərbaycan parlamentinin tarixində bir ilkdir.

O, qeyd edib ki, qanunvericiliyə uyğun olaraq büdcə zərfi və Hesablama Palatasının rəyi deputatlara təqdim olunub. Qısa müddətdə belə bir rəyin hazırlanması təqdirəlayiqdir. Gələn ilin büdcəsi manat ifadəsində Azərbaycanın ən böyük büdcəsidir. Qarabağda qazanılmış Qələbənin iqtisadi sahəyə transformasiya olunması büdcədə öz əksini tapıb. Pandemiya ilə əlaqədar dünya və ölkə iqtisadiyyatının cari ildə çətinliklər yaşamasına baxmayaraq, 2021-ci ildə Azərbaycan iqtisadiyyatının 3,4 faiz artması planlaşdırılır.

Daha sonra "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən Tahir Mirkişili deyib ki, gələn il üçün İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlirləri və xərcləri eyni miqdarda olmaqla 157 milyon 769 min 146 manat nəzərdə tutulub.

Onlayn iclasda gündəlikdəki 6 məsələni Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim edib. Bildirib ki, 44 günlük müharibədə qazandığımız Zəfər büdcə parametrlərinin müəyyənləşməsinə də ciddi təsir göstərib. İşğaldan azad olunmuş torpaqlarımızın bərpası ilə yanaşı şəhid ailələrinin və qazilərin sosial problemlərinin həlli də diqqət mərkəzinə çəkilib. Hər zaman olduğu kimi, yeni büdcədə də sosial sahəyə üstünlük verilib.

"Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" (birinci oxunuş) qanun layihəsinə əsasən, bu fondun gələn il üçün həm gəlirləri, həm də xərcləri 5 milyard 146 milyon 30 min 160 manat həcmində proqnozlaşdırılır ki, bu da ötən illə müqayisədə 161 milyon manat və ya 7,5 faiz çoxdur. Bildirilib ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirlərinin 68,4 faizini məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar təşkil edəcək.

Deputatların diqqətinə çatdırılıb ki, büdcə zərfindəki qanun layihələrində 2021-ci il üçün yaşayış minimumu ölkə üzrə 196 manat, əmək qabiliyyətli əhali üçün 207 manat, pensiyaçılar üçün 162 manat, uşaqlar üçün 175 manat məbləğində müəyyən edilir. 2021-ci il üçün ehtiyac meyarının həddi isə ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədi ilə 170 manat məbləğində nəzərdə tutulur.

Komitədə birinci oxunuşda müzakirəyə təqdim olunmuş "Sosial sığorta haqqında", "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə üç qanun layihəsi də ölkəmizdə sosial təminat sahəsinin daha da yaxşılaşdırılmasına xidmət edəcək.

İclasda büdcə zərfi barədə fikirlərini açıqlayan maliyyə naziri Samir Şərifov əvvəlcə 2021-ci ilin büdcə müzakirələrinin bu formatda təşkilinə görə Milli Məclisin sədri Sahibə Qafarovaya minnətdarlığını bildirib.

Nazir qeyd edib ki, gələn ilin dövlət büdcəsi ölkəmiz üçün əlamətdar bir dövrdə hazırlanıb. Şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Ermənistanın hərbi-siyasi təcavüzünə son qoyub, tezliklə soydaşlarımız öz doğma yurdlarına qayıdacaqlar. Gələn ilin büdcəsində işğaldan azad olunmuş bölgədə bərpa və yenidənqurma işlərinə 2,2 milyard manat məqsədli vəsait ayrılıb.

Nazir vurğulayıb ki, layihədə gələn ilin dövlət büdcəsinin gəlirləri 25 milyard 427 milyon manat, xərcləri 28 milyard 543 milyon manat müəyyənləşdirilib. Samir Şərifov deputatlara 2021-ci ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat, elm və təhsil, səhiyyə və mədəniyyət, bədən tərbiyəsi və gənclər siyasəti və digər sahələrin fəaliyyətinə ayrılan vəsaitlər barədə də ətraflı məlumat verib.

Sonra iclasda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev büdcə zərfində bu sahəyə ayrılan vəsaitlər və başçılıq etdiyi sahənin fəaliyyət planları barədə parlamentarilərə geniş məlumat verib. Bildirib ki, cari ildəki bütün çətinliklərə baxmayaraq, hökumətin ana xətti əhalinin sosial rifahının yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi və bütün sosial proqramların icra olunmasıdır.

Nazir qeyd edib ki, DSMF-nin gələn il üçün büdcəsi 2020-ci ilin dürüstləşdirilmiş büdcəsindən 361 milyon manat və ya 8 faiz çoxdur. Büdcədəki bir sıra göstəricilər özəl sektorun inkişafına, iqtisadiyyatda daha aktiv rol almasına imkan yaradacaq. Vergi güzəştlərinin tətbiqi, minimum əməkhaqqının 130 manatdan 250 manata qaldırıldığı barədə danışan nazir bir sıra əlaqədar nazirlik və qurumların səyləri ilə özəl sektorda çox ciddi leqallaşmaya nail olunduğunu vurğulayıb. Bunun nəticəsində əldə edilən gəlirlərin məqsədyönlü sahələrə yönəldildiyini deyib.

DOST-un fəaliyyəti, sosial dəstək tədbirləri, şəhid və qazi ailələrinə göstərilən diqqət, rekord sayda ailənin özünüməşğulluq layihəsinə cəlb edildiyi və sair barədə məlumat verib. Sahil Babayev qeyd edib ki, nazirliyin əsas hədəflərindən biri işğaldan azad olunmuş ərazilərimizin sosial-iqtisadi inkişafına töhfə verməkdir, 2021-ci ildə əsas diqqət bu bölgələrə geri dönəcək vətəndaşlarımızın layiqli məşğulluğunun təmin olunmasına yönəldiləcək.

Müzakirə zamanı Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev, Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, deputat Arzu Nağıyev vurğulayıblar ki, qalib xalqın nümayəndəsi kimi dövlət büdcəsinin müzakirəsini aparmaq qürur və iftixar doğurur.

Çıxışlarda büdcənin peşəkarlıqla hazırlanması və sosialyönümlü olması, Ali Baş Komandanın rəhbərliyi və şəhidlərimizlə qazilərimizin şücaəti sayəsində işğaldan azad olunmuş Dağlıq Qarabağın və ətraf bölgələrimizin bərpasına büdcədə xüsusi diqqət ayrılması yüksək dəyərləndirilib. Təkliflər irəli sürülüb, tövsiyələr bildirilib.

Yekunda nazirlər Samir Şərifov və Sahil Babayev deputatların qaldırdıqları məsələlərə münasibət bildiriblər.

Yeddi komitənin birgə iclasında Azərbaycan Respublikasının 2021-ci il üçün büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi başa çatdıqdan sonra deputatların yekdil qərarı ilə baxılan məsələlərin hamısı birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Parlament komitələrinin birgə iclasında 2021-ci ilin büdcəsi müzakirə edilib

**Dekabrın 23-də Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Hüquq siyasəti və dövlət quruculuğu, Təbii ehtiyatlar, energetika və ekologiya, Aqrar siyasət, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr, Regional məsələlər komitələrinin videokonfrans formatında keçirilən birgə iclasında "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəsi keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov iclası açaraq bildirib ki, 2020-ci il Azərbaycan Respublikasının şanlı dövlətçilik və müstəqillik tarixinə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, Ermənistan üzərində qazanılan parlaq hərbi-siyasi Qələbə ili kimi həkk olunub. Ölkəmiz öz ərazi bütövlüyünü bərpa etməklə yeni dövrə qədəm qoyub. Bu yeni mərhələdə dövlət orqanları qarşısında işğaldan azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və fəaliyyəti üçün şəraitin təşkil edilməsi kimi mühüm çağırışlar formalaşıb.

Qeyd edilib ki, bu il eyni zamanda bütün dünyanı əhatə etmiş pandemiya ilə mübarizə ili kimi də yadda qalacaq. Azərbaycanda koronavirusun müalicəsi ilə əlaqədar bir sıra mühüm tədbirlər həyata keçirilib. Ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatına və 30-dan artıq dövlətə 10 milyon dollar həcmində yardım göstərib. Azərbaycan Prezidentinin Birləşmiş Millətlər Təşkilatının xüsusi sessiyasının keçirilməsi ilə bağlı xüsusi təşəbbüsü oldu və oktyabr ayında bu sessiya baş tutdu. Cənab Prezident bu tədbirdə həm Qoşulmama Hərəkatının üzvü olan 120 dövlətin adından, həm də Azərbaycan Prezidenti kimi çıxış etdi. Sessiyada pandemiya ilə mübarizənin yolları barədə geniş fikir mübadiləsi aparıldı. Cənab Prezident həmin tədbirdə Azərbaycanın verdiyi töhfələrdən bəhs edib və xüsusi vurğulayıb ki, pandemiyadan əziyyət çəkən ölkələrə vaksinlərin verilməsi bərabər şəraitdə aparılmalıdır. Bu sessiya bir daha göstərdi ki, beynəlxalq münasibətlər sistemində Azərbaycanın rolu getdikcə artmaqdadır.

Sonra Ziyafət Əsgərov 2021-ci ilin dövlət büdcəsinin ümumi parametrləri barədə məlumat verib. Diqqətə çatdırılıb ki, 2021-ci il dövlət büdcəsinin gəlirləri 25,4 milyard manat nəzərdə tutulur. Bu 2020-ci ilin proqnozu ilə müqayisədə 1,3 milyard manat və yaxud 5,4 faiz çoxdur.

2021-ci il dövlət büdcəsinin xərcləri 28,5 milyard manat proqnozlaşdırılır ki, bu da 2020-ci ilə nisbətən 1 milyard manat və ya 3,8 faiz çoxdur.

Qeyd olunub ki, 2021-ci il dövlət büdcəsinin əsas prioritetləri işğaldan azad olunmuş ərazilərin bərpası, ölkənin müdafiə potensialının gücləndirilməsinin davam etdirilməsi və pandemiyanın mənfi təsirlərinin azaldılması tədbirləridir. Növbəti ilin dövlət büdcəsinin ümumi xərclərinin 63,1 faizi cari xərclərə, 29,2 faizi əsaslı xərclərə, 7,7 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə yönəldiləcək.

2021-ci il dövlət büdcəsinin müdafiə və milli təhlükəsizlik xərcləri 4 milyard 586 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilə nisbətən 781,5 milyon manat çoxdur.

Xərclərin əsas istiqamətləri müəyyən edilərkən ən ümdə prioritet kimi qəbul edilən və 2020-ci ildə Azərbaycan xalqının apardığı Vətən müharibəsi nəticəsində 30 ilə yaxın bir müddətdən sonra düşmən işğalından azad olunan ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin görülməsi, pandemiyanın bütün dünyada olduğu kimi, ölkəmizdə də yaratdığı çağırışlar, eləcə də qlobal iqtisadi vəziyyət və tendensiyalar nəzərə alınıb.

İşğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin bərpası və yenidən qurulması, bu ərazilərdə müasir infrastrukturların yaradılması, o cümlədən elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal, digər zəruri infrastrukturların, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və digər məqsədlərlə 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub.

2021-ci il üçün dövlət büdcəsinin sosialyönümlü xərcləri 11,1 milyard manat məbləğində proqnozlaşdırılır. Bu, 2020-ci illə müqayisədə 563,8 milyon manat və ya 5,3 faiz çoxdur. Elm xərclərinə 183,3 milyon manat, təhsil xərclərinə 3 milyard 278 milyon manat vəsait ayrılması nəzərdə tutulub. Təhsilə ayrılan xərclər 2020-ci ilə nisbətən 242,9 milyon manat və ya 8 faiz çoxdur. Səhiyyə xərcləri üçün 1 milyard 409 milyon manat vəsait ayrılacaq.

2021-ci ilin dövlət büdcəsində kənd təsərrüfatı bölməsi üzrə 943 milyon manat vəsait nəzərdə tutulub ki, bu da 2020-ci illə müqayisədə 45,4 milyon manat və ya 5,1 faiz çoxdur.

Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə ölkənin müdafiə potensialının gücləndirilməsi və Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə 2,1 milyard manat, cari illə müqayisədə 500 milyon manat və ya 31,3 faiz çox vəsait nəzərdə tutulub.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili büdcə ilə bağlı fikirlərini aşıqlayaraq bildirib ki, 2021-ci ildə Azərbaycan iqtisadiyyatı artım və pozitiv meyillərlə başlayacaq. Növbəti ildə ümumi daxili məhsulda 3,4 faiz artım gözlənilir, neftin qiymətinin daha yüksək olması planlaşdırılır. Neftin qiymətinin büdcədə 40 dollardan götürülməsi növbəti ilin büdcəsinin daha dayanıqlı olmasına əsas verir. Qeyd edilib ki, təqdim olunmuş sənəddə büdcənin riskləri də aydın şəkildə göstərilib. Bu eyni zamanda növbəti il üçün pul siyasətinin və fiskal büdcə siyasətinin istiqamətlərinin göstərilməsi daha çox təhlil aparmağa imkan verir.

Komitə sədri 2021-ci ildə Azərbaycan dövləti və iqtisadiyyatı qarşısında duran mühüm çağırışlardan bəhs edib. Bildirilib ki, bu çağırışlardan biri pandemiya ilə mübarizə tədbirləridir. Ümumi proqnozlara görə, peyvəndin tətbiq olunması mart-aprel aylarına qədər planlaşdırılır. Azərbaycan iqtisadiyyatı və büdcəsi buna hazırdır. Növbəti il iqtisadi cəhətdən dövlətlə özəl sektor arasında yeni münasibətlərin qurulmasında mühüm il olacaq.

Tahir Mirkişili bildirib ki, komitənin ümumi rəyi ondan ibarətdir ki, büdcə məqbuldur, ölkə Prezidenti tərəfindən Azərbaycan dövləti və cəmiyyəti qarşısında qoyulan çağırışlara cavab vermək üçün mühüm maliyyə mənbələri və imkanları yaradır.

Onlayn iclasda iştirak edən maliyyə naziri Samir Şərifov bildirib ki, 2021-ci ildə də 2020-ci ildə həyata keçirilən büdcə siyasətinin davam etdirilməsi vacibdir. Bizim büdcə xərclərimiz daha da artıq olmalıdır ki, biz iqtisadiyyatımızın inkişafına əlavə təkan verək, əsasən də iqtisadi aktivliyi canlandıraq və sahibkarlara dəstək verə bilək. Qeyd olunub ki, növbəti il qarşımızda böyük vəzifələr durur. İşğaldan azad olunmuş torpaqlarımızın bərpası, ordumuzun hərbi qüdrətinin möhkəmlənməsi ilə əlaqədar müvafiq maliyyə təminatı yaradılmalıdır. Eyni zamanda sosial proqramların həyata keçirilməsi, dövlətin beynəlxalq miqyasda fəaliyyətinin təbliğ edilməsi, təhsil, mədəniyyət, digər sahələrin maliyyələşməsi təmin olunmalıdır.

Maliyyə naziri 2021-ci ilin dövlət büdcəsinin əsas parametrləri barədə ətraflı məlumat verdikdən sonra bildirib ki, növbəti ilin büdcəsi tarixi büdcədir. Ona görə ki, biz Qələbə qazanmış dövlətin büdcəsini təqdim edirik. Bu büdcə, ilk növbədə, doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımızın öz torpaqlarına qayıtması üçün şəraitin yaradılması, orada müvafiq infrastrukturun qurulması, iş yerlərinin açılması kimi önəmli vəzifələrin həyata keçirilməsini təmin edəcək. Eyni zamanda əhalinin sosial müdafiəsinin və yaşayış səviyyəsinin yüksəldilməsi, ölkəmizin təhlükəsizliyinin təmin edilməsi üçün maliyyə təminatı yaradan büdcədir.

Müzakirələr zamanı komitə sədrləri Siyavuş Novruzov, Səməd Seyidov, Sadiq Qurbanov, Tahir Rzayev, deputatlardan Hikmət Məmmədov, Kamran Bayramov, Səttar Möhbalıyev, Nigar Arpadarai, Elman Nəsirov, Aydın Mirzəzadə, Asim Mollazadə 2021-ci ilin dövlət büdcəsi barədə fikirlərini açıqlayıblar.

Müzakirələrin yekununda maliyyə naziri Samir Şərifov millət vəkillərinin səsləndirdikləri bəzi məqamlara aydınlıq gətirib.

Tədbirin sonunda "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Milli Məclisin komitələrində 2021-ci ilin dövlət büdcəsinin müzakirələrinə başlanılıb



**Dekabrın 23-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası açan komitənin sədri Tahir Mirkişili iclasın gündəliyinə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan qanun layihələri daxil edildiyini bildirib. Qeyd edib ki, qanun layihələri birinci oxunuşda müzakirə olunacaq.

Komitə sədri deyib ki, pandemiyanın ən çox təsir etdiyi qurumlardan biri də Milli Məclisdir. Pandemiya dövründə Milli Məclisin bir çox tədbirləri onlayn formatda keçirilib. Hazırda burada gedən canlı müzakirələr isə ilk dəfədir ki, onlayn formatda bütün deputatlara translyasiya olunur. Milli Məclis sədri Sahibə Qafarovanın tapşırığına əsasən, həyata keçirilən bu yeniliklərin məqsədi parlamentin bütün üzvlərini büdcənin ümumi parametrlərinin müzakirəsi ilə tanış etmək, yarana biləcək suallara cavab vermək və büdcə müzakirəsinin daha ictimai, daha geniş keçirilməsini təmin etməkdir.

Komitə sədri diqqətə çatdırıb ki, başa çatmaqda olan 2020-ci il bir sıra problemlərlə yadda qaldı. Lakin Azərbaycan xalqı və dövləti dünyada yeganə xalq və dövlət olacaq ki, bu ili Qələbə ili kimi qeyd edəcək. 44 günlük Vətən müharibəsi Azərbaycan dövlətinin gücünü bütün dünyaya göstərdi. Xalq-iqtidar, xalq-Prezident birliyi və sevgisi bu Qələbənin qazanılmasına imkan yaradıb. Bu Qələbənin əldə olunmasında təbii ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı uğurların, güclü iqtisadiyyatın rolu böyükdür.

Komitə sədri diqqətə çatdırıb ki, 2020-ci ilin sonunadək ölkə iqtisadiyyatının 4,9 faiz azalacağı əvvəlcədən proqnozlaşdırılmışdı. Ötən ilin büdcəsinin dürüstləşdirilməsi zamanı neftin qiyməti 35 dollar götürülmüşdü, hazırda isə 41 dollar təşkil edir. 2021-ci ildə isə neftin qiymətinin 15 faiz artacağı proqnozlaşdırılır və bu, dövlət büdcəsində neftin qiymətinin 40 dollar götürülməsini məqbul edir.

2020-ci ildə azalmalarla yanaşı, müsbət irəliləyişlər də var. Bu, kənd təsərrüfatı, rabitə və digər sahələrlə bağlıdır. 2020-ci ilin dövlət büdcəsinin gəlirlərində neft sektorunun payı 58 faiz, qeyri-neft sektorunun payı isə 42 faiz olub.

Komitə sədri bildirib ki, 10 il əvvəl büdcədə qeyri-neft sektorunun payı cəmi 26 faiz olub. İndi bu rəqəm 46 faizə qədər artıb. Bütün bunlar Azərbaycan iqtisadiyyatında aparılan islahatların nəticəsidir.

"Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi barədə (birinci oxunuş) danışan maliyyə naziri Samir Şərifov bildirib ki, sona çatan 2020-ci il Azərbaycan tarixində müstəsna il kimi qalacaq. Çünki 2020-ci ildə Azərbaycan Ordusu Ermənistanın hərbi təcavüzünə son qoyub. Bu şanlı Zəfərin təmin olunması üçün həyatlarını qurban vermiş şəhidləri böyük ehtiramla anırıq. Onların uğrunda şəhid olduqları Vətən torpaqlarının yenidən qurulması bu gün qarşımızda duran ən ümdə məsələdir. Bu məqsədlə gələn ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılması nəzərdə tutulub.

Nazir bildirib ki, Ordumuza da əlavə vəsaitin ayrılması nəzərdə tutulur. Ümumilikdə, müdafiə xərclərinin cəmi 4,6 milyard manata yaxınlaşır.

Nazir diqqətə çatdırıb ki, 2020-ci ildə pandemiyanın insanlara təsirinin aradan qaldırılması üçün genişmiqyaslı tədbirlər həyata keçirilib. 2021-ci ildə də işğaldan azad olunmuş ərazilərimizdə həyata keçiriləcək mühüm işlər var.

2021-ci il və sonrakı 3 il üçün dövlət və icmal büdcə layihələri "Büdcə sistemi haqqında" qanuna uyğun şəkildə hazırlanıb. Prezidentin müəyyən etdiyi kimi, qeyri-neft sektorunun inkişafı əsas götürülüb. Növbəti ildə baş verəcək dəyişikliklər və bunun Azərbaycan iqtisadiyyatına təsirləri, ölkə iqtisadiyyatının makroiqtisadi reallıqları və iqtisadi inkişafın növbəti mərhələsinə keçidlə bağlı gözləntilər nəzərə alınıb. İlin sonuna iqtisadiyyatımızın 4 faizədək kiçilməsi gözlənilir.

Hökumət tərəfindən iqtisadiyyatın canlandırılması üçün vacib tədbirlərin görülməsi nəzərdə tutulur. İqtisadi və sosial dəstək paketinin bir qismi reallaşıb, bir qisminin isə növbəti ildə də reallaşması planlaşdırılır. Hökumətin əsas amalı odur ki, iqtisadi fəallıq bərpa olunsun.

Nazir bildirib ki, gələn ilin büdcəsində mənfəət vergisi üzrə daxilolmaların artması gözlənilir. Digər daxilolmalar isə 700 milyon manat nəzərdə tutulur.

Nazir məlumat verib ki, 2021-ci il dövlət büdcəsinin xərcləri 28 milyard 543 milyon manat (ÜDM-də xüsusi çəkisi 37,7 faiz) proqnozlaşdırılır ki, bu da 2020-ci ilə nisbətən 1 milyard 50,8 milyon manat və ya 3,8 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 4 milyard 117,1 milyon manat və ya 16,9 faiz çoxdur. 2021-ci ilin dövlət büdcəsində müdafiə və təhsil xərcləri 5,1 faiz artımla nəzərdə tutulur.

Nazir qeyd edib ki, Prezident İlham Əliyev vətəndaşların rifahının daha da yaxşılaşdırılmasını daim diqqətdə saxlayır. Bu, gələn ilin büdcə layihəsində də öz əksini tapıb.

Sonra çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, 2020-ci ildə bütün mövcud çətinliklərə baxmayaraq, ölkəmizdə makroiqtisadi sabitlik daha da gücləndirilib. İqtisadiyyatın kiçilməsi müşahidə edilsə də, ölkə iqtisadiyyatı yüksək dayanıqlılıq nümayiş etdirib. Bunu qeyri-neft sektoruna xüsusilə aid edə bilərik. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərin bərpası, orada yaşayan insanların geri qayıtması, onların məşğulluğunun təmin edilməsi əsas vəzifələrdəndir.

Nazir qeyd edib ki, cari ildə sərt karantin tədbirlərinin tətbiqi Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyib. Belə ki, əsas kapitala investisiya qoyuluşları azalıb. Özəl sektor üzrə investisiyalar 8 faiz artıb, dövlət təşkilatları üzrə investisiyalar isə azalıb. Bir sıra xərc istiqamətlərində də artımlar baş verib. Yanvar-noyabr aylarında inflyasiya nəzərə alınmaqla, əhalinin gəlirləri düşüb. Bu ilin sonuna kimi qeyri-neft sektorunda ixracın təxminən 5,6% həcmində azalacağı proqnozlaşdırılır. Bunun əsas səbəbi bizim əsas ticarət tərəfdaşımız olan ölkələrdə yerli valyutanın dəyərdən düşməsidir.

Nazir diqqətə çatdırıb ki, hökumət tərəfindən pandeminin iqtisadiyyata təsirlərinin yumşaldılması istiqamətində mühüm işlər görülüb. Görülən tədbirlər nəticəsində Azərbaycan hökuməti iqtisadi tənəzzülü nisbətən yumşaltmağa nail ola bilib. Cari ilin yanvar-noyabr aylarında vergilər üzrə 6,8 milyard manat vəsaitin dövlət büdcəsinə daxil olunması təmin edilib.

Qeyri-neft sektoru üzrə daxilolmalarının artmasının səbəblərindən biri də qeyri-neft sektorunda çalışan işçilərin əməkhaqqının da vergi sisteminə daxil olmasıdır.

Bu da ölkədə kölgə iqtisadiyyatının həcminin azalmasına səbəb olub. 2020-ci ildə ilin əvvəlindən qeyri-neft sektoru, özəl sektorda yeni müqavilə ilə işəgötürmələrin sayı 84 mindən çoxdur.

İclasda çıxış edən Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov ölkədə pul-kredit siyasəti barədə məlumat verib. Bildirib ki, növbəti ildə maliyyə sabitliyinin qorunması, maliyyə sektoruna dəstək, sığorta, qiymətli kağızlar bazarının dərinləşməsi, burada olan problemlərin həlli istiqamətində geniş strategiya hazırlanıb. Əmanətlərin sığortalanmasına yeni keçid də bu sabitliyin qorunmasına dəstək verəcək. 2021-ci ilin dövlət büdcəsi dünyada iqtisadi aktivliyin qeyri-müəyyən olduğu şəraitdə proqnozlaşdırılır. Pandemiya ayrı-ayrı ölkələrin iqtisadiyyatını mühüm sınaqlara çəkəcək. Bütün resursların səmərəli istifadə edilməsi iqtisadi artımın, rifahın yüksəldilməsi istiqamətində olduqca böyük nəticələr əldə etməyə imkan yaradacaq.

Qeyd olunub ki, iqtisadiyyatın artımı və inkişafı üçün ölkədə kifayət qədər manevr imkanları var. Görülən tədbirlər nəticəsində ölkədə makroiqtisadi sabitlik təmin olunub.

Elman Rüstəmov bildirib ki, iqtisadi subyektlərin gəlirlərindəki itkilər Prezident İlham Əliyevin qəbul etdiyi konsepsiya əsasında qismən aradan qaldırılıb. Ölkənin strateji valyuta ehtiyatları il ərzində sabit qalıb. Mərkəzi Bankın valyuta ehtiyatları 3 faizdən çox artıb. Mərkəzi Bankın valyuta ehtiyatlarının artması göstərir ki, bazarda valyuta çatışmazlığı yoxdur. Bütün bunlar deməyə əsas verir ki, bu ili 2,8-3,3 faiz aşağı inflyasiya ilə başa vura biləcəyik. 2018-2020-ci illərdə iqtisadiyyatda pul təklifi 54 faizədək artıb. Bütövlükdə isə manatla kreditlər 5,5 faiz azalıb. Pulun çoxalması kreditlərin də artmasına səbəb olub. Cari ildən artıq biznes kreditlərində artım var. İqtisadi fəallığın aşağı düşməsinə baxmayaraq, maliyyə sahəsində fəallıq davam edir.

Sonra çıxış edən Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, 2021-ci ildə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsaitin artması nəzərdə tutulur. Növbəti ildə yaşa görə pensiyanın ümumi məbləği 370 manat, əlilliyə görə isə 337 manat olaraq planlaşdırılır. Ölkəmiz həm minimum, həm də orta aylıq pensiya üzrə MDB ölkələri arasında liderliyini qoruyur. Ümumilikdə, 27 növ xidmət elektron qaydada təyin edilir. Elektronlaşma ümumi pensiya təyinatlarının 85 faizini əhatə edir. Hazırda 16 növ elektron arayış vətəndaşların istifadəsinə verilib. İlin sonuna qədər elektron arayışların sayının 30-a çatdırılması planlaşdırılır.

Nazir bildirib ki, 2020-ci ildə özəl sektorda işçilərin ixtisarına yol verilməməsi üçün mütəmadi monitorinqlər həyata keçirilib.

Pandemiya dövründə dövlət orqanlarında çalışanların 80%-i işə çıxmasa da, onlara əməkhaqları ödənilib.

Nazir qeyd edib ki, növbəti ildə işğaldan azad olunmuş ərazilərə qayıdacaq insanların məşğulluğunun təmin olunmasına da xüsusi diqqət yetiriləcək, 16 min ailənin özünüməşğulluğu təmin ediləcək.

Qeyd olunub ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) əleyhinə yekunlaşan məhkəmə qərarlarının sayı 89% azalıb. Bu da bir daha fondun fəaliyyətində sağlamlaşmanın göstəricisidir.

Nazir bildirib ki, fondun fəaliyyətinin şəffaflaşdırılması işləri davam etdirilir. Məmur-vətəndaş təması olmadan elektron qaydada müavinət və pensiya təyinatları həyata keçirilir. DSMF əhaliyə xidmət modelini ən yüksək səviyyədə həyata keçirməyə davam edəcək.

Nazir diqqətə çatdırıb ki, 2021-ci ildə DSMF-nin gəlirləri və xərcləri 5 mlyrd.146 milyon manat nəzərdə tutulub.

İclasda çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, 2021-ci ilin dövlət büdcəsi azad olunmuş torpaqlara da tətbiq olunan ilk büdcədir. 2021-ci ilin dövlət büdcəsi layihəsi ilə birlikdə hazırlanan və təqdim olunan sənədlər "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğundur və büdcə zərfinin şəffaflığının təmin edilməsinə şərait yaradır.

Müzakirələr zamanı iclasda çıxış edən Milli Məclisin deputatları Əli Məsimli, Ziyad Səmədzadə, Mahir Abbaszadə, Aydın Hüseynov və Vüqar Bayramov 2021-ci ilin Dövlət büdcəsi layihəsi barədə fikirlərini bildirdilər, təkliflərini veriblər.

İclasın sonunda maliyyə naziri Samir Şərifov və Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov deputatların səsləndirdikləri fikirlərə münasibət bildirdilər.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, 2021-ci ildə İşsizlikdən sığorta Fondunun büdcəsi 157 milyon manat, ölkə üzrə 2021-ci il üçün yaşayış minimumu 196 manat, əmək qabiliyyətli əhali üçün 207 manat, pensiyaçılar üçün 162 manat, uşaqlar üçün 175 manat məbləğində müəyyən edilir. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2021-ci il üçün ehtiyac meyarının həddi isə 170 manat məbləğində nəzərdə tutulur.

İclasın sonunda "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2021-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələri və "Büdcə sistemi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin iclasında müzakirəyə tövsiyə olunub.

# Maria RİZZOTTİ: "Öz təəssüratlarımızı ifadə etdiyimizə görə bizi ölümlə hədələyənlər mənə sülh istəyən təəssüratı bağışlamır"

İtaliya Senatının üzvü, dekabrın 5-7-də İtaliya parlament nümayəndə heyətinin tərkibində Azərbaycana səfər etmiş senator Maria Rizzotti ölkəsinə döndükdən sonra "Strumenti Politici" saytına müsahibə verərək səfər haqqında fikirlərini bölüşüb.

Senator həmçinin səfərdən sonra İtaliya parlamentarilərinə qarşı ermənilər tərəfindən edilən təzyiq və təhdidlərdən danışaraq deyib: "Nümayəndə heyətinin üzvlərinə hər gün ünvanlanan təhdidlər məni, həqiqətən də, narahat edir və bununla polis məşğul olacaq. Öz təəssüratlarımızı ifadə etdiyimizə, parlament üzvü kimi o ərazilərə səfər etdiyimizə görə bizi ölümlə hədələyənlər mənə o qədər də sülhə meyilli və sülh istəyən təəssüratı bağışlamır. Təkrar edirəm, bununla polis məşğul olacaq, təhqirin sosial şəbəkələrə xas olduğunu bilirik, fiziki təhdidlər isə başqa məsələdir və tam fərqlı kontekstə aiddir".

AZƏRTAC xəbər verir ki, səfərin məqsədləri barədə suala cavab verən senator nümayəndə heyətinin missiyasının məhz araşdırma və sülh məqsədi daşıdığını deyib. "Bilirəm ki, Ermənistan vətəndaşları hökumətlərinin sülh seçiminə etiraz edirlər və bu, təbii ki, yaxşı əlamət deyil. Azərbaycan hökumətinin üzvləri, Prezident İlham Əliyevlə keçirdiyimiz görüş zamanı dövlət başçısı bir daha qeyd etdi ki, Ermənistanın işğalından azad olunan bütün ərazilərdə azərbaycanlılar ermənilərlə sülh və dinc şəraitdə yaşaya bilərlər. İllər ərzində Avropa Şurası, NATO və BMT Azərbaycanın işğal olunmuş ərazilərinin geri qaytarılması barədə və uzunmüddətli sülhü bərqərar etmə yollarının müəyyən olunması üçün qətnamələr qəbul edib. Söhbət beynəlxalq səviyyədə atılmış addımlardan gedir. Yerevanın bu münasibəti təəccüb doğurur. Çünki məsələn, təkcə Bakıda 20 mindən çox erməni mükəmməl əmin-amanlıq içərisində yaşayır. Azərbaycan 1918-ci ildə - ABŞ-dan da əvvəl qadınların səsvermə hüququnu tanıyan birinci dünyəvi müsəlman ölkəsi olub. Ona görə də müxtəlif dinlərin sülh şəraitində birgəyaşayışı həmişə Azərbaycana xas xüsusiyyət olub. Təsadüfi deyil ki, dini bayramlar zamanı bir icmanın rəhbəri fərqli etnik və dini mənsubiyyəti olan digər həmkarını da dəvət edir. Bir çox yerdə, təkcə Bakıda deyil, Avropadan kənar başqa ölkələrdə də ermənilərin azərbaycanlılarla sülh şəraitində birgə yaşaması artıq reallıqdır. Ona görə də Ermənistan tərəfindən belə sərt münasibət məni təəccübləndirir", - deyə italyan senator bildirib.

Maria Rizzotti qeyd edib ki, əgər Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsəydi, münaqişə baş verməzdi. Senator işğal vaxtı azərbaycanlı mülki əhaliyə qarşı törədilmiş cinayətlərdən danışaraq Xocalı qətliamını xatırladıb və bir gecə içində 600-dən çox mülki azərbaycanlının qətlə yetirildiyini, ümumilikdə isə, 1 milyondan artıq azərbaycanlının öz torpaqlarını tərk etməyə məcbur edildiyini deyib.

Münaqişədə digər ölkələrin rolu ilə bağlı sualı cavablandıran senator bildirib: "Türkiyə Azərbaycana mənəvi dəstək verərək Birləşmiş Millətlər Təşkilatının qətnamələrinin tam yerinə yetirilməsinə çağırıb. Rusiya isə Ermənistana yaxın ölkə olmasına baxmayaraq, hər zaman deyib ki, "biz Ermənistanı müdafiə məqsədilə yalnız onun ərazilərinə hücum olunduğu təqdirdə müdaxilə edə bilərik". Azərbaycan isə Ermənistan ərazisinə hücum etməyib. Hərbi əməliyyatlar yalnız Ermənistan tərəfindən işğal olunan ərazilərdə həyata keçirilib. Təəssüf ki, kasetli bombalar vasitəsilə Azərbaycan şəhərlərinə edilən hücumların şahidi olduq". Senator vurğulayıb ki, ədalət bərqərar olmadan sülh mümkün deyil və beynəlxalq təşkilatların buna nail olmaq üçün Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş 7 rayonunun azad edilməsi ilə bağlı qətnamələr qəbul etməsi təsadüfi deyil.

Jurnalist erməni tərəfinin həmin qətnamələrin müharibə müddətində qəbul olunduğu və atəşkəsə nail olmaq məqsədi daşıdığı və onların yerinə yetirilməsi üçün Ermənistandan Dağlıq Qarabağdakı ermənilər üzərində olan nüfuzundan istifadə etməyi istədiyi, bu qətnamələrin Ermənistanın Azərbaycanın 7 rayonunun işğalına görə məsuliyyət daşıdığını nəzərdə tutmadığını iddia etməsi ilə bağlı senatorun fikirlərini soruşub. Sualı cavablandıran parlamentari deyib: "Əvvəla, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri atəşkəsdən əlavə, bütün işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılmasını tələb edirdi ki, bu da 27 il ərzində həyata keçirilmədi. Bundan əlavə, müxtəlif beynəlxalq təşkilatlar tərəfindən çoxsaylı digər qətnamələr qəbul olunub və buna 2008-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul olunmuş, Ermənistanın Azərbaycanın torpaqlarını işğal etdiyinə görə məsuliyyət daşıdığı bildirilən və işğalçı qüvvələrin Azərbaycan torpaqlarından çıxmasını tələb edən qətnaməni misal göstərmək olar. Həm də deyə bilərəm ki, işğal həmin ərazilərdə yaşayış, dini, sənaye və kənd təsərrüfatı əhəmiyyətli bütün reallıqların tam məhvinə gətirib çıxarıb".

Senator münaqişənin səbəblərinin də təhrif olunduğunu və bunun dini müharibə olmadığını, Azərbaycanın müsəlman çoxluqlu dünyəvi və din azadlığının tam təmin edildiyi ölkə olduğunu, eyni zamanda qadınların cəmiyyətdə müstəsna rol oynadıqlarını və dövlət idarələrində mühüm vəzifələr tutduqlarını bildirib.

Jurnalistin münaqişənin ən gərgin mərhələsində Türkiyə tərəfindən Suriya muzdlularının Dağlıq Qarabağa göndərilməsi barədə suala senator belə cavab verib: "Bunu siz və sizin mənbələriniz deyir. Mən bilirəm ki, bu fakt inkar olunub və bu barədə sübutlar yoxdur. Mən dəlillərə güvənirəm. Heç bir beynəlxalq təşkilat, nə də orada olan ruslar muzdluların mövcudluğunu təsdiq etmədi. Amma bilirəm ki, Livandan və başqa ölkələrdən erməni dəstələri vuruşmağa gediblər. Ermənistanın hakim dairələri də başqa ölkələrdən gələn erməni əsilli muzdluların ordu sıralarında mövcudluğunu etiraf ediblər".

Azərbaycanın mülki əhalisinə qarşı istifadə olunan kasetli bombaların nəticələrini öz gözləri ilə gördüklərini deyən Maria Rizzotti bildirib: "İşğaldan azad olunmuş bütün ərazilər minalarla doludur və bu əraziləri yararlı vəziyyətə gətirmək üçün illər lazım olacaq. Əgər bir və ya digər tərəfin bir-birinə qarşı nələr etdiyini düşünməyə davam etsək, sülhə qarşı olan hissləri qidalandırmış olacağıq. Özü də bir halda ki, Azərbaycan tərəfindən işğaldan azad olunmuş ərazilərdə yaşayan ermənilərin xoş qarşılanacağı rəsmi olaraq açıqlanıb".

İtalyan senator Ermənistanda hökumət binasının qarşısında keçirilən etirazların, italyan parlament nümayəndə heyətinin üzvlərinin ölümlə hədələnməsi kimi halların erməni tərəfinin sülhə olan münasibətinin göstəriciləri olduğunu deyib. Uzunmüddətli və davamlı sülh üçün bir yolun tapılacağına ümid etdiyini bildirən senator Azərbaycana missiyanın məqsədinin dialoqu gücləndirmək olduğunu vurğulayan Maria Rizzotti diqqətə çatdırıb: "Çətin bir dövr arxada qoyulmalı, məlumatlandırma işi davam etdirilməlidir. Keçmişlə yaşayıb, keçmişə baxmaqla sülhə nail olmaq mümkün deyil. Müharibə ölkələrə rifah gətirmir. Bu səhifəni bağlamaq və inkişafa nail olmaq üçün ədaləti təmin etmək əsas şərtdir".

# Səfərbərlik üzrə hərbi xidmətə çağırılmış vətəndaşların yaxın vaxtlarda mərhələli şəkildə tərxis edilməsi gözlənilir

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi səfərbərlik üzrə hərbi xidmətə çağırılmış vətəndaşların tərxis edilməsi ilə bağlı məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, nazirliyin "Facebook"dakı rəsmi səhifəsində yerləşdirilən məlumatda deyilir: "Səfərbərlik üzrə hərbi xidmətə çağırılmış bəzi şəxslər, xüsusilə ailəli vətəndaşlarımız sosial şəbəkələr vasitəsilə nə zaman ehtiyata buraxılaraq evlərinə geri dönəcəkləri ilə bağlı narahatlıq ifadə edirlər. Bu tərəfimizdən anlayışla qəbul olunur.

Bildiririk ki, Müdafiə Nazirliyi tərəfindən onların ehtiyata buraxılması ilə əlaqədar sənədlər hazırlanıb və müvafiq qaydada aidiyyəti qurumlara göndərilib. Yaxın vaxtlarda bu kateqoriyadan olan şəxslərin mərhələli şəkildə tərxis edilməsi gözlənilir".

# Azad edilmiş ərazilərimizdə yerləşdirilən qoşunların təminatı fasiləsiz həyata keçirilir



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində "Dəmir yumruq" əməliyyatını həyata keçirərək işğal altındakı torpaqlarımızı qısa müddətdə düşməndən azad etdi.

Ali Baş Komandanın dəmir iradəsi, sarsılmaz qətiyyəti, xalqımızın birliyi və şanlı Ordumuzun şəxsi heyətinin şücaəti nəticəsində 44 günlük müharibə Azərbaycanın tam qələbəsi ilə başa çatdı.

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin "Facebook"dakı rəsmi səhifəsində yerləşdirilən məlumatda hazırda Azərbaycan Ordusunun 30 ilə yaxın müddətdə işğal altında olan, tam dağıdılmış, viran edilmiş, heç bir infrastrukturun olmadığı və minalanmış ərazilərdə, yeni yerlərdə dislokasiya edildiyi bildirilir. Qeyd olunub ki, digər dövlət qurumları ilə yanaşı, Müdafiə Nazirliyinin rəhbərliyi də bu ərazilərdə yerləşdirilən hərbi hissələrin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində planlı və məqsədyönlü fəaliyyət göstərir.

Onu da nəzərə almaq lazımdır ki, bu işlər yüksək dağlıq, çətin keçilən yüksəkliklərdə sərt qış iqlimi şəraitində, eyni zamanda çöl-meşə coğrafi relyefinə uyğun ərazidə icra olunur. Hərbi hissələrə, mövqe və postlara yeni yollar çəkilir, elektrik, su və qaz xətləri quraşdırılır, şəxsi heyətin yaşayışı və xidməti üçün zəruri məişət şəraiti yaradılır.

Müdafiə nazirinin əmri ilə nazirliyin müvafiq qurumlarının vəzifəli şəxsləri mütəmadi qaydada şəxsi heyətin yanında olur və şəraitə uyğun tələbatlar öyrənilir. Hərbi qulluqçular ərzaq və əşya təminatı normalarına uyğun bütün təminat növləri ilə fasiləsiz təmin olunur. Çöl şəraitində yerləşən bölmələrə əlavə çadırlar, sobalar və digər zəruri avadanlıq çatdırılır.

Müxtəlif istiqamətlərdə səyyar mobil hamam-camaşırxana xidmətləri təşkil olunur, hərbi qulluqçular isti geyim formaları, yataq dəstləri, keyfiyyətli ərzaqla təmin edilir. Dağlıq ərazidəki hərbi hissələrin şəxsi heyəti normalara uyğun olaraq yüksək kalorili əlavə ərzaq payı ilə təmin olunur. Bununla yanaşı, anbarlarda kifayət qədər ehtiyat da mövcuddur.

Azad olunmuş ərazilərdə yerləşən hərbi hissələrə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xeyli sayda ərzaq məhsullarının çatdırılması bu gün də təmin edilir. Müharibə dövründə olduğu kimi, bu təşəbbüsə qoşulan xalqımız, müxtəlif təşkilatlar, şirkətlər, ayrı-ayrı şəxslər tərəfindən Ordumuza hərtərəfli yardım edir. Əsgərlərimizə ərzaq payı normalarına daxil olmayan qida məhsulları, şirniyyatlar, fərdi gigiyena vasitələri və digər ləvazimatlar çatdırılır. Birinci vitse-prezident başda olmaqla Azərbaycan Ordusuna dəstək olan hamıya Müdafiə Nazirliyinin rəhbərliyi bir daha dərin təşəkkürünü bildirir.

Eyni zamanda hərbi qulluqçuların sağlamlığını diqqətdə saxlamaq məqsədilə hərbi tibbi personal gücləndirilmiş iş rejimində fasiləsiz xidmət göstərir. Azad olunmuş ərazilərimizdə stasionar hərbi tibbi məntəqələr yaradılana qədər tapşırığa əsasən bir neçə istiqamətdə mobil səhra hospitalları fəaliyyət göstərir.

Qeyd edək ki, müdafiə nazirinin əmri ilə qısa müddətdə mütəxəssislərdən ibarət bir neçə komissiya hərbi birliklərdə şəxsi heyətin yerləşməsi və məişət şəraitinin yoxlanılmasını həyata keçirib. Kompleks yoxlamalar nəticəsində ümumilikdə təminat məsələlərində sistemli problemlər aşkarlanmayıb. Bununla belə, bəzi cüzi nöqsanlar müəyyən edilib və aşkarlanan bu çatışmazlıqlar dərhal aradan qaldırılıb. Vəzifələrinin icrasına səhlənkar yanaşan, nöqsanlara yol verən bəzi vəzifəli şəxslər cəzalandırılıb və onlar barəsində müvafiq tədbirlər görülüb.

Bununla belə, son günlər sosial şəbəkələrdə Azərbaycan Ordusunun nüfuzuna xələl gətirən və Vətən müharibəsində əldə etdiyimiz Zəfərə kölgə salan videokadrlar yayılır və onlara məqsədyönlü şəkildə müxtəlif qərəzli şərhlər yazılır. Beləliklə də, "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununun müvafiq tələbləri pozularaq Ordumuz barəsində məlumatlar yayılır, qeyri-obyektiv xəbərlərlə isə hərbi qulluqçularımızın nüfuzuna xələl gətirilir.

Bəzi sosial şəbəkə istifadəçiləri hətta hərbi qulluqçuların siqaret ilə təmin olunmaması ilə əlaqədar narazılıqları əks etdirən videolar da paylaşırlar. Bildiririk ki, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti üçün ərzaq payı normaları haqqında Nazirlər Kabinetinin müvafiq qərarında hərbi qulluqçuların tütün məmulatları ilə təmin edilməsi nəzərdə tutulmayıb. Bununla belə, dövlət tərəfindən olunan humanitar yardımlar arasında müxtəlif növ siqaretlər də vardır ki, bunlar da tütün məmulatından istifadə edən hər bir hərbi qulluqçuya fərdi qaydada çatdırılır.

Müdafiə Nazirliyi hərbi qulluqçuların valideynləri və yaxınlarına müraciət edərək bir daha bildirir ki, onları narahat edən məsələlərlə bağlı müraciətlərini sosial şəbəkələr vasitəsilə deyil, daha operativ həll olunması üçün nazirliyin sutka ərzində fasiləsiz fəaliyyət göstərən (012) 912, (012) 538-61-31, (012) 404-76-34 telefon nömrələri vasitəsilə bildirsinlər.



# Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələri növlərinin siyahısına 23 yeni növ əlavə edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təklifləri əsasında hazırlanaraq Nazirlər Kabineti tərəfindən təsdiqlənən "Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısı"na 23 yeni növ də əlavə edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, aparılan islahatlar çərçivəsində əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təminatı sahəsi də inkişaf etdirilir. Bu sahədə müasir yanaşmalar tətbiq olunur, təqdim edilən reabilitasiya vasitələrinin getdikcə həm keyfiyyəti, həm də növləri artır.

Yeniliklərdən biri kimi, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxslər üçün yüksək texnologiyalı protezlərin istehsalı və təqdim edilməsinə başlanılıb. Həmçinin əlilliyi olan şəxslərin müyəssərlik, inteqrasiya imkanlarının artırılması üçün yeni vasitələrin tətbiqi artıq ardıcıl xarakter alıb. Qeyd edilənlərlə əlaqədar siyahıda ənənəvi reabilitasiya vasitələri ilə yanaşı, yeni növlər (yataq xəstələri üçün çarpayı, hərəkətli qaldırıcı qurğu, səs, göz, sifət və diş protezləri, "danışan kitab" və s.) də əksini tapıb.

Eyni zamanda müasir yanaşmanın nəticəsi olaraq siyahıda "əlil arabası" ifadəsi də "təkərli oturacaq"la əvəz edilib. Ümumilikdə, siyahıda reabilitasiya vasitələri növlərinin sayı 57-yə çatıb.

# "Azərişıq" ASC ilin enerji şirkəti seçilib

**Bu gün "Caspian Energy Club"un təşkil etdiyi sayca 5-ci "Caspian Business Award"ın təqdimetmə mərasimi baş tutub. Mərasimdə "Azərişıq" ASC "İlin Enerji Şirkəti" nominasiyasında qalib elan edilib.**

"Azərişıq" ümumilikdə "Caspian Energy Club"un 1500-ə qədər üzvü arasında keçirilən sorğu nəticəsində ilk pilləyə yüksəlib.

Sıralarında dünyanın 50 ölkəsindən 5 mindən artıq şirkət və təşkilatı birləşdirən "Caspian Energy Club" 2002-ci ilin iyununda yaradılıb. "Biznes-hökumət" dialoqunun fəal iştirakçısı olan "Caspian Energy Club"un əsas məqsədi Azərbaycanda və "Caspian Energy Club"un fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılmasından, həmçinin B2G, B2B və B2C formatlarında dialoqların stimullaşdırılmasından və onlarda fəal iştirak etməkdən ibarətdir.




Onlayn formatda keçirilən və dünyanın bir çox ölkəsindən 1500-ə yaxın iştirakçının qoşulduğu mükafatlandırma mərasimində çıxış edən "Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadə "Caspian Energy Club"un rəhbərliyinə və əməkdaşlarına təşəkkür edərək, 2020-ci il ərzində Səhmdar Cəmiyyət tərəfindən görülən işlər, aparılan islahatlar və həyata keçirilən innovativ tədbirlər haqda qısa məlumat verdi. Sonda "Azərişıq" ASC-nin il ərzində fəaliyyətinə dair videoçarx forum iştirakçılarına təqdim olundu.

Biznes-netvorkinq üçün beynəlxalq platforma olan "Caspian Energy Club" mütəmadi olaraq müxtəlif tədbirlər təşkil edir. "Caspian Energy Club"un mənzil-qərargahı Bakı şəhərində yerləşir. "Caspian Energy Club"un Gürcüstan və Qazaxıstanda rəsmi nümayəndəlikləri, həmçinin dünyanın müxtəlif ölkələrində səlahiyyətli nümayəndələri var.

*"Azərbaycan"*

# Koronavirusdan 4461 nəfər sağalıb, 2334 nəfər isə yoluxub

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından 4461 nəfər müalicə olunaraq sağalıb, 2334 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 46 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 208 min 211 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 151 min 660 nəfər müalicə olunaraq sağalıb, 2340 nəfər vəfat edib. Aktiv xəstə sayı 54211 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 102 min 957 test aparılıb. Dünənki test sayı isə 14599-dur.




## B İ L D İ R İ Ş

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi ilə "NUR-SS" MMC arasında Sosial Xidmətlər Agentliyinin aparatı və filialları üçün digər maşın və avadanlıqların satın alınması məqsədilə 23 dekabr 2020-ci il tarixdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi ilə "AZƏRMAŞ GROUP" MMC arasında Sosial Xidmətlər Agentliyinin aparatı və struktur bölmələrdə istifadə olunacaq minik avtomobillərinin, mikroavtobusların və avtobusların satın alınması məqsədilə 23 dekabr 2020-ci il tarixdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi ilə "DE TAL" MMC arasında Agentliyin aparatı və filialları üçün istehlakyönlü müxtəlif xidmətlərin satın alınması məqsədilə 22 dekabr 2020-ci il tarixdə satınalma müqavilələri imzalanmışdır.

*Tender komissiyası*

## "Azərenerji" ASC
### Avtomobillərin ehtiyat hissələrinin satın alınması üzrə
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: Avtomobillərin ehtiyyat hissələrinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu https://etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adıçəkilən tenderin bölməsində əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov telefon: (012) 490-09-27, 598-26-96; 598-05-56

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tenter təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd (iri sahibkarlıq subyektləri qanuna əsasən tenderdə iştirak edə bilməz);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Əsas şərtlər toplusunda (əlavə №17) qeyd edilən malların siyahısı üzrə təqdim olunan qiymət təklifləri bütün siyahını tam əhatə etməlidir;*
- *mallar sifariş verildiyi vaxtdan sonra ən çoxu 2 ay (60 gün) müddətinə çatdırılmalıdır;*
- *müvafiq sertifikatlar.*

Sənədlər Azərbaycan dilində, skan olunaraq dövlət satınalmalarının vahid internet Portalına yüklənməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **27 yanvar 2021-ci il saat 09:00-a** qədər, bank təminatını və tender təklifini isə **04 fevral 2021-ci il saat 09:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri **05 fevral 2021-ci il saat 09:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Fondun məhsulları üzrə əlçatanlığın (müştəri məmnuniyyəti, istifadə və gözləntilər) öyrənilməsinə dair ictimai sorğunun keçirilməsi xidmətlərinin satın alınması üçün şirkətin seçilməsi üzrə
### *kotirovka sorğusu elan edir*

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 25 dekabr 2020-ci il saat 11:00-a qədər qəbul olunur.

Ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxs Taleh Əliyevə müraciət edə bilərlər.

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M. Şərifzadə küçəsi, 172**
**Telefon: (012) 310- 23- 02**
**Fax: (012) 432-37-17 e-mail: info@edf.gov.az**

*Tender komissiyası*

## "Bank Respublika" ASC səhmdarlarının nəzərinə

"Bank Respublika" ASC Səhmdarlarının növbədənkənar ümumi yığıncağı **27 yanvar 2021-ci il saat 11:00-da,** Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın baş ofisində keçiriləcək.

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-nin ilin maliyyə nəticələri və mükafatın ödənilməsi haqqında.

*İdarə heyəti*

## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu 9 saylı Beynəlxalq Maliyyə Hesabatı Standartının (BMHS 9) tətbiq edilməsi ilə proqram təminatının yaradılması xidmətinin satın alınması məqsədi ilə
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının **https://www.etender.gov.az/** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**

**Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu**
**VÖEN: 1305619841**
**Hesablaşma hesabı: AZ03PAHA36015AZNHC0100089628**
**Bankın adı: "PAŞA Bank" ASC**
**Kod: 505141**
**VÖEN: 1700767721**
**Müxbir hesabı: AZ82NABZ01350100000000071944**
**S.W.I.F.T. PAHAAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır və ya tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam hüquqi adı, statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *malgöndərənin (podratçının) ixtisas göstəricilərinə aid məlumat;*
- *tenderin Əsas şərtlər toplusunda qanunvericiliklə nəzərdə tutulan və tələblərindən irəli gələn digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **19 yanvar 2021-ci il saat 15:30-a,** tender təklifi ilə bank təminatı sənədlərini isə **28 yanvar 2021-ci il saat 15:30-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **29 yanvar 2021-ci il saat 15:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

İddiaçılar E-şərtlər toplusunu **24.12.2020-ci il saat 15:30-dan** sonra (elan tarixi günü) əldə edə bilərlər.

*Tender komissiyası*

## "Azərenerji" ASC
### Müxtəlif növ kompüter avadanlıqları və aksesuarlarının satın alınması üzrə
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: Müxtəlif növ kompüter avadanlıqları və aksesuarlarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adıçəkilən tenderin bölməsində əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov telefon: (012) 490-09-27, 598-26-96; 598-05-56).

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tenter təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd (iri sahibkarlıq subyektləri qanuna əsasən tenderdə iştirak edə bilməz);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Əsas şərtlər toplusunda (əlavə №17) qeyd edilən malların siyahısı üzrə təqdim olunan qiymət təklifləri bütün siyahını tam əhatə etməlidir;*
- *mallar sifariş verildiyi vaxtdan sonra ən çoxu 2 ay (60 gün) müddətinə çatdırılmalıdır;*
- *müvafiq sertifikatlar.*

Sənədlər Azərbaycan dilində, skan olunaraq dövlət satınalmalarının vahid internet Portalına yüklənməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 yanvar 2021-ci il saat 09:00-a** qədər, bank təminatını və tender təklifini isə **28 yanvar 2021-ci il saat 09:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri **29 yanvar 2021-ci il saat 09:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən yeni yaradılmış Arxiv və Sosial Ödəniş İşlərinin İnventarlaşdırılması üzrə Mərkəzi Filialı üçün odadavamlı, metal arxiv rəflərinin və köməkçi vasitələrin satın alınması üzrə 11 noyabr 2020-ci il tarixində elan edilmiş müsabiqə Azərbaycan Respublikasının "Dövlət satınalmaları haqqında" qanunun 11.2-ci maddəsinə əsasən, tender predmetinin maliyyələşdirilməsinin dayandırılması ilə əlaqədar ləğv olunur.

*Tender komissiyası*

# Onlayn mağazanızı yaradaraq satışlarınızı artırın

## "Azercell Biznes"in təkmilləşdirilmiş "Biznesim Veb" xidməti COVID-19 pandemiyası dövründə korporativ müştərilər üçün böyük imkanlar açır

**Pandemiya dövründə bütün iqtisadi əlaqələrin, o cümlədən ticarətin onlayn platformaya daşındığı bir dövrdə "Azercell Biznes" sahibkarlar və müəssisə rəhbərləri üçün böyük imkanlar açır.**




Belə ki, təqdim olunan yeni "Biznesim Veb" xidməti sürətli şəkildə veb saytın yaradılmasına, onun onlayn mağaza kimi istifadəsinə imkan verərək satışları asanlaşdırır. Təkmilləşdirilmiş bu xidmət COVID-19 pandemiyası dövründə tətbiq olunan sərbəst hərəkət məhdudiyyəti və digər bu kimi tədbirlər şəraitində biznes sahiblərinə önəmli alternativ və yardımçı satış strategiyasıdır. "Biznesim Veb" xidmətinə qoşulmaqla sizin mağaza və ya restoranınız biznesin yeni fəaliyyət normasına uyğunlaşacaq və rəqəmsal həllər vasitəsilə fəaliyyət göstərəcək.

"Biznesim Veb" xidmətinin əsas üstünlüklərindən biri də "Azercell Biznes"-in müştərilərinin öz şirkətləri və müəssisələri üçün cəmi 3 gün ərzində heç bir əlavə investisiya qoymadan elektron mağaza funksiyası olan bir veb sayt yaratmaqla öz işlərini inkişaf etdirə bilmək imkanıdır. Azərbaycanda kiçik və orta sahibkarlığın inkşafına yönələn bu rəqəmsal xidmət çərçivəsində müştərilər domain qeydiyyatı, hostinq, "Google" xidmətlərindən istifadə, səhifənin təhlükəsizliyinin təminatı kimi digər üstünlüklərdən də faydalana bilərlər.

Yaradılacaq veb səhifədə istifadəçi qeydiyyatının aparılmasını mümkün edən "Users" xidməti, hər bir istifadəçiyə özünün şəxsi bloqunu yaratmağa imkan verən "Blog" xidməti də əlavə olunmuşdur.

Bunlarla yanaşı, "Biznesim Veb" xidmətinə həm də SEO - Google axtarış sistemi üçün səhifənin optimallaşdırılması funksiyası əlavə edilib. Bu zaman "Google" axtarış sisteminə həmin saytla bağlı nəticələr ilk sıralarda görünür ki, bu da saytın tanınması üçün çox önəmlidir.

Qeyd edək ki, xidmət çərçivəsində yaradılan saytın idarə olunması sistemi Windows OS, Mac OSX tərəfindən dəstəklənir. Rahat interfeysin mövcudluğu, məzmunun ayrıca tətbiqlər vasitəsilə təqdim olunması saytın daha sürətli və asanlıqla idarəetməsini həyata keçirməyə imkan verir. Xidmət haqqında daha ətraflı məlumat əldə etmək üçün *1111 nömrəsil ilə əlaqə saxlayın və ya business@azercell.com ünvanına müraciət edin.

Azərbaycanda fəaliyyət göstərən şirkətlərin seçimi olmağı hədəfləyən "Azercell Biznes" müştərilərini yeni nəsil həllərin tətbiqi yolu ilə fərdiləşdirilmiş xidmətlə təmin etmək, fərqli məzmunda məhsullar təqdim etməklə onların inkişafına imkan yaradır.

## B İ L D İ R İ Ş

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi ilə "BAKI TEKSTİL FABRİKİ" MMC arasında sosial xidmətçilər üçün uniformaların satın alınması məqsədilə 21 dekabr 2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tender elan edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - EATS-lərdə HUAWEi stansiyaları üçün avadanlıqların satın alınması.**

**LOT 2 - PRTG Network Monitor tool şəbəkəyə nəzarət sisteminin (lisenziya ilə birgə) açıq tender üsulu ilə satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 -300 (üç yüz) manat (ƏDV daxil)**

**LOT 2 -150 (bir yüz əlli ) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin Əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **19 yanvar 2021-ci il saat 16:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **27 yanvar 2021-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **28 yanvar 2021-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

***Qeyd:*** *Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi ilə "NUR-SS" MMC arasında Sosial Xidmətlər Agentliyinin aparatı və filialları üçün dəftərxana mallarının satın alınması məqsədilə 22 dekabr 2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN"

*qəzetinə **2021**-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## B İ L D İ R İ Ş

"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi mühərrikli əlil arabalarının satın alınması məqsədilə elan etdiyi açıq tenderin qalibi **"Kəmər-Qaya" Məhdud Məsuliyyətli Cəmiyyəti** olmuşdur.

Qalib təşkilatla müvafiq müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən geyimlərin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 15 dekabr 2020-ci il tarixli qərarına əsasən, fərdi sahibkar Leyla Yusifova qalib elan edilmişdir.

Qalib şəxslə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsinin Sosial Sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialı tərəfindən digər maşın və avadanlıqların satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusunda iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmə nəticəsində **"B2B GROUP" MMC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi Fəhmin Hümbətova atası

**ZAUR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Elm - Tədris Mərkəzinin rəis müavini Günay İsmayılovaya qardaşı

**TURAL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdamdan Vaqif Həsənov Ağdam Rayon Məhkəməsinin hakimi Mahir Niftəliyevə əzizi

**FUAD KAMİL OĞLU SOLTANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağdamdan Vaqif Həsənov

**HABİL ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Rəhman Salmanlı Əməkdar elm xadimi, professor Vaqif Şadlinskiyə bacısı

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru Cəmilə Qurbanovaya atası professor, tibb elmləri doktoru

**FAZİL SƏMƏD OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi iş yoldaşları

**LALƏ HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Ceyhun Şadlinskiyə əzizi

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu görkəmli alim, tibb elmləri doktoru, professor

**FAZİL QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar Xidmətin kollektivi Azərbaycan Tibb Universitetinin kafedra müdiri, Əməkdar elm xadimi, professor Vaqif Şadlinskiyə bacısı

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminalogiya kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Vaqif Şadlinskiyə bacısı

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Şaiq Əsgərova atası

**ƏHƏD ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Gənclər və idman nazirinin müavini İntiqam Babayevə atası

**VAQİF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7368
Sifariş 3002
Qiyməti 40 qəpik